# Xalq qəzeti

Xalqın qəzeti!

№ 251 (30945) 27 noyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Azad Qarabağ yenidən cənnətə çevrilir



## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

**Bu gün Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün Böyük Qayıdış Proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Bu gün biz azad Qarabağda azad yaşayırıq. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır.**

**Buraya qayıdan insanların sayı artır və bundan sonra daha sürətlə artacaq. Çünki biz birinci 4 ildə daha çox infrastruktur layihələri ilə məşğul idik. Onların əsas hissəsini, demək olar ki, bitirmişik. Böyük Qayıdışın əvvəlində mən demişdim ki, biz bu bölgəni cənnətə çevirəcəyik. Qarabağ artıq cənnətin kiçik bir parçasıdır.**

## Azərbaycan–İsrail strateji tərəfdaşlığında humanitar balans



Səhifə ⇨ 4

## Zəngəzur dəhlizi və Türkiyənin logistik strategiyası




Səhifə ⇨ 3

## "Bərabərlik" nəqliyyatda "ədalətsizlik" buxovuna çevriləndə...

### *Sərnişin niyə getmədiyi yol üçün ödəniş etməlidir?*

**Son illər paytaxtımızın nəqliyyat sistemində ardıcıl islahatlar həyata keçirilir, şəhərin müasir avtobus parkı yenilənir, metronun yeni stansiyalarının tikintisi uğurla davam etdirilir, ödəniş sistemləri isə rəqəmsal transformasiyaya əsaslanan tariflərlə gerçəkləşdirilir. Xüsusilə metroda NFC dəstəkli bank kartları, ödənişlərin "Apple Pay" və "Google Pay" vasitəsilə aparılmasını Bakı sakinləri yüksək qiymətləndirirlər.**



Lakin paytaxt sərnişinlərinin avtobus və metro ilə qət etdikləri məsafədən asılı olmayaraq eyni məbləğdə gediş haqqı ödəmələri texnoloji yeniliklər fonunda ictimai narazılığın əsas səbəblərindən biri kimi diqqət çəkir. Bu, ədalət prinsipinin pozulmasına gətirib çıxarır və ictimai nəqliyyatın səmərəli istifadəsini məhdudlaşdırır. Ekspertlərin fikrincə, narazılıq sosial-iqtisadi amillərlə bağlıdır. Çünki sərnişindaşımada tətbiq olunan indiki tarif siyasəti nə sərnişin cəlbinə xidmət edir, nə də daşıyıcıların real xərclərini şərtləndirir.

*(ardı 8-ci səhifədə)*

## Pakistanla iqtisadi əməkdaşlığın yeni hədəfləri

### *Son 1 ildə ticarətin həcmi 40 faiz artıb*



**Azərbaycan və Pakistan arasında ikitərəfli münasibətlər sürətlə inkişaf edir və hər iki ölkə əməkdaşlığın genişləndirilməsi üçün ciddi addımlar atır. Bu əməkdaşlığın bariz nümunələrindən biri Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin Pakistana səfəridir. Səfər çərçivəsində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif ilə keçirilən görüş zamanı iki ölkə arasındakı strateji tərəfdaşlığın müxtəlif sahələr üzrə intensiv inkişaf etdiyi, iqtisadi əməkdaşlığa mühüm töhfələr verdiyi xüsusi vurğulanıb.**

*(ardı 7-ci səhifədə)*

## Avropada "əzələ" nümayişi




Səhifə ⇨ 6

## Çoxyönlü siyasət quruculuğu




Səhifə ⇨ 4

## "Düşmən Venediktov"



Səhifə ⇨ 5

## ABŞ Arktikada donanmasını gücləndirir




Səhifə ⇨ 11

## Hindistanın "Tejas" proqramına 2 ağır zərbə

Səhifə ⇨ 5

# Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında ən yüksək nəticələr göstərmiş Azərbaycan Respublikası idmançılarının, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1 900 000 (bir milyon doqquz yüz min) manat vəsait ayrılsın.

**2** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi:

2.1. idmançılar arasında rəqabətin səviyyəsi, ən yüksək nəticələrə görə medalların sayı, fərdi və ya komanda yarışlarında iştirakı nəzərə alınmaqla idmançıların, onların məşqçilərinin və idmançıların oyunlara hazırlığı prosesində iştirak etmiş digər mütəxəssislərin mükafatlandırılması üçün nəzərdə tutulmuş vəsaitin bölgüsünə, habelə vəsaitin ödənilməsinə dair qaydanı 10 (on) gün müddətində hazırlayıb təsdiq etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsi ilə ayrılmış vəsaitin həmin Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş qaydaya uyğun olaraq ödənilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 noyabr 2025-ci il**

# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Abiddin Qabil oğlu Hüseynov – Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Toğrul Aydın oğlu Hüseynov – Azərbaycan Respublikası ədliyyə nazirinin müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 noyabr 2025-ci il**

# Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi BMT-də yayımlanıb

**Sentyabrın 21-də "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda keçirilmiş III Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi və Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanıb.**



Bu əlamətdar hal Bakı Təhlükəsizlik Forumunun təhlükəsizlik sahəsində artan əhəmiyyətindən, beynəlxalq institusional-hüquqi perspektivindən xəbər verir.

Forumun builki plenar iclası Bakı Təhlükəsizlik Forumunun Əsasnaməsinin və Bəyannaməsinin qəbul edilməsi, həmçinin ümumi razılıq əsasında dünyada ilk dəfə xüsusi xidmət və təhlükəsizlik orqanları arasında 24/7 rejimli Antiterror İnformasiya Mübadiləsi Sisteminin yaradılmasının qərara alınması ilə yadda qalıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı, 90-na yaxın xarici xüsusi xidmət orqanının rəhbərlərinin və yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirin iştirakçılarına Prezident İlham Əliyevin ünvanladığı müraciətdə bildirilir ki, Forum qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir.

Forumun Bəyannaməsində iştirakçı dövlətlər beynəlxalq hüququn təməl prinsiplərinə sadiqliklərini bildirərək, xüsusi xidmət və təhlükəsizlik orqanları tərəfindən transmilli mütəşəkkil cinayətkarlıq, beynəlxalq terrorçuluq və qlobal təhlükəsizliyə təhdid sayılan digər hallarla mübarizədə səylərin birləşdirilməsinin, qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin, təcrübə və məlumat mübadilələrinin fasiləsiz, aktiv və operativ şəkildə aparılmasının və beynəlxalq təhlükəsizliyin etibarlı təmin olunması üçün davamlı olaraq birgə qətiyyətli addımların atılmasının vacibliyini bəyan etmişlər.

Qeyd edək ki, Forumda, həmçinin BMT-nin təhlükəsizlik sahəsində aidiyyəti strukturları təmsil olunmuş, Forumun Bəyannaməsinin və Azərbaycan Respublikası Prezidentinin müraciətinin BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanması Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsinin müraciəti əsasında olmuşdur.

***XQ***

# Hikmət Hacıyev türkiyəli qonaqlarla görüşüb



**"Şuşada keçirilən Birinci Türkiyə-Azərbaycan Beyin Mərkəzləri Forumunda iştirak edən Türkiyə nümayəndə heyəti olaraq Azərbaycan Prezidenti İlham Əliyevin köməkçisi Hikmət Hacıyevi ziyarət etdik".**

Bu haqda Türkiyənin Strateji Araşdırmalar Mərkəzinin "X" hesabında məlumat verilib.

Bildirilib ki, görüş zamanı Türkiyə-Azərbaycan əməkdaşlığının bütün aspektləri, eləcə də regional və qlobal hadisələr müzakirə edilib.

*



Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Niderland səfiri Marian De Yonq ilə də görüşüb. Bu barədə Niderlandın Azərbaycandakı səfirliyi "X"də paylaşım edib.

Görüşdə regional məsələlər, Avropa İttifaqı ilə siyasi-iqtisadi əməkdaşlıq mövzuları müzakirə edilib. Eyni zamanda Azərbaycan və Niderland arasında ikitərəfli əlaqələrin gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

***XQ***

# Ceyhun Bayramovun İtaliya səfəri



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Vatikan səfəri zamanı Roma Papası XIV Leonun ümumi audiyensiyasında iştirak edib və onunla görüşüb. Nazir bu barədə özünün "X" hesabında paylaşıb.**

"Rəsmi səfərim çərçivəsində Papa XIV Leonun ümumi audiyensiyasında iştirak etdim və görüşməkdən şərəf duydum.

Azərbaycan və Müqəddəs Taxt arasında möhkəm münasibətlər mövcuddur və bu əlaqələr dinlərarası dialoqun dəstəklənməsi, multikulturalizmin təşviqi baxımından böyük əhəmiyyət daşıyır.

İki ölkə arasındakı münasibətlər müxtəlif dinlər arasında dialoq üçün nümunə təşkil edir və bu, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biridir", - paylaşımda qeyd olunub.

*

**Xarici işlər naziri Ceyhun Bayramov İtaliyaya rəsmi səfəri çərçivəsində İtaliya Parlamentinin Deputatlar Palatasının Prezidenti Lorenzo Fontana ilə də görüşüb.**



Bu barədə Xarici İşlər Nazirliyinin "X" hesabında məlumat verilib.

Bildirilib ki, görüş Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlıq barədə fikir mübadiləsi aparmaq, siyasi dialoqun dinamik inkişafını müzakirə etmək və parlamentlərarası əməkdaşlığın gücləndirilməsi yollarını araşdırmaq üçün fürsət yaradıb.

Hər iki tərəf ortaq maraqların və regional sabitliyin dəstəklənməsi üçün enerji, ticarət, mədəni və humanitar sahələrdə davamlı əməkdaşlığın vacibliyini vurğulayıb.

Görüş zamanı Ceyhun Bayramov Fontanaya münaqişədən sonrakı dövrdə regiondakı mövcud vəziyyət barədə məlumat verib.

***XQ***

# YAP nümayəndə heyəti Kubada



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov, partiyanın Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli və İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Kubaya səfər edib.**



Kuba Kommunist Partiyasının dəvəti əsasında baş tutan səfər çərçivəsində Kuba Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi, Kuba Prezidenti Miqel Mario Dias-Kanel Bermudes nümayəndə heyətini qəbul edib. Qəbul zamanı Azərbaycan ilə Kuba arasında münasibətlərin tarixi köklərə əsaslandığı qeyd olunaraq ümummilli lider Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun bu istiqamətdə müstəsna xidmətləri vurğulanıb. Azərbaycan-Kuba münasibətlərində YAP və Kuba Kommunist Partiyasının önəmli rolu qeyd edilib.

Nümayəndə heyətinin Xalq Hakimiyyəti Milli Assambleyasının və Dövlət Şurasının sədri Xuan Esteban Lazo Hernandes ilə də görüşü keçirilib. Görüşdə Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev və Prezident Miqel Dias-Kanelin iki ölkə arasındakı münasibətlərə xüsusi önəm verdikləri, siyasi partiyalar və parlamentlərarası əlaqələrin əməkdaşlığın inkişafında vacib rol oynadığı qeyd olunub.

KKP Mərkəzi Komitəsi Katibliyinin üzvü Xose Ramon Monteaqudo Ruiz və Kuba xarici işlər nazirinin birinci müavini Herardo Penyalver Portal ilə görüşlər zamanı isə YAP nümayəndə heyətinin dost ölkəyə səfərinin önəmi vurğulanaraq, qarşılıqlı fikir mübadiləsinin əlaqələrin mövcud vəziyyəti və gələcək imkanların müzakirəsi baxımından son dərəcə əhəmiyyətli olduğu qeyd edilib.

Səfər çərçivəsində YAP ilə KKP arasında Əməkdaşlıq Sazişi də imzalanıb.

***XQ***

# Özbəkistanla elm və təhsil əməkdaşlığı genişlənir



**Azərbaycan elm və təhsil naziri Emin Əmrullayevin Özbəkistana işgüzar səfəri çərçivəsində bu ölkənin məktəbəqədər və ümumi təhsil naziri Ezazxon Kərimova ilə görüşüb.**

Tərəflər Azərbaycanla Özbəkistan arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və gələcək inkişaf perspektivlərini müzakirə ediblər. Nazirlər təcrübə mübadiləsinin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi, məktəbəqədər və ümumi təhsil sisteminin modernləşdirilməsi üçün əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Görüşdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev iştirak edib.

*

**Elm və təhsil naziri Emin Əmrullayev səfəri çərçivəsində Özbəkistanın ali təhsil, elm və innovasiya nazirinin birinci müavini Sardor Rəcəbovla da görüşüb.**



Danışıqlar zamanı iki ölkə arasında ali təhsil, elm və innovasiya sahəsində strateji əməkdaşlığın yeni səviyyəyə çatdığı qeyd edilib.

Görüşdə elm, tədqiqat, təcrübə və innovasiya sahəsində əməkdaşlığın gücləndirilməsi, tələbə mübadiləsinin aktivləşdirilməsi, birgə təhsil proqramlarının həyata keçirilməsi, texnoparklar, innovasiya mərkəzləri və startap təşəbbüsləri arasında əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də iki ölkənin universitet rektorlarının növbəti forumunun 2026-cı ildə Bakıda keçirilməsi və elm sahəsində birgə ekspert qrupunun yaradılması da daxil olmaqla mühüm razılaşmalar əldə edilib.

Sonda Özbəkistanın İnnovativ İnkişaf Agentliyi ilə Azərbaycanın Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi arasında anlaşma memorandumu imzalanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Baş nazir Əli Əsədov "Rusiya Dəmir Yolları"nın baş direktorunu qəbul edib



**Azərbaycanın Baş naziri Əli Əsədov "Rusiya Dəmir Yolları"nın baş direktoru, İdarə Heyətinin sədri Oleq Belozyorovla görüşüb.**

Nazirlər Kabinetindən bildirilib ki, görüşdə müxtəlif sahələrdə Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Nəqliyyat və logistika, o cümlədən dəmir yolları arasında qarşılıqlı əlaqələrə xüsusi diqqət yetirilib. Regionun tranzit potensialının artırılması üzrə birgə səylərin davam etdirilməsinin vacibliyi qeyd edilib. Bu kontekstdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi boyunca infrastrukturun inkişafı və bu marşrut üzrə yük daşımalarında davamlı artımın qorunması üzrə işlərin sinxron aparılmasının zəruriliyi vurğulanıb.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov iştirak edib.

# Şahin Mustafayevin Rusiya hökuməti sədrinin müavini ilə görüşü

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev noyabrın 26-da Rusiya Federasiyası hökuməti sədrinin müavini Aleksandr Novak ilə görüşüb.**



Nazirlər Kabinetindən bildirilib ki, görüşdə cari il oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında keçirilmiş görüşün iki ölkə arasında bütün istiqamətlərdə münasibətlərə təkan verdiyi vurğulanıb.

Azərbaycan ilə Rusiya arasında iqtisadi əlaqələrin dinamik inkişaf etdiyi və yaxşı imkanlar vəd etdiyi qeyd olunub.

Görüş zamanı ticarət-iqtisadi, energetika və nəqliyyat sahələrində ikitərəfli əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Ədliyyə nazirinin BƏƏ-yə səfəri



**Noyabrın 25-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Respublikasının ədliyyə naziri Fərid Əhmədovu qəbul edib.**

Fərid Əhmədov, ilk növbədə, Prezident İlham Əliyevin səmimi salamlarını BƏƏ dövlət başçısına çatdırıb. Şeyx Məhəmməd bin Zayed Al Nəhyan da öz növbəsində salamlarını və dərin ehtiramını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Əbu-Dabidə baş tutan qəbul zamanı Azərbaycan və BƏƏ prezidentlərinin təşəbbüsləri sayəsində iki ölkə arasında münasibətlərin bütün istiqamətlər üzrə strateji tərəfdaşlıq səviyyəsində olduğu diqqətə çatdırılıb.

Söhbət zamanı iki ölkə arasında hüquqi, eləcə də ədliyyə sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün imkanların olduğu vurğulanıb.

*XQ*

# Kəlbəcərə növbəti köç




**Dünən növbəti köç karvanı Kəlbəcər şəhərinə çatıb. Daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzillər verilib.**

Bu mərhələdə Kəlbəcərə 27 ailə (112 nəfər) köçürülüb. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bildiririk ki, indiyə kimi Kəlbəcərə cəmi 108 ailə (450 nəfər) köçürülüb.

*XQ*

# Zəngəzur dəhlizi və Türkiyənin logistik strategiyası

**Türkiyənin ticarət naziri Ömər Bolat yerli "Analiz" qəzetinə müsahibəsində ölkəsinin ticarət və logistika sahəsində strateji prioritetlərindən danışıb. O, Zəngəzur dəhlizi marşrutuna xüsusi toxunub. Nazir qeyd edib ki, Türkiyə özünün üç qitənin qovşağında yerləşən logistika körpüsü rolunu təkcə coğrafi üstünlük kimi görmür, həm də onu qlobal iqtisadi üstünlüyə çevirir. "Bu təkcə strateji bir arzu deyil, həm də ticarət zərurətidir", – deyə o, əlavə edib.**






Bəli, türkiyəli nazirin Zəngəzur dəhlizi ilə bağlı açıqlaması ölkənin yalnız regional oyunçu olmaqla kifayətlənməyəcəyini, eyni zamanda, qlobal tranzit sistemində aktiv iştirakçı kimi çıxış etmək niyyətini vurğulayır. Bu çərçivədə dəhliz məntiqi siyasi və iqtisadi mənafeləri dəstəkləyən strateji rıçaq rolunu oynayır. Onu da düşünək ki, layihə Ankara üçün yalnız nəqliyyat və logistika infrastrukturunu inkişaf etdirmək deyil, həm də türk dünyası ilə inteqrasiyanı gücləndirmək məqsədi daşıyan vasitədir. Bu dəhliz vasitəsilə Türkiyə Mərkəzi Asiya və Türk dünyası ilə birbaşa quru əlaqəsi qurmaq arzusunu konkret əməli addıma çevirir.

Hazırda Türkiyənin Mərkəzi Asiyaya Gürcüstan üzərindən çıxışı 950 kilometr təşkil edir. Zəngəzur dəhlizi istifadəyə verilərsə, bu məsafə 400 kilometrə qədər, tranzit müddəti isə 5–7 gün qısalacaq və daşınma xərcləri 15–20 faiz azalacaq. Deməli, rəqəmlər Türkiyənin regional ticarət mərkəzinə çevrilməsi strategiyasının həm iqtisadi, həm də logistika baxımından nə qədər səmərəli olduğunu göstərir.

Nazirin açıqlamalarına görə, dəhliz Türk Dövlətləri Təşkilatı (TDT) daxilində ticarət əlaqələrinin dərinləşməsinə və iqtisadi inteqrasiyanın güclənməsinə şərait yaradacaq. Statistik məlumatlar da bunu təsdiqləyir: 2020–2024-cü illərdə Türkiyə ilə türk dövlətləri arasında ümumi ticarət dövriyyəsi 62,6 milyard ABŞ dolları olub; bu dövrdə Türkiyənin ixracı 36,6 milyard, idxalı isə 26 milyard dollar təşkil edib. Ən böyük ticarət dövriyyəsi isə Azərbaycanla – 18,1 milyard dollardır. Azərbaycanla əməkdaşlıq enerji və infrastruktur sahələrinə əsaslanır və TANAP, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum magistralları ilə Zəngəzur dəhlizi birləşərək enerji və strateji məhsulların daşınmasını optimallaşdırır. Bu, regional enerji bazarında rəqabət qabiliyyətini artırır və idxal-ixrac əməliyyatlarını sürətləndirir.

Zəngəzur dəhlizi, həmçinin digər türk dövlətləri üçün də strateji əhəmiyyət kəsb edir. Son beş ildə Türkiyədən Qazaxıstana ixrac 10,1 milyard, idxal 13,2 milyard dollar, Özbəkistanla ticarət dövriyyəsi 15,8 milyard, Qırğızıstanla isə 5,4 milyard dollar təşkil edib. Dəhlizin istifadəyə verilməsi ilə bu həcmlərin illik orta hesabla 10–15 faiz artması proqnozlaşdırılır. Beş il ərzində Qazaxıstanla ticarət dövriyyəsi 15–16, Özbəkistanla 20, Qırğızıstanla isə 6–6,5 milyard dollara çatdırıla bilər. Bu göstəricilər türk dövlətləri arasında iqtisadi inteqrasiyanın dərinləşməsi və regional ticarətin sürətləndirilməsi baxımından böyük strateji əhəmiyyətə malikdir.

Dəhlizin iqtisadi və siyasi əhəmiyyəti bununla da bitmir. Türkiyənin Zəngəzur dəhlizi vasitəsilə Mərkəzi Asiya və Azərbaycanla daha sıx inteqrasiyası, eyni zamanda, Avropa və Asiya bazarlarına daha sürətli çıxış əldə etməsi mümkün olacaq. Bu da Türkiyənin qlobal logistika və ticarət xəritəsində güclü mövqe tutmasına şərait yaradacaq. Bundan əlavə, layihə regional sabitliyi və iqtisadi əməkdaşlığı da təşviq edəcək, enerji və yükdaşımalarında rəqabət qabiliyyətini artıraraq bütün region üçün iqtisadi səmərəliliyi yüksəldəcək.

Ümumilikdə, Zəngəzur dəhlizi Türkiyənin ticarət və logistika strategiyasının mərkəzi elementi olaraq, həm iqtisadi, həm siyasi, həm də geosiyasi baxımdan böyük önəm daşıyır. Layihə Türkiyənin regional və qlobal tranzit şəbəkəsindəki mövqeyini gücləndirir, Türk dünyası ilə əlaqələri dərinləşdirir və regional ticarət əlaqələrini şaxələndirir.

Onu da qeyd edək ki, Mərkəzi Asiya ölkələri də Zəngəzur dəhlizinin tezliklə istifadəyə verilməsində maraqlıdırlar. Onlar dəhlizin yaradılmasını tam dəstəkləyir və onu regionun nəqliyyat-logistika xəritəsini dəyişdirmək gücündə olan əsas infrastruktur layihələrindən biri kimi görürlər. Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının deputatı Bobur Bekmurodovun da qeyd etdiyi kimi, Türk dünyası daxilində yük axınlarının artması və əlaqələrin genişlənməsi ilə yeni, daha etibarlı və proqnozlaşdırıla bilən marşrutların yaradılması önəmlidir: "Zəngəzur dəhlizinin açılması bütün Türk dünyası üçün mühüm tarixi hadisə olacaq. Bu marşrut Orta Dəhlizin əsas həlqəsinə çevriləcək və xalqlarımıza fayda gətirəcək. Layihə Türk ölkələri məkanında inteqrasiyanın yeni mərhələsi olacaq".

O, həmçinin vurğulayıb ki, Özbəkistan dəhlizi TDT daxilində iqtisadi və siyasi əməkdaşlığın dərinləşməsi prosesinin bir hissəsi kimi görür, bu isə gələcəkdə regionun dayanıqlılığını gücləndirməyə, ticarətin inkişafını sürətləndirməyə və Türk dövlətlərinin vahid nəqliyyat qovşağı kimi cəlbediciliyini artırmağa imkan verəcək.

Beləliklə, Zəngəzur dəhlizi Türkiyənin regional və qlobal strategiyasında bir neçə mühüm funksiyanı yerinə yetirir: tranzit və logistika mərkəzi kimi rol, enerji və kommunikasiya infrastrukturunun inteqrasiyası, Türk dövlətləri arasında iqtisadi inteqrasiyanın sürətlənməsi və uzunmüddətli regional sabitlik üçün baza təminatı. Proqnozlaşdırılan beşillik ticarət artımı, xərclərin azalması və tranzit imkanlarının genişlənməsi Türkiyənin həm iqtisadi, həm də geosiyasi mövqeyini xeyli gücləndirəcək, Ankara üçün strateji üstünlükləri konkret rəqəmlər təsdiqləyir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Mətbuat Şurasının Dil Komissiyası işini gücləndirəcək



**Rəşad MƏCİD,**
**Azərbaycan Mətbuat Şurasının sədri**

**Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş yığıncaqdakı çıxışında ana dilimizlə bağlı həssas məqamlara toxundu. Dilimizə yad təsirlərin artmasından narahatlığını ifadə edən dövlətimizin başçısı onun saflığını qorumağın hər bir vətəndaşın işi olduğunu vurğuladı. Prezident, eyni zamanda, həm televiziya, həm də yazılı media məkanındakı mənfi tendensiyalara diqqət çəkərək, dilimizin lazımınca qorunmamasının milli kimliyimizə təhlükə yaratmasından da söz açdı, bu istiqamətdəki durumu izləyəcəyini, lazımi tədbirlər görəcəyini bildirdi.**

Məlum olduğu kimi, Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası Prezident İlham Əliyevin çıxışındakı tezisləri rəhbər tutaraq, noyabrın 7-də "Mediada Azərbaycan ədəbi dilinin normalarının düzgün tətbiqi" mövzusunda konfrans keçirdi. Hesab edirəm ki, konfransın ayrı-ayrı panellərində mövzu kifayət qədər əhatəli müzakirə edildi, peşəkarlar və mütəxəssislər ümumi işə faydalı təkliflər səsləndirdilər, mənfi tendensiyaları diqqətə çatdırdılar. Heç şübhəsiz, təkliflərin praktikada tətbiqi istiqamətində də müvafiq və ardıcıl iş aparılmalıdır və aparılacaq.

Ümumən, Mətbuat Şurası yarandığı gündən mediada ana dilimizin saflığının qorunması məsələsinə həssas yanaşıb. Şura tərəfindən ölkəmizin aparıcı media vasitələrinin monitorinqi aparılıb. Bu işi Mətbuat Şurasının Dil Komissiyası qurumun "Mediada ədəbi dilin pozulması hallarının müəyyənləşdirilməsinə dair Təlimat"a uyğun şəkildə həyata keçirib.

Qeyd edim ki, Təlimatda leksik və qrammatik pozuntu hallarına diqqət yetirilir. Leksik pozuntular dedikdə, bura alınma, dialekt sözlərin, şivələrin, terminlərin işlədilməsi, habelə yeni sözlərin (neologizmlərin) yaradılması və işlədilməsi ilə bağlı pozuntular aiddir. Təbii ki, qrammatik pozuntular özünə daha geniş yanaşmanı tələb edir. Bu baxımdan, morfoloji qaydalara əməl olunmaması, yəni isimlərdə şəkilçilərin, fellərdə nəqli keçmiş zaman şəkilçisinin işlədilməsi, feli sifətlərdə və ismi xəbərlərdə zaman anlayışının istifadəsi, feli bağlamaların işlədilməsində Azərbaycan dilinin morfoloji xüsusiyyətlərinin nəzərə alınmaması ilə bağlı pozuntular vurğulanmalıdır.

Şuranın Təlimatına əsasən qrammatik pozuntuların müəyyənləşdirilməsində daha bir cəhət kimi sintaktik qaydalara əməl olunmamasına dair pozuntulara diqqət yetirilir. Bu baxımdan, cümlələrdə söz sırasının pozulması, cümlə və söz birləşmələrində sintaktik əlaqələrə əməl edilməməsi, tabesiz mürəkkəb cümlələrdə komponentlər arasında məna əlaqələrinin pozulması, tabeli mürəkkəb cümlələrdə baş cümlə ilə budaq cümlə arasında məntiqi bağlılığın yoxluğu, durğu işarələrinin düzgün işlədilməməsi halları nəzərdən keçirilməlidir.

Əlbəttə, qrammatik pozuntulardan danışırıqsa, üslub pozuntularının da üzərində dayanmalıyıq. Bura isə sözlərin yazılışında orfoqrafiya lüğətinin tələblərinə əməl olunmaması, müxtəlif funksional üslublara aid dil normalarının qarışdırılması, danışıq dili normalarının və xüsusiyyətlərinin yersiz olaraq yazılı nitqə gətirilməsi, müəllifin bəhs olunan mövzuya və yazının həsr edildiyi sahəni bilməməsindən irəli gələn, bütövlükdə dilimizi praktik olaraq yaxşı bilməməkdən, habelə dilimizin nəzəri qayda-qanunlarına bələd olmamaqdan törəyən pozuntular daxildir.

Göründüyü kimi, kifayət qədər, dolğun yanaşma bucağımız var. Fəaliyyətin gerçəkləşdirilməsi üçün Mətbuat Şurası İdarə Heyətinin yaxın günlərdəki iclasında Şuranın Dil Komissiyasının tərkibinin komplektləşdirilməsi həyata keçiriləcək. Zaman-zaman komissiyanın işində peşəkar dilçi alimlər iştirak edib. Medianın monitorinqi də onlar tərəfindən aparılıb. Sonradan hazırda fəaliyyəti dayandırılmış Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradıldı ki, Mətbuat Şurası bu qurumun işinə də öz töhfəsini verdi. Mərkəz monitorinqlərinin nəticələrini kitab şəklində nəşr etdirir, habelə pozuntu hallarının müzakirə edildiyi toplantılar düzənləyirdi.

Mətbuat Şurası da vaxtilə media məkanındakı dil pozuntularının müzakirəsini media rəhbərlərinin bilavasitə iştirakı ilə aparırdı. Hesab edirəm ki, yenə eyni fəaliyyətə üstünlük verilməlidir. O cümlədən Dil Komissiyasının işinə, əvvəllər olduğu kimi, dilçi alimlərin və mütəxəssislərin cəlb edilməsi vacibdir. Şuranın İdarə Heyəti üzvlərinin qarşıdakı iclasda mövcud istiqamətdə, ümumən Dil Komissiyasının fəaliyyətinin gücləndirilməsinə dair başqa səmərəli təkliflər səsləndirəcəklərinə əminəm.

# Azərbaycan–İsrail strateji tərəfdaşlığında humanitar balans



**Azərbaycan–İsrail münasibətlərinin hazırkı mərhələsinə nəzər saldıqda aydın görünür ki, Bakı bu tərəfdaşlığı geosiyasi rasionializmin müstəvisində formalaşdırır. Regionda kəskin qarşıdurmaların, həssas təhlükəsizlik balanslarının mövcudluğuna baxmayaraq, Azərbaycan İsrail ilə əlaqələrini nə təzyiqlərin, nə də ideoloji qütbləşmənin təsir dairəsində saxlayır. İkitərəfli münasibətlərin əsas xəttini dövlət davranışında yetkinlik, özünəinam və milli maraqların prioritetliyi təşkil edir.**



Tarixə nəzər saldıqda görürük ki, güclü dövlətlərin xarici siyasəti həmişə milli maraqlar üzərində qurulub. Bəs niyə məhz milli maraq bu qədər önəmlidir? Sadə cavab budur ki, dövlətlər yalnız öz resurslarını və imkanlarını milli məqsədlərə uyğun idarə edə bildikdə uzunmüddətli güc əldə edirlər. Gəlin, bir neçə nümunəyə baxaq. XIX əsrdə Britaniya imperiyası Hindistanı və Sakit okean ticarət marşrutlarını nə üçün qoruyurdu? Öz iqtisadi və strateji təhlükəsizliyini təmin etmək üçün. Bu marşrutlar Britaniyanın qlobal ticarət şəbəkəsini qoruyan "qan damarları" idi və imperiyanın dünya siyasətində söz sahibi olmasını təmin edirdi. Eyni zamanda, XX əsrdə ABŞ enerji və strateji resursları xarici siyasətin prioritetinə çevirdi. Nə üçün? Çünki enerji təhlükəsizliyi olmadan heç bir supergüc öz regional və qlobal ambisiyalarını reallaşdıra bilməzdi.

Bu baxımdan, Azərbaycan da öz xarici siyasətində eyni məntiqi tətbiq edir. Bakı İsrail ilə əməkdaşlığı uzunmüddətli strateji dayanıqlılığını təmin edən resurs kimi görür. Elə buna görə də sual ortaya çıxır: Azərbaycan İsrail ilə tərəfdaşlığı niyə "strateji alət" deyil, məhz "strateji resurs" kimi dəyərləndirir? Cavab sadə deyil. Çünki əməkdaşlıq Bakı üçün çoxsaylı imkanların məcmusudur. Enerji marşrutlarının təhlükəsizliyindən tutmuş kənd təsərrüfatında innovativ texnologiyalara, startap ekosisteminin genişlənməsindən su idarəçiliyi sahəsində qabaqcıl təcrübələrin mənimsənilməsinə qədər geniş sahələr bu tərəfdaşlığın ayrılmaz hissəsinə çevrilib və Azərbaycanın dayanıqlı inkişaf modelinə mühüm töhfə verir.

Ən diqqətçəkən məqam isə odur ki, Bakı bu münasibəti bölgədəki heç bir gücə qarşı yönəlmiş siyasət kimi təqdim etmir. Əksinə, uzun illərdir ki, Azərbaycan öz diplomatik mövqeyini regional qarşıdurmaların tərəfi olmaqdan daha çox, həmin qarşıdurmaların yarada biləcəyi riskləri idarə edən aktor kimi formalaşdırıb.

Burada haqlı olaraq digər sual yaranır: Azərbaycan İsrail ilə əməkdaşlığında "geosiyasi risk idarəçiliyini" necə tətbiq edir? Bunun birinci izahı budur ki, Bakı Təl-Əvivlə əməkdaşlığı regionun digər gücləri ilə olan münasibətlərin əleyhinə çevirmir. İkinci məqam Azərbaycanın uzunmüddətli strategiyası ilə bağlıdır: ölkə texnoloji modernizasiya, enerji təhlükəsizliyinin gücləndirilməsi və yüksək əlavə dəyər yaradan sahələrin inkişafı üçün İsrailin innovativ təcrübəsindən istifadə etməyə çalışır. Üçüncü vacib aspekt isə əməkdaşlığın təkcə iqtisadi məzmun daşımaması, Azərbaycanın Qərb, Türkiyə və Asiya istiqamətlərində diplomatik manevr imkanlarını genişləndirməsidir.

Deməli, Azərbaycan–İsrail münasibətləri Azərbaycanın xarici siyasətinin daha dərin strukturunu da nümayiş etdirir: emosiyadan uzaq, praqmatik, çevik və milli maraqlar üzərində qurulan balanslaşdırılmış geosiyasi yanaşma. Belə bir balans, əslində, ölkəyə həm riskləri idarə etmək, həm də yeni strateji imkanlar yaratmaq imkanı verir.

Məhz bu nöqtədə oxucu təbii olaraq soruşur: Azərbaycan İsrail ilə sıx əməkdaşlığı davam etdirərkən Qəzza məsələsində bu incə tarazlığı necə qoruyur? Elə bu sual Bakının son illərdə formalaşdırdığı diplomatik xəttin ən həssas, eyni zamanda, ən yetkin tərəfini açır. Azərbaycan heç bir halda Qəzzadakı humanitar faciələrə münasibətdə mövqeyini yumşaltmır, susmur, onu açıq və prinsipial şəkildə ifadə edir. Aydındır ki, Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Bəyannaməsi (1948), Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (1966) dövlətlərdən mülki əhalinin hüquqlarının qorunmasını tələb edir. Bundan əlavə, Cenevrə konvensiyaları (1949) və onların protokolları münaqişələr zamanı mülki şəxslərin hədəf alınmamasını və humanitar yardımın təmin olunmasını beynəlxalq hüququn əsas prinsipləri kimi müəyyən edir.

Azərbaycan da Qəzzada mülki insanların, xüsusilə uşaqların hədəfə alınmasını qəbuledilməz sayır, bu hücumları qınayır və bölgədə ikidövlətli həll yolunun alternativinin olmadığını vurğulayır. Rəsmi Bakının mesajları Türk Dövlətləri Təşkilatından İslam Əməkdaşlıq Təşkilatına qədər müxtəlif platformalarda ardıcıllıqla səsləndirilir. Yəni mövqe strukturlaşdırılmış və prinsipial xarakter daşıyır. Bəs burada hansısa paradoks görünürmü? Əslində, yox. Belə bir yanaşma Azərbaycanın xarici siyasət fəlsəfəsinin nüvəsinə uyğun bir yanaşmadır: dostluq münasibəti dəyərlərin kənara qoyulması demək deyil. Azərbaycan İsrail ilə strateji əməkdaşlıq aparırsa, bu, Bakının humanitar məsələlərə biganə qalacağı anlamına gəlmir. Eyni şəkildə, Qəzza mövzusundakı prinsipial mövqeyi iki ölkə arasındakı əməkdaşlığın zəifləməsi demək deyil.

Bunlar, əslində, xarici siyasətin yetkinlik mərhələsidir – tərəfdaşlığı davam etdirərkən humanitar dəyərlərdən geri çəkilməmək, dəyərləri müdafiə edərkən münasibətləri sındırmamaq. Azərbaycan diplomatiyası məhz bu tarazlıq üzərində yüksəlir.

Bəs Azərbaycan bu mürəkkəb tarazlığı necə qorumağı bacarır? Burada tarazlığı qorumaq sistemli siyasi düşüncənin nəticəsidir. Bakının xarici siyasətində emosional impulslar deyil, rasionallıq və institusional yanaşma aparıcı xətti müəyyənləşdirir. Regionda münasibətlər çox vaxt ani emosiyalarla formalaşıb eyni sürətlə də dağılır, lakin Azərbaycan bu tendensiyadan özünü ayıraraq qərarlarını hesablanmış strateji maraqlarla formalaşdırır.

Belə bir yanaşmanın ikinci təməl xətti "ya o, ya bu" dilemmasından uzaq olmasıdır. Bakı öz siyasətini paralel istiqamətlərin uzlaşdırılması üzərində qurur. İsrail ilə əməkdaşlıq aparmaq digər tərəflərlə münasibətlərin zəifləməsi demək olmadığı kimi, humanitar mövqedə prinsipial olmaq da tərəfdaşlıq əlaqələrinə xələl gətirmir.

Üçüncü vacib element isə Azərbaycanın humanitar məsələlərdə ardıcıl prinsipial yanaşmasıdır. Qəzzada yaşananlarla bağlı mövqe Suriyanın müxtəlif bölgələrindəki mülki itkilərə, digər humanitar böhranlara münasibətdə də özünü göstərir. Bakı beynəlxalq hüququ, mülki əhalinin toxunulmazlığını və insan həyatı ilə bağlı fundamental prinsipləri siyasi situasiyaların dəyişkənliyindən asılı olmayaraq qoruyur.

***

Son illərdə iki ölkə arasında münasibətlər tədricən strateji investisiya modelinə keçib. Transformasiyanın arxasında duran dinamikanı anlamaq üçün əvvəlcə sual vermək lazımdır: bu prosesi kim formalaşdırır? Aydın görünür ki, təşəbbüslərin ağırlığı yalnız İsrailin üzərində deyil; Azərbaycan özü də getdikcə aktiv investisiya aktoruna çevrilir. Çünki Azərbaycan regionda artıq kapital ixrac edən, iri layihələrə şərik olan, risk alan və risk paylaşan aktor kimi mövqe tutur.

İl ərzində əməkdaşlıq müxtəlif istiqamətlərdə dərinləşib və bu tendensiya özünü təbii qaz sahəsində yeni tərəfdaşlıq modellərindən başlayaraq yüksək texnologiyaların transferi mexanizmlərinə qədər göstərib. Kənd təsərrüfatında məhsuldarlığı əhəmiyyətli dərəcədə artıran İsrail texnologiyalarının tətbiqi, startap sektorunda birgə investisiya fondlarının formalaşması, Qarabağda "ağıllı şəhər" konsepsiyalarının reallaşdırılması və su təhlükəsizliyini təmin edən yeni infrastruktur xətləri bu əməkdaşlığın strateji məzmununun da olduğunu göstərir.

Bu mənzərə fonunda təbii olaraq sual yaranır: bütün bu əməkdaşlıqlar Azərbaycanın bölgədəki geosiyasi çəkisini artırırmı? Cavabı şübhə etmədən vermək mümkündür: bəli, artırır. Çünki enerji tədarükçüsü olmaq özü-özlüyündə mühüm gücdür, lakin yüksək texnologiyalar idxal edən, eyni zamanda, kapital yatıran və regional proseslərdə təsir imkanları genişlənən dövlətə çevrilmək daha yüksək güc formasıdır. Azərbaycan hazırda bu keçidin aktiv mərhələsini yaşayır və İsrail bu transformasiyanın ən vacib tərəfdaşlarından biri kimi çıxış edir.

Bütün bunları ümumiləşdirəndə görünür ki, Azərbaycan diplomatiyası bu münasibətlərdə incə şəkildə qurulmuş balanslaşdırma siyasəti izləyir. Bir tərəfdən İsrail ilə yüksək səviyyəli siyasi və iqtisadi tərəfdaşlığı davam etdirir, digər tərəfdən isə Qəzza məsələsində prinsipial humanitar mövqeyindən geri çəkilmir və bu mövqeyi beynəlxalq platformalarda ardıcıl şəkildə ifadə edir.

Sonda özümüzə sual veririk: Tarazlıq uzunmüddətli perspektivdə davam etdirilə bilərmi? Mövcud xarici siyasət fəlsəfəsi – çevik, rasional, kompleksdən uzaq və maraqlarla dəyərləri paralel yürüdən yanaşma bunun mümkün olduğunu göstərir. Azərbaycan regionda məhz bu keyfiyyəti ilə seçilir: həm prinsiplərinə sadiq qalaraq tərəfdaşlıq qurmaqda, həm də tərəfdaşlıq münasibətlərini qorumaqla prinsipial mövqeyindən yayınmamaqda.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Çoxyönlü siyasət quruculuğu

*Mərkəzi Asiyanın Çinlə əməkdaşlığında Azərbaycanın artan rolu*

**Okeanlara çıxışı olmayan, lakin qlobal əhəmiyyətli resurslara və strateji mövqeyə malik Mərkəzi Asiya dövlətləri müstəqilliklərini qazandıqları vaxtdan etibarən talelərini böyük güclərin maraqları arasında tarazlamaq kimi çətin missiya ilə üz-üzədirlər. Lakin son onillikdə balans məsələsi daha çətin və daha mühüm xarakter almışdır.**




Çinin misilsiz iqtisadi yüksəlişi və Si Cinpinin müəllifi olduğu "Bir kəmər və bir yol" təşəbbüsü regiona görünməmiş həcmdə sərmayə, modernləşmə və rifah vədi gətirsə də, eyni zamanda, Pekinin siyasi təsirinin artması, regional təhlükəsizlik inkişaf trayektoriyasına potensial müdaxiləsi narahatlıqlara səbəb olmuşdur. Məhz bu proses fonunda Mərkəzi Asiya paytaxtları çətin seçimlə üz-üzə qalırlar. Bir tərəfdən, Çinin güclü iqtisadi imkanlarından imtina edə bilmir, digər tərəfdən isə tam şəkildə Pekinin təsir orbitinə düşməmək üçün Rusiyanın tarixi nüfuzundan, ABŞ və Avropa İttifaqının normativ-siyasi təkliflərindən, eləcə də Türkiyənin mədəni–siyasi yaxınlığından istifadə edərək, balanslaşdırılmış siyasi manevrlər etməyə məcbur olurlar.

Bəli, çoxvektorlu xarici siyasət ölkələrin suverenliklərini qorumaları, iqtisadi inkişaflarını təmin etmələri və böyük güclərin amansız rəqabətinin qurbanına çevrilməmələri üçün yeganə həyatdaqalma strategiyasıdır. Lakin bu qarışıq situasiyanın həmişə naməlum tərəfi və çatışmayan həlqəsi var idi. Mərkəzi Asiyanın böyük qonşularından asılı olmayan, Qərbə açılan etibarlı və fiziki çıxışı. Tarixi yol ayrıcında Cənubi Qafqazda suverenliyini tam bərpa etmiş, çoxşaxəli enerji və nəqliyyat infrastrukturuna malik, balanslı xarici siyasətin uğurlu modelini nümayiş etdirən Azərbaycan isə landşafta daxil olaraq Mərkəzi Asiya dövlətlərinin çoxvektorlu siyasətini dəstəkləyən və onların Qərbə açılan alternativ qapısı kimi çıxış edən həlledici strateji açar rolunu oynamağa başlayıb.

Çinin Mərkəzi Asiya strategiyasının mahiyyətini və onun yaratdığı fürsəti, təhdidləri dərindən bilmək bu mürəkkəb geosiyasi vəziyyəti başa düşmək üçün əsas amildir. Pekinin regiona marağı yeni hadisə olmasa da, Si Cinpinin elan etdiyi "Bir kəmər və bir yol" təşəbbüsü həmin marağı qlobal miqyaslı strateji layihəyə çevirdi. Mərkəzi Asiya Çinin nəzərində sadəcə xammal mənbəyi və ya Çin malları üçün bazar deyil. Region Çinin Avrasiya qitəsini dəmir yolları, avtomobil magistralları və enerji kəmərləri ilə birləşdirərək, ABŞ-ın dəniz üstünlüyünə əsaslanan dünya nizamına qarşı quru marşrutları üzərində qurulan yeni geoiqtisadi sistem yaratmaq planının mərkəzində dayanır.

Milyardlarla dollarlıq sərmayələr hesabına tikilən yeni dəmir yolları, magistrallar, qaz kəmərləri və sənaye parkları, həqiqətən də Mərkəzi Asiya ölkələrinin sovet dövründən miras qalmış köhnə infrastrukturunu modernləşdirməyə və onların iqtisadi potensialını reallaşdırmağa güclü təkan verir. Pekin Qərbdən fərqli olaraq, maliyyə dəstəyi üçün heç bir siyasi şərt (demokratikləşmə, insan hüquqları və s.) irəli sürmür və həmin "non-interferensiya" (qarışmamaq) siyasəti regionun liderləri üçün son dərəcə xüsusi görünür.

Lakin həmin iqtisadi əməkdaşlığın görünməyən tərəfi tədricən artan asılılıq və onun potensial siyasi nəticələridir. Çinin dövlət bankları tərəfindən ayrılan nəhəng kreditlər bəzi region ölkələrinin xarici borc yükünü təhlükəli həddə çatdırıb. Tacikistan və Qırğızıstan kimi iqtisadi cəhətdən daha zəif ölkələrin xarici borclarının əhəmiyyətli hissəsi məhz Çinin payına düşür. Tarixi təcrübə göstərir ki, həddən artıq borc yükü borc verən tərəfə siyasi təsir rıçaqları verir. Beynəlxalq arenada "borc tələsi diplomatiyası" kimi tanınan mexanizm borcunu qaytara bilməyən ölkələrin strateji aktivlərini (limanlar, mədənlər, torpaq sahələri) güzəştə getməyə, indiki halda xarici siyasətdə Pekinin maraqlarına uyğun mövqe tutmağa məcbur edilməsi riskini yaradır. Məsələn, Tacikistanın borc əvəzində Çinə öz ərazisinin bir hissəsini güzəştə getməsi ilə bağlı iddialar, bütün region üçün ciddi xəbərdarlıq siqnalı oldu.

Pekin rəsmi olaraq daxili işlərə qarışmadığını bəyan etsə də, sərmayələrinin təhlükəsizliyini təmin etmək və regiondakı sabitliyi qorumaq adı altında tədricən təhlükəsizlik sahəsindəki fəaliyyətini də artırır. Tacikistanda, Əfqanıstanla sərhəddə Çin hərbi postunun yaradılması, Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilən birgə antiterror təlimləri Pekinin regionun təhlükəsizlik arxitekturasında daha fəal rol oynamaq istəyinin göstəricisidir. Bu vəziyyət isə Rusiya ilə Çin arasında Mərkəzi Asiyada təsir dairələri uğrunda gizli rəqabəti dərinləşdirir.

Proseslərin gedişində Mərkəzi Asiya dövlətlərinin çoxvektorlu diplomatiyası onların müstəqilliyinin əsas qarantına çevrilir. Onlar Çinin iqtisadi imkanlarından maksimum faydalanmağa çalışarkən, eyni zamanda, digər qlobal və regional güclərlə münasibətləri dərinləşdirməklə, Pekinin potensial təzyiqlərini balanslaşdırmağa və manevr imkanlarını genişləndirməyə çalışırlar. Amma Rusiya, hələ də regionda həlledici hərbi-siyasi ölkə olaraq qalır. Nəzərə alaq ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsindəki hərbi ittifaq Qazaxıstan, Qırğızıstan və Tacikistan üçün xarici təhdidlərə və daxili qeyri-sabitliyə qarşı mühüm təhlükəsizlik çətiri rolunu oynayır.

Lakin eyni zamanda, şimal qonşusunun xarici siyasətində artan aqressivlik Mərkəzi Asiya paytaxtlarında ciddi narahatlıqlar doğurur. Buna görə də region dövlətləri Rusiyanın təhlükəsizlik təminatlarından imtina etmədən, eyni zamanda, onun həddən artıq siyasi təsirindən yayınmaq üçün digər tərəfdaşlarla əlaqələri gücləndirirlər. ABŞ və Avropa İttifaqı Çin və Rusiyadan fərqli olaraq, regionda birbaşa hərbi və ya genişmiqyaslı iqtisadi dominantlığa iddia etmirlər. Onların təsir gücü daha çox "yumşaq güc" və normativ təkliflərdə özünü göstərir. Qərb region ölkələrinə demokratik islahatlar, insan hüquqları, qanunun aliliyi və şəffaf idarəetmə kimi dəyərlərə əsaslanan inkişaf modeli təklif edir. Qərblə əlaqələr Mərkəzi Asiya dövlətləri üçün Çin və Rusiyanın təsirini tarazlaşdırmaq və beynəlxalq legitimliklərini artırmaq üçün vacib alətdir. Türkiyə isə regionda tamamilə fərqli, mədəni-sivilizasiya yaxınlığına əsaslanan unikal mövqeyə malikdir. Ortaq dil, din, tarix və mədəniyyət bağları, Ankara üçün Mərkəzi Asiyada digər heç bir gücün malik olmadığı "yumşaq güc" resursları yaradır.

Balanslaşdırma siyasətinin ən zəif həlqəsi Mərkəzi Asiyanın Qərb dünyası ilə birbaşa coğrafi əlaqəsinin olmaması idi. Məhz həmin strateji boşluğu Azərbaycan doldurur. Azərbaycan Xəzərin qərb sahilində yerləşməklə, Mərkəzi Asiyanı Cənubi Qafqaz üzərindən Avropaya bağlayan təbii körpü rolunu oynayır. Son illərdə isə ölkəmizin Mərkəzi Asiya ilə münasibətləri bütün regionu əhatə edən vahid geoiqtisadi məkanın formalaşdırılması strategiyasının mərkəzinə çevirib. Həmin strategiyanın əsas sütunu Şərqlə Qərbi birləşdirən Orta dəhlizdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və müasir avtomobil magistralları Mərkəzi Asiya yüklərinin dünya bazarlarına sürətli, təhlükəsiz və rəqabətədavamlı şərtlərlə çıxarılması üçün hazır infrastruktur təklif edir.

Tam əminliklə demək olar ki, Azərbaycanın təşəbbüsü ilə yaradılan və Mərkəzi Asiya ölkələrinin də fəal iştirak etdikləri dəhliz region dövlətlərinə yeni geoiqtisadi reallıqlar təklif edir. Zəngəzur dəhlizinin açılması perspektivi isə həmin marşrutun potensialını dəfələrlə artıracaq və onun əhəmiyyətini bütün qitə miqyasında möhkəmləndirəcək.

Azərbaycan Mərkəzi Asiya üçün uğurlu balanslaşdırma siyasətinin canlı nümunəsidir. Rusiya, Türkiyə, İran, Avropa İttifaqı və ABŞ ilə mürəkkəb geosiyasi mühitdə tarazlı münasibətlər quran rəsmi Bakı suverenliyini qoruyaraq milli maraqlarını necə təmin etməyin mümkünlüyünü nümayiş etdirir. Azərbaycan-Özbəkistan və Azərbaycan-Qırğızıstan arasında yaradılan birgə investisiya fondları iqtisadi inteqrasiyanın artıq institusional mərhələyə keçdiyini göstərir.

Onu da deyək ki, ümidverici inteqrasiya prosesləri fonunda regionun daxili problemləri və xarici təhdidlər qalmaqdadır. Mərkəzi Asiya dövlətləri arasında hələ də tam həllini tapmamış sərhəd mübahisələri və su resurslarının bölüşdürülməsi ilə bağlı ziddiyyətlər regional həmrəyliyə xələl gətirən və xarici güclərin müdaxiləsi üçün əlverişli şərait yaradan zəif nöqtələrdir. Əfqanıstandakı qeyri-sabitlik və radikal qruplaşmaların Mərkəzi Asiyaya sızma təhlükəsi region ölkələri üçün ortaq təhlükəsizlik problemidir. Həmin daxili və xarici çağırışlar region dövlətlərinin birgə fəaliyyət göstərmələrini, ortaq təhlükəsizlik mexanizmləri yaratmalarını və xarici siyasətlərini daha sıx əlaqələndirmələrini tələb edir.

Sonda bildirək ki, Mərkəzi Asiya dövlətləri müasir tarixlərinin ən həlledici və ən mürəkkəb dövrünü yaşayır, Çinin iqtisadi cazibəsi ilə suverenliyin qorunması zərurəti arasında incə bir xətt üzərində addımlayırlar. Böyük imkanlarla zəngin yolda onların ən böyük silahı çoxvektorlu diplomatiyanı məharətlə icra etmək və heç bir güc mərkəzindən tam asılı vəziyyətə düşməmək bacarığıdır. Balans siyasətində Azərbaycan Mərkəzi Asiya üçün dünyaya açılan pəncərə, strateji müttəfiq və suverenliklərini möhkəmləndirən etibarlı dayaqdır. Bakı-Daşkənd-Astana oxu ətrafında formalaşan geostrateji birlik Avrasiyanın gələcək nizamını müəyyən edəcək və böyük güclərin rəqabəti şəraitində kiçik və orta ölçülü dövlətlərin də öz talelərini müəyyən etmək hüququna malik olduğunu bütün dünyaya nümayiş etdirəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# "Düşmən Venediktov"

## *Yaxud imperializmin "qısır yetirmə"si haqqında elegiya*

**"2001-ci ildə Rusiya Prezidenti Vladimir Putin o zaman "Exo Moskvı" radiostansiyasının baş redaktoru postunu tutan Aleksey Venediktova öz gözündə kim olduğunu izah edərkən belə demişdi: "Düşmənlər qarşındadır. Sən onlarla vuruşursan, sonra atəşkəs bağlayırsan və hər şey aydındır. Xaini isə məhv etmək, əzmək lazımdır. Bilirsiniz, Aleksey, siz xain deyilsiniz. Siz düşmənsiniz!"**

Görəsən, hazırda təqaüdçü həyatı yaşayan A.Venediktov Ermənistana səfəri zamanı səsləndirdiyi fikirlərlə, o cümlədən, guya, Moskvanın Qarabağ mövzusuna yanaşmasını ifadə etdiyi sərsəmləmələri ilə ölkəsinə düşmənçilik edir, yoxsa bizə? Rusiya bu sayaq əndərəbadi fikir sahibləri ilə doludur. Necə deyərlər, orada at izi it izinə qarışıb. Ola bilər, cənab Putin də kimin düşmən, kimin xain olduğunu müəyyənləşdirməkdə çətinlik çəkir. Hərçənd, buna şübhəmiz var. Ona görə Venediktovun "Ermənistan macaraları" kontekstində şübhəli məqamlara toxunacağıq. Elə düşmənçilik məsələsinə də. Axı düşmənçilik elə-belə yaranmır və nəyinsə, hansısa yarıtmaz baxışın, böyük anlamda isə xəstəliyin nəticəsidir. Deməli, Venediktovun timsalında Rusiyada kimin və ya kimlərin xəstəlikdən qurtula bilməməsinə dair fikirlərimizi də bölüşməkdə fayda var.

*

Əlbəttə, Rusiya Prezidenti təcrübəli və barışmaz siyasətçidir. O, Venediktovu xain yox, lap elə düşmən gözündə görsəydi, indi jurnalist Allah bilir harada idi. Eyni zamanda, hesab edirik ki, Putin xeyli dərəcədə "lütf edərək" Venediktov üçün xainliklə düşmənçilik arasındakı sərhədləri müəyyənləşdirib. Axı Rusiya rəhbərliyi illər ərzində jurnalistin bütün qeyri-ordinar hərəkətlərinə dözüb. Hətta bir çox məqamlarda onu şəxsən Putin özü qoruyub.

Venediktovun müxtəlif qurumlarda söz sahibinə çevrilməsi, rahat şəkildə öz fikirlərini çatdırması, müəyyən mənada, söz azadlığı aşiqi kimi görünməsi yaddaşlardan silinməyib. Nə bilmək olar, bəlkə bunların hamısı oyundur? Bəlkə, Rusiya üçün yeni Aleksandr Soljenitsin lazım idi? Elə bir "Soljenitsin" ki, ömrünü dissident kimi xaricdə deyil, vətəndə - "demokratik Rusiyada" keçirsin. Hər halda, Venediktovun xarici görünüşcə məşhur yazıçıya xeyli oxşarlığı var. Şübhələrimizi onun İrəvanda görünməsi artırır.

Onu da deyək ki, 2022-ci ilin martında Venediktovun 1990-cı ildən çalışdığı, 1998-ci ildən bilavasitə rəhbərlik etdiyi "Exo Moskvı" bağlandı. Necə də bağlanmasın? Axı, həmin ilin fevralında Rusiya-Ukrayna müharibəsi başladı və görünür, Kremldə düşündülər ki, son dərəcə həssas məqamda düşmənlə xaini bir-birindən ayırmağa vaxt yoxdur. Vaxt olmadığından, A.Venediktovun, "əlinə mismar", daha doğrusu, "canlı mıx" verdilər ki, başını qatsın. Söhbət onun "YouTube" platformasında yayımlanan "Живой гвоздь" proqramından gedir.

Çox güman, Rusiya idarəçilik elitası "meşədəki yeganə ağacı qırmamaq" üçün illərin media qurumunu qurban vermək qərarına gəldi. Nəzərə alaq ki, "Живой гвоздь" "Exo Moskvı" ola bilməzdi və olmadı da. Hələ Venediktov üzərində oynanılan "yeni Soljenitsin" oyununu dramatikləşdirmək qərarı verildi. Tam mümkündür ki, jurnalistin qapısının ağzına Ukraynanın gerbi və antisemit yazısı olan donuz başının atılması da ssenarinin tərkib hissəsi idi. Rusiyanın Ədliyyə Nazirliyinin 2022-ci ilin aprelində Venediktovun adını xarici agentlər siyahısına daxil etməsi də həmçinin.

Rusiya daxilində xarici agent? Kimsə bunu təsəvvür edə bilərmi? Üstəlik, "agent" əl-qolunu sallayıb küçədə gəzir, bu azmış kimi, təyyarəyə minib Ermənistana yollanır. Qəribə deyilmi? Deməli, şübhələnməkdə haqlıyıq.

*

Bəli, Venediktov İrəvanda sərsəmləyib. O bildirib ki, Qarabağ münaqişəsi "hələ bağlanmamış bir sual"dır. Jurnalist, həmçinin, erməni cəmiyyətinə Moskvanın siyasətinin dəyişə biləcəyi və "Qarabağ məsələsinin tamamilə bitmədiyi" mesajını verib və deyib ki, Ukrayna müharibəsi başa çatdıqdan sonra Rusiya regiondakı resurslarını Qarabağ məsələsini yenidən aktuallaşdırmaq naminə sərf edəcək.

Maraqlıdır, Venediktov Ermənistana yalvarmağamı gedib, yoxsa üzr istəməyə? Hər halda, onun üzünü ölkədəki revanşistlərə tutduğu birmənalıdır. Amma "qızım sənə deyirəm, gəlinim sən də eşit". Çox güman, jurnalist erməni müxalifətini Rusiyanın qızı, iqtidarını isə gəlini qiyafəsində görür. Onun müxalifəti mübarizəyə səslədiyi birmənalıdır. Görünür, iqtidar tədbirli davranıb əks qütbün "qapazı altında" qalmamalıdır.

Digər tərəfdən, Venediktov İrəvanda imperializm naminə sancı çəkdiyini də göstərib. O, erməni mediasına açıqlamasında iddia edib ki, Rusiyaya Qarabağ itkisi "acı verib". Sən demə, məsələnin geosiyasi və emosional tərəfi var imiş və hazırkı dövrdə Rusiyanın lazımi resursu olmadığından, Cənubi Qafqaza qol çırmaya bilmir.

Yəni erməni müxalifəti başının çarəsini qılsın? O zaman yəqin baş nazir Nikol Paşinyan iqtidarı da hər gün Rusiya-Ukrayna müharibəsinin bitməməsi üçün dua etməlidir. Paşinyandan söz düşmüşkən, Venediktov Putinin erməni hökumət rəhbərinə münasibətinin necə olduğunu da diqqətə çatdırıb. Sən demə, Kreml rəhbəri Nikolu "küçədən gələn adam" kimi görürmüş...



*

Venediktovun sözlərinə görə, Paşinyana münasibətindən asılı olmayaraq, Putin üçün Ermənistan yad deyil. Ona görə yad deyil ki, ölkə tarixi baxımından rus imperiyasının tərkib hissəsi olub. Deyəsən, daşlar yerinə oturur. Çünki erməniləri Cənubi Qafqaza gətirən həmin rus imperializmi olub. Paşinyan isə əbəs yerə erməni-müsəlman düşmənçiliyinin həmin imperializmin əməli olduğunu bildirmir. O, dərk edir ki, ruslar erməniləri regiona heç də onların qara qaşlarına və qara gözlərinə valeh olduqları üçün köçürməmişdilər. Köçürmüşdülər ki, bölgə xalqlarına qarşı döyüşsünlər, mübarizə aparsınlar, düşmənçilik etsinlər, bir sözlə, daimi nifaq gündəliyini saxlasınlar. Hələ bu məqsəd üçün haylara ideoloji tutacaqlar, qondarma tarix də uydurmuşdular.

Bəli, bu gün Paşinyan, faktiki olaraq, bütün belə mənfi təmayüllərdən yaxa qurtarmağın vacibliyini təbliğ edir, "Real Ermənistan" ideyasına söykəndiyini deyir. O Ermənistan ki, qonşularının ərazilərinə göz dikməyəcək, ətraf aləmlə normal keçinəcək. Bunun nəyi pisdir? Belə bir durumda Venediktov İrəvanda "imperializmin sancı" səslərini ərşə çıxarırsa, deməli, dəlinin yadına daş salır. Yəni Qarabağ Rusiya üçün acı dərddir və Ermənistan da o dərdi çəkməlidir. Hər halda, Venediktovun məhz bu mesajı verdiyi tam aydındır.

*

Sonda bildirək ki, Ermənistanın revanşist kəsimini ruhlandırmaq məqsədi güdən Venediktov rus ictimai düşüncə tərzinin məhsuludur. Təəssüf doğuran məqam bu düşüncənin hələ də əynindəki eybəcərlik libasını bir kənara qoya bilməməsi, yeni münasibətlər sisteminə uyğunlaşmağı bacarmamasıdır. Belə qənaətə gəlmək mümkündür ki, rus ictimai düşüncə tərzi Rusiyanı ənənəvi jandarm obrazından kənarda görmək niyyətindən uzaqdır.

Ölkə resurslarını bərpa edib erməni maraqlarını müdafiə edəcəkmiş. Nədir o maraqlar? Başqasının torpağını ələ keçirməkmi? Yoxsa Xocalı soyqırımı kimi insanlıq faciəsi törətmək? Olmazmı ki, vəlvələdən, ya zəlzələdən Cənubi Qafqazda qərarlaşmış ermənilər ömürlərini kinsiz-küdurətsiz keçinsinlər? Bu gün onlara rahat yaşamaq – azərbaycanlılarla, ümumən türklərlə tarixi ədavətə son qoymaq, yekun sülh müqaviləsi imzalamaq şansı yaranıb. Venediktov isə faktiki olaraq deyir ki, hər iki xalqın təmsilçiləri bir-birilərinin qanlarını içməlidirlər. Nəyə görə? Çünki Rusiyanın ictimai fikri regionda başqa mövcudiyyət formulu tapa bilməyəcək qədər qısırdır? Sualımız ritorikdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Hindistanın "Tejas" proqramına 2 ağır zərbə

## *Nyu–Dehli həm strateji layihənin imicini, həm də İrəvanla kövrək anlaşmanı itirdi*

**Ermənistan Hindistan istehsalı olan qırıcı təyyarənin noyabrın 21-də Dubay Beynəlxalq Hava Şousunda (Dubay aviaşousu) qəzaya uğramasından sonra 1,2 milyard dollar dəyərində 12 ədəd "Tejas"ın alınması ilə bağlı Nyu–Dehli ilə danışıqları dayandırıb. Bu barədə "The Jerusalem Post" qəzeti xəbər yayıb. Məlumata görə, Ermənistandakı mənbələr bildiriblər ki, qəza görüntüləri bütün proqramın dərhal texniki baxışdan keçirilməsinə səbəb olub.**

Qeyd edək ki, "Tejas" dördüncü nəsil yüngül çoxməqsədli qırıcı təyyarəsidir. Tək mühərrikli təyyarə "quyruqsuz" sxemi üzrə hazırlanır və üçqanadlı konfiqurasiyaya malikdir. Hindistanın çoxfunksiyalı qırıcı təyyarə yaratmaq proqramı 1983-cü ildə başlanıb. Layihənin məqsədi həmin dövrdə artıq köhnəlmiş sovet istehsalı "MiQ-21"ləri əvəz edəcək yeni təyyarə yaratmaq idi. Pakistan və Çin Hərbi Hava Qüvvələrində aparılan modernləşməni müşahidə edən Hindistan həmin dövrdə öz hava qüvvələrini yeniləmək qərarına gəlmişdi.

1984-cü ilin iyununda Banqalorda Aviasiya Texnikasının Hazırlanması Agentliyi yaradılıb və Hindistanın yüngül qırıcı təyyarə layihəsi üzərində işə başlayıb. Layihənin əsas icraçısı "Hindustan Aeronautics" şirkəti seçilib. Bu şirkət, eyni zamanda, təyyarə üçün yerli turboventilyator mühərriki hazırlamaq işini də öz üzərinə götürüb. 1985-ci ildə yüngül döyüş təyyarəsinin yaradılması ilə bağlı texniki-iqtisadi əsaslandırma təqdim olunub. Layihə ilk növbədə, havada üstünlük qazanmaq, ikinci növbədə isə quru qoşunlarına dəstək vermək üçün nəzərdə tutulmuşdu. Təyyarə üçün turboventilyator mühərriki Fransanın "SNECMA" şirkətinin iştirakı ilə hazırlanıb. Layihədə məsləhətçi kimi yenə fransız "Dassault" aviasiya şirkəti cəlb olunub.

Əsas layihə 1990-cı ilin əvvəlində tamamlanıb. Layihəyə görə, yeni təyyarə "MiQ-21"dən iki dəfə çox sursat daşıya bilərdi. 1996-cı ilin noyabrında döyüş təyyarəsinin ilk prototipi istehsaldan çıxıb. Lakin prototip yalnız 2001-ci ildə, yəni 5 il sonra ilk uçuşunu edib. Bu qədər zaman müxtəlif çatışmazlıqların aradan qaldırılmasına həsr olunub. Təyyarənin son tamamlama işləri və istehsalata buraxılması üçün Hindistan israilli mütəxəssislərə müraciət edib. 2003-cü ilin mayında ölkənin baş naziri Atal Bihari Vadjpai rəsmi olaraq təyyarəni "Tejas" adlandırıb ki, bu da qədim hind dili – sanskritcə "parlaq, bərq vuran" deməkdir.

2006-cı ilin sonunda üç prototip üzərində uçuş sınaqları başa çatıb. Həmin dövrdə mühərrikin təkmilləşdirilməsi də xarici mütəxəssislərin iştirakı ilə aparılıb. Nəhayət, bir neçə onillik davam edən işlərdən sonra "Hindustan Aeronautics Limited" (HAL) şirkəti və digər yerli müəssisələr təyyarəni seriya istehsalına çıxarmağı bacarıblar. "Tejas" qırıcıları layihə üzərində iş başlayandan yalnız 29 il sonra – 2012-ci ilin martında orduda silahlanmaya qəbul olunub. Həmin il Hindistan Hərbi Hava Qüvvələri üçün ilk 40 ədəd "Tejas" təyyarəsinin alınmasına dair müqavilə imzalanıb. Hazırda təyyarələrin Qərb sistemləri ilə təchiz olunmuş təkmilləşdirilmiş A1 versiyasının istehsalı davam edir. Ermənistanla razılaşma təyyarənin ilk ixrac müqaviləsi olacaqdı.

Onu da bildirək ki, Dubay aviaşousunda baş vermiş qəza "Tejas"ın üzləşdiyi ilk aviasiya hadisəsi deyil. 2024-cü il martın 12-də Hindistan Hərbi Hava Qüvvələrinin 18-ci eskadrilyasına məxsus "Tejas Mk1" təyyarəsi "Bharat Shakti" təlimlərində iştirak etdikdən sonra Racastxan ştatının Caysalmer şəhəri yaxınlığında qəzaya uğramışdı. Pilot vaxtında katapult etidiyi üçün xəsarət alan olmamışdı. Bu hadisə "Tejas"ın silahlanmaya qəbul olunduğu vaxtdan bəri baş verən ilk təyyarə itkisi idi. Sonrakı araşdırma müəyyən etmişdi ki, qəzaya mühərrikin yağ nasosunun sıradan çıxması və nəticədə mühərrikin kilidlənməsi səbəb olub.

*

Bu günlərdə isə "Tejas Mk 1" təyyarəsi Dubay aviaşousunun nümayiş uçuşunun lap əvvəlində qəzaya düşüb. 2016-cı ildən xidmətdə olan bu təyyarə Əl-Maktum Beynəlxalq Hava Limanında keçirilən şou proqramı zamanı yerə çırpılıb. Nəticədə pilot həlak olub. Məhz bu hadisə Ermənistan hakimiyyətini alqı-satqı müqaviləsinə yenidən baxmağa vadar edib. İrəvanın "Tejas" qırıcılarının alınması ilə bağlı danışıqları dayandırması ilk baxışda, sadəcə, texniki səbəblərin doğurduğu addım kimi



görünür. Amma məsələni yalnız Dubay aviaşousunda baş verən qəza ilə izah etmək də sadəlövhlük olardı. Bu qərarın həm regional siyasətə, həm Hindistanın müdafiə sənayesinə, həm də Ermənistanın təhlükəsizlik strategiyasına ciddi təsirləri var. İrəvanın belə bir həssas məqamda geri çəkilməsi göstərir ki, məsələ təkcə təhlükəsizlik deyil, həm də alt qatda siyasi çəkindiricilik formalaşıb.

Dubay aviaşousunda yaşanan qəza Hindistanın öz hərbi sənayesinə güvən üçün uğursuz siqnala çevrildi. "The Jerusalem Post"un yazdığına görə, qəza görüntüləri Ermənistanda dərhal müzakirə mövzusuna çevrilib. Hansı ölkə olursa-olsun, böyük məbləğdə alınacaq hərbi texnika ilə bağlı belə hadisələr şübhə doğurur. İrəvan tərəfi də eyni instinktiv davranışı göstərdi.

Amma burada bir nüans var: Ermənistan son illər bütün ümidini Hindistana bağlayıb. Hətta bu müqavilə İrəvan üçün ilk böyük aviasiya idxalı olacaqdı. Belə olan halda, qəza təkbaşına müqaviləni dondurmaq üçün yetərli səbəb deyil. Bu addım həm də Ermənistanın özünü gələcək risklərdən sığortalamaq cəhdidir. Çünki belə təyyarələrə 1,2 milyard dollar ödəmək, üstəlik, onu əsas müdafiə xəttinə yerləşdirmək həm siyasi, həm də hərbi baxımdan çox böyük məsuliyyətdir.

"Tejas" təyyarəsinin uğursuz hekayəsi özü də Ermənistanın narahatlığını artıran məqamlardan biridir. Qeyd etdiyimiz kimi, layihə 1983-cü ildə başlasa da, Hindistan bu günə qədər təyyarəni tam olaraq istədiyi səviyyəyə çatdıra bilməyib. "MiQ-21"ləri əvəz etmək üçün nəzərdə tutulsa da, istehsal tempi aşağı, texniki xidmət prosesi isə çətindir. İlk partiyada cəmi 40 təyyarə verilib. Yeni A1 versiyası isə hələ tam sınaq mərhələsindədir.

Ermənistan kimi kiçik ölkələrə belə risklər çox böyük təsir edə bilər. Çünki Ermənistanın hərbi hava qüvvələri faktiki olaraq boşdur. Rusiyadan aldığı "MiQ-29"-lar öz resursunu tamamlayıb, alternativlər isə məhduddur. Bu halda istənilən yanlış seçim ölkənin təhlükəsizliyinə birbaşa zərbə deməkdir. Ermənistan məhz buna görə "Tejas" layihəsinin ətrafında yaranan hər səs-küyə daha həssas reaksiya verir.

*

Bu müqavilənin dayandırılması Hindistan üçün də ağır zərbədir. Çünki "Tejas"ın ilk ixracı məhz Ermənistan vasitəsilə mümkündür. Bu ixrac Hindistanın müdafiə sənayesi üçün bir vitrin effekti daşıyırdı və "biz də qırıcı təyyarə ixrac edə bilirik" mesajı veriləcəkdi. İndi isə qəza həm layihəyə, həm də Hindistanın ixrac ambisiyalarına kölgə saldı. Digər tərəfdən, Ermənistan Hindistanı təkcə silah istehsalçısı kimi yox, həm də Rusiyadan uzaqlaşmaq üçün geosiyasi alternativ kimi görürdü. İkinci Qarabağ müharibəsindən sonra İrəvanın Moskva ilə münasibətləri ciddi şəkildə soyuyub. Bu fonda Hindistanla yaxınlaşma Ermənistan üçün həm siyasi, həm də psixoloji dayaq idi. Buna görə də "Tejas" müqaviləsinin dayanması təkcə aviaşou qəzası deyil, həm də Ermənistanda artan ümidsizliyin göstəricisidir.

Bu addımdan sonra əsas sual budur: Ermənistan hansı qırıcıları ala bilər? Reallıq belədir ki, Ermənistanın alternativlər siyahısı kifayət qədər məhduddur. Qərb ölkələri, xüsusilə də Fransa Ermənistana hava hücumundan müdafiə sistemləri verə bilər, amma qırıcı təyyarə satmaq məsələsində siyasi risklərdən ehtiyat edirlər. Rusiya isə artıq İrəvana etibar etmir. Moskvanın özü müharibə şəraitindədir və təyyarə ixrac etməyə resursu yoxdur. Üstəlik, Ermənistanın son aylarda atdığı anti-Rusiya addımlar Kreml üçün qırmızı xətti keçib.

Beləliklə, Hindistan variantının da, necə deyərlər, donması Ermənistanı tam ortada qoyur: nə Moskva ilə işləmək istəyirlər, nə də Qərb hələ qırıcı satmağa hazırdır. Bu vəziyyət Ermənistanın təhlükəsizlik siyasətini daha da çıxılmaz hala salır.

Ermənistanın bu qərarının arxasında regional proseslər də dayanır. Son bir ildə Ermənistan həm siyasi, həm diplomatik, həm də hərbi müttəfiqlərini, demək olar ki, dəyişməyə çalışır. KTMT-dən faktiki çıxma, Rusiyanı kəskin tənqid etmə, Avropa İttifaqı ilə yaxınlaşma – bütün bu addımlar ölkənin ənənəvi təhlükəsizlik sistemini dağıdıb. Buna görə də "Tejas" kimi yeni layihələr İrəvan üçün təkcə hərbi layihə deyil, həm də siyasi investisiya idi. İndi isə həmin investisiya sarsılıb.

Ermənistanın təhlükəsizlik doktrinası artıq, sadəcə dalğalanmır, faktiki olaraq, boşluq yaşayır. Hər ay başqa bir tərəfdaşla anlaşmazlıq yaranır, digər istiqamətdə irəliləyiş dayanır. "Tejas" məsələsi bu boşluğun ən aydın göstəricilərindən biridir: Ermənistanın strategiyası nəinki dəyişib, artıq tamamilə qeyri-müəyyənliklə üz-üzə qalıb.

***Səxavət HƏMİD***
***XQ***

# İlham Əliyev: liderin tarixi-siyasi missiyası



## I MƏQALƏ

### Siyasi missiya

Fəlsəfi və politoloji ədəbiyyatda "missiya" termininə tez-tez rast gəlmək olur. Bu sözün semantik anlamı, ümumiyyətlə, hansı vəzifəni yerinə yetirməyi, strateji məqsədi, fəaliyyətin ümumi mənalandırılması ilə bağlıdır. Fərqli təriflər bəzi məqamlarda ona dini məzmun da verirlər. Tarixdən bu nümunələr az deyildir. Məsələn, "pravoslav missiyası"nın nəzəri təhlil nümunələri mövcuddur. Misal üçün Rusiyada tədqiqatçılardan biri (din adamıdır) yazır ki, XIV-XIX əsrlərdə pravoslav missiyası Rusiyanın ərazisini dəfələrlə genişləndirməyi motivə etmiş və hətta bu prosesdə hərəkətverici, istiqamətləndirici rol oynamışdır. Bu anlamda "missiya" elə bir faktordur ki, hətta dövlətin ərazisi, mədəniyyəti, siyasəti və ideologiyasının konseptual fonu ola bilər.

Bundan başqa, tarixdən xristianların missionerliyi və onun bir hərəkat kimi nəticələri hər kəsə məlumdur. Səlib yürüşlərini unutmadıq. Bu proses tarixin siyasi səhnəsindən çıxmamışdır və açıq və ya gizli müxtəlif formalarda təzahür etməkdədir.

Tədqiqatçılar "siyasi missiya", "təşkilatın missiyası" kimi anlayışlardan geniş istifadə edirlər. Məsələn, Oksford lüğətində təşkilatın missiyası "strateji məqsəd və vəzifələr vasitəsilə izah edilir.

Siyasi liderlərin missiyası haqqında liderologiyada kifayət qədər yazılmışdır. Ancaq onlar universal kriteriyalardan deyil, konkret yanaşmalardan və praktiki nəticələrdən çıxış edirlər. Azərbaycanda milli və ümummilli liderliyin missiyası məsələsi akademik İsa Həbibbəylinin tədqiqatlarında ən dolğun şəkildə yer almışdır. AMEA hətta liderin missiyası və miqyasının nəzəri tədqiqi ilə bağlı sanballı monoqrafiya da hazırlamışdır.

Bizim "liderin tarixi missiyası" ifadəsində nələri nəzərdə tutduğumuzu adekvat təqdim etmək üçün yuxarıdakı çox qısa təsvir də daxil olmaqla mühüm hesab etdiyimiz bir sıra məqamlara baxaq. Bunun üçün siyasi liderlik kontekstində missiyanın müəyyən edilməsində hansı ortaq kriteriyalardan (meyarlar, parametrlər, faktorlar) istifadə edildiyi məsələsi üzərində dayanaq.

### Böhran dönəminin əsl liderləri

Yazıçı Devid Foster Uolles "əsl liderlər"də üç keyifyyəti önə çəkirdi.

Birincisi, onlar bizim öz tənbəlliyimizin, eqoizmimizin, zəifliyimizin və qorxularımızın öhdəsindən gəlməyə yardım edirlər.

İkincisi, onlar bizi daha çox nailiyyət qazanmağa və can-başla çalışmağa motivə edirlər.

Üçüncüsü, bizim lidersiz müstəqil fəaliyyət göstərməyimizi stimullaşdırırlar (öz şəxsi nümunələri ilə).

Böyük Atatürk Çanaqqala savaşı zamanı "mən sizə şəhid olmağı əmr edirəm", deyə türk əsgərinə müraciət etmişdi! Atatürkün döyüşlərin qızğın vaxtında hərb meydanına gedişi və məğrur duruşu bir nümunədir.

Franklin Delano Ruzveltin 1933-cü il Böyük depressiya zamanı dediyi bir cümlə ibrətamizdir. Amerikanın dövlət başçısı cəmiyyətə üz tutaraq demişdi: "Biz yalnız təlaşa düşməyimizdən qorxmalıyıq"! Sonra, fikirlərinə davam edərək bəyan etmişdir ki, "əgər biz problemin üzərinə cəsarət və zəka ilə getsək, onu aşa biləcəyik... biz sürətlə və sürətlə hərəkət etməliyik!"

İkinci Dünya müharibəsi zamanı faşitlərin sürətlə ərazilər işğal etdikləri mərhələdə Uinston Çörçill xalqa müraciətində vurğulamışdı: "Bizim tərəddüd etməyə və səhvə yol verməyə haqqımız yoxdur; biz heç bir halda ruhdan düşməməli və bədbinliyə qapanmamalıyıq. Biz qanlı döyüşlərdən və ya sonsuz sayıqlıq və dözümlülük sınaqlarından qorxmayacağıq". Davam edərək cəmiyyətə səslənmişdir: "Bizim üçün zəruri olanı verin və biz başladığımız işi mütləq sona çatdıracağıq".

Bunlar əsl liderlərin kəskinləşmiş böhranda davranış nümunələridir! Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Azərbaycanın ən böhranlı və mürəkkəb dönəmlərində atdıqları addımları, səslənişlərini də alın açıqlığı ilə xatırlaya bilərik! Heydər Əliyevin sui-qəsdlərin olduğu zamanda Bakıya cəsarətli qayıdışı, ən kəskin və ağır zamanlarda diplomatik məharətləri ilə vəziyyətdən qalib çıxması, dönmədən xarici siyasətdə müstəqil addımlar atması ayrıca bir əfsanədir! Ümummilli lider XX əsrdə başqa heç bir liderin edə bilmədiyi səviyyədə Azərbaycanı "küldən inkişaf edən" müstəqil dövlətə çevirdi! Bu cür liderliyin ikinci bir nümunəsi hələ də yoxdur. Azərbaycan Prezidenti İlham Əliyevin liderliyindən ayrıca bəhs edəcəyik.

Vurğulanan nümunələrdən bir ümumi nəticə çıxara bilərik: liderin missiyası başlıca olaraq böhranlı mərhələlərdə real sınaqdan keçir və onun timsalında politoloji obrazlaşır.

### Dövrün tarixi missiyası və siyasi lider

Bu, elmi olaraq, mürəkkəb bir bağlantıdır. Çünki dünya miqyasında bəşəriyyətin tarixi missiyası ilə konkret dövlətin başçısının siyasi missiyası arasında gerçək əlaqələri aydınlaşdırmaq asan deyildir. Lakin liderlik mövzusu üçün bu, zəruri bir dərketmə aktıdır. Bir neçə nümunəyə baxaq!

1917-ci ildə N.A.Berdyayev yazırdı ki, "...tarixi missiyanın dəyişməsi saatı yaxınlaşmışdır".

Henri Kissincer XX yüzili bütöv proses kimi götürərək altı liderin dünya strategiyasını müəyyənləşdirməsindən və hər birinin öz dövlətləri üçün fərqli nümunələr yaratmasından bəhs etmişdir. Məsələn, Almaniyada K.Adenauerin strategiyası, ABŞ prezidenti R.Niksonun və ya Fransanın başçısı Ş. de Qollun strategiyasından fərqlənmişdir. M.Tetçerin qarşısına qoyduğu əsas məqsəd də onların hamısından fərqlənmişdir. Sinqapurun o dönəmdə başçısı olmuş Li Kuan Yu isə tamamilə fərqli strategiya hazırlamışdır.

Bu nümunələr müasir liderlikdə iki mühüm faktor arasında daxili bağlantını aydınlaşdırmaq zərurətini ortaya qoyur.

Birincisi, dövrün tarixi missiyası.

İkincisi, həmin missiya ilə konkret dövlətin başçısının ölkəsi üçün ən optimal ola biləcək tarixi missiyanı müəyyən etmək.

Aydındır ki, hər hansı dövrün tarixi missiyası bütün dövlətlər üçün eyni məzmundadır. Məsələn, II Dünya müharibəsindən sonra bəşəriyyət üçün yeni beynəlxalq hüquqi normalar müəyyən etməklə dövlətlərarası münasibətlərdə müharibənin olması ehtimalını sıfıra endirmək dövrün tarixi missiyası idi. Ancaq ABŞ, Fransa, Böyük Britaniya, Sinqapur və başqa dövlətlər fərqli məzmunda öz ölkələri üçün tarixi missiya müəyyən etməklə reaksiya verdilər. Və təcrübə göstərdi ki, onların hər biri uğurlu seçim etmişdir.

Buradan ikinci ümumi nəticə çıxara bilərik: dünya üçün tarixi olan missiya ilə konkret dövlət üçün tarixi missiya arasında uyğunluğu yalnız lider yarada bilər. Bu vəzifənin öhdəsindən gəlməyin özü liderin tarixi missiyasıdır! Məsələn, K.Adenauer dövrün tarixi missiyasının Almaniyaya mümkün təsrini dəqiq müəyyən edərək almanların alışmadığı "barış strategiyası"nı hazırladı, Ş. de Qoll isə Fransaya "iradə strategiyası"nı uyğun gördü, Marqaret Tetçer "inandırma strategiyası"na, Li Kuan Yu isə "üstünlük strategiyası"na önəm verdilər.

Belə görünür ki, vahid bəşəri tarixi strategiya çərçivəsində ölkənin vəziyyətindən asılı olaraq tamamilə fərqli tarixi missiya seçimi uğurlu ola bilər. Buradan siyasi liderin tarixi missiyası kontekstində çox vacib olan başqa bir ümumi nəticə hasil etmək mümkündür. Yəni: "liderin tarixi missiyası birbaşa onun siyasətçi və şəxsiyyət kimi kreativlik (yaradıcılıq) potensialından asılıdır".

Vurğulanan ümumi politoloji qeydlərdən Azərbaycanda liderliyin tarixi missiyasının bir sıra məqamlarına nəzəri keçid etmək olar.

### Heydər Əliyevin tarixi missiyası

Heydər Əliyevin ümummilli liderliyini tarixi missiya kontekstində adekvat dərk etmək üçün elmi yanaşma olmalıdır. Çünki "elm Zamanənin inkişaf etmiş fikridir" (A.İ.Hertsen). Ona görə də Zamanənin tarixi missiyasını həmin dövrün inkişaf etmiş fikri və ya təfəkkürü vasitəsilə doğru anlamaq mümkündür.

Bundan başqa, Heydər Əliyevin lider kimi tarixi missiyası olduqca mürəkkəb və ziddiyyətli dönəmdə uğurlu lider obrazının yaradılması ilə sıx bağlıdır. Onu da nəzərə almalıyıq ki, əsrlərlə müəyyən dairələr Azərbaycana, onun xalqına və liderlərinə şər-böhtan atmışlar. Bizim haqqımızda düzgün olmayan təsəvvürlər formalaşdırmışlar. Bunun fonunda Azərbaycan liderlərinin gerçək elmi obrazını yaratmaq, o cümlədən, onların tarixi missiyalarını obyektiv qiymətləndirmək asan məsələ deyildir. Onu da deyək ki, Azərbaycana, onun xalqına və liderinə qarayaxmalar indi də davam edir və təəssüf ki, bu iyrənc prosesdə bəzi yerli siyasi və media dairələri də iştirak edirlər.

Heydər Əliyevin lider kimi tarixi missiyası iki aspektdə aktual olaraq qalır.

Birincisi, Heydər Əliyev uzun sürən şər-böhtan kampaniyasını məharətli liderliyi ilə dağıtdı. Azərbaycanı xaosdan qurtararaq dinamik inkişaf edən dövlətlər sırasına çıxarmaqla buna nail oldu. Başlanğıcda dünyanın məlum siyasi-ideoloji kəsimləri Azərbaycan liderini ciddiyə almadılar. Lakin tezliklə aydın oldu ki, Lider kimi Heydər Əliyev onların hər birindən dəfələrlə məharətli və uzaqgörəndir! Bununla da Heydər Əliyevin siyasi lider kimi tarixi missiyasında əsas cəhətlərdən biri bütövlükdə Azərbaycan liderlik ənənəsinin dünya miqyasında layiqli yerə haqq etdiyini sübut etməklə bağlıdır.

Ulu öndər fəaliyyəti, əldə etdiyi real nəticələrlə dünyaya sübut etdi ki, Azərbaycan liderləri əsrlərlə dünyaya sırınan şər-böhtan fikirlərdə deyil, real dünyada əldə olunan nəticələrə görə fərqlənirlər. Yeri gəlmişkən, bu çox mühüm məqamı Prezident İlham Əliyev böyük kreativliklə zənginləşdirdi ki, indi dünya miqyasında İlham Əliyev liderliyi fenomenindən hər kəs danışır. Bu o deməkdir ki, biz İlham Əliyevin lider kimi tarixi missiyasına Ümummilli Lider Heydər Əliyevin tarixi missiyasının siyasi varislik üzrə inkişafı kontekstində baxmalıyıq.

İkincisi, realpolitikada Heydər Əliyevin lider kimi tarixi missiyası Cənubi Qafqazda analoqu olmayan müstəqil güclü dövlət qurmaqla sıx bağlıdır. Ulu öndər bu istiqamətdə həm konseptual aspektdə mükəmməl quruculuq kursu hazırlamış, həm də onun eksklüziv reallaşmasına nail olmuşdur.

Buradan Heydər Əliyev–İlham Əliyev dövlət quruculuğu xətti üçün böyük əhəmiyyəti olan yeni bir siyasi qənaət əldə etmək mümkündür. Heydər Əliyev müasir mərhələdə Azərbaycanda liderliyin tarixi missiyasını varislik kontekstində eksklüziv reallaşdırmaq ənənəsinin əsasını yaratmışdır. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan üçün bir liderin tarixi missiyası ilə sonrakı liderin tarixi missiyası arasında ziddiyyət olmamalıdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Kənardan baxdıqda Avropada qəribə bir sakitlik hökm sürür. Küçələrdə adi həyat ritmi davam edir, insanlar işə gedir, kafelər dolub-boşalır, amma bütün bu gündəlik axının altında dərin, hiss olunmayan bir titrəyiş gizlənilir. Sanki, qitə yaxın gələcəkdə nəyinsə dəyişəcəyini duyur. Ard-arda qəbul edilən yeni müdafiə paketləri də elə bundan xəbər verir.**

# Avropada "əzələ" nümayişi

## *Qitə geosiyasi və strateji mövqeyini gücləndirir*

Son illər Avropanın təhlükəsizlik gündəmi qəfil yuxudan oyanmış kimi sürətlə dəyişməyə başlayıb. Qitə uzun onilliklər ərzində "müharibələr keçmişin məsələsidir" düşüncəsi ilə yaşayıb, orduları kiçiltməyi modernləşmə hesab edib, müdafiəyə investisiyanı isə büdcə israfı kimi qələmə verib. Amma bu gün həmin ideologiyanın tamamilə dəyişdiyinin şahidi oluruq. "Qoca qitə" bir daha anlayır ki, təhlükəsizliyə laqeyd yanaşmaq nə sülh yaradır, nə də sabitlik.

Sülhü qorumaq üçün ona dayaqlar lazımdır. Avropa Parlamentinin iki gün əvvəl təsdiqlədiyi 1.5 milyard avroluq Avropa Müdafiə Sənayesi Proqramı (EDIP) də kontinentin müdafiə məsələsinə artıq həssaslıqla yanaşdığının əyani sübutudur. Şübhəsiz, müdafiə məsələsinə əks olunur. Bütün proseslərin fonunda Ukrayna Avropanın öz dəyərlərini nə dərəcədə müdafiə etdiyi və edəcəyi barədə sınaq meydanına çevrilib. EDIP-in Ukraynaya dəstək funksiyası da məhz bunu göstərir. Paralel olaraq "qoca qitə" nə Rusiyanı tamamilə düşmənləşdirmək istəyir, nə də onunla köhnə dostluq illüziyalarını davam etdirmək niyyəti güdür.

Artıq silah istehsalı ilə yanaşı, müdafiə sənayesinin beyin mərkəzləri, tədqiqat proqramları, hərbi innovasiya zəncirləri yenidən formalaşdırılır. Avropa özünü gələcəyin tətbiqi güc mərkəzi kimi görmək istəyir. Amma bütün bunlara baxmayaraq, Avropanın müdafiə psixologiyasında hələ də keçmişin izləri qalır. Qitə militarizmdən həmişə ehtiyat edib. İkinci Dünya müharibəsi Avropa-




nın siyasi yaddaşına elə dərin çöküb ki, bu gün belə müdafiə büdcəsinin artırılması bəzən siyasi müzakirələrdə riskli addım kimi qəbul olunur. Amma reallıq daha sərtdir. Dəqiq desək, dünya artıq postmüharibə erasına qədəm qoyub və Avropa bu dövrdə öz rolunu müəyyən etməlidir.

nəzarətin güclənməsinin əsas səbəbi Rusiya faktorudur. Avropanın illərlə "dialoq tərəfdaşı", "enerji təminatçısı" kimi təqdim etdiyi rəsmi Moskva indi qitənin bütün müdafiə arxitekturasını silkələyən gücə çevrilib. Qitə gec də olsa dərk edib ki, müdafiə sənayesini bölünmüş saxlamaq, hər ölkənin öz ordusunu, təchizatını, doktrinasını ayrı-ayrılıqda inkişaf etdirməsi XXI əsrin təhlükələrinin qarşısını almaq üçün yetərli deyil. Bu kontekstdə "Birləşmiş Avropa" ideyası müdafiədə vahid düşüncə yaratmağa xidmət edir. EDIP-in mahiyyəti də bir növ bununla oxşardır.

Proqram Avropa daxilində istehsalı stimullaşdırmaqla yanaşı, qitənin silah sənayesini koordinasiya etməyə, istehsal zəncirini bir-biri ilə uyğunlaşdırmağa hesablanır. Sənaye standartları, komponent tələbləri, istehsal qaydalarının hər biri Avropanın parçalanmış müdafiə sistemini vahid mexanizmə çevirmək üçündür. Ən azı 65 faiz komponent tələbi isə Avropanın öz resurslarına istinad etmək niyyətindən irəli gəlir. Sözügedən istiqamətdə atılan addımlar üzv ölkələrin illərdir təlqin etdiyi strateji avtonomiya xəttinin praktik təcəssümü kimi də dəyərləndirilə bilər. İncə bir məqamı da vurğulamaq lazımdır ki, atılan addımlar Skandinaviya ölkələrinin ABŞ-la əməkdaşlığı saxlamaq istəyini də bloklamır. Müəyyən balans formalaşdırılır ki, bu da Avropa siyasətinə xas olan kompromis modelinin yeni nümunəsi kimi dəyərləndirilir.

Bəli, Avropa tədricən 1990-cı illərin illüziyalarından çıxır. Avropanın Müdafiəsi üçün Strateji Texnologiyalar Proqramı (STEP), İrəliləmiş Layihələrə Aktiv Dəstək Proqramı (ASAP), Avropa Müdafiə Fondu (EDF), Dayanıqlılıq, Əlaqəlilik və Təhlükəsizlik İnfrastrukturunun 2-ci Fəslinə dair Proqram (IRIS2) və nəhayət, EDIP kimi proqramların hər biri qitənin öz təhlükəsizliyini NATO-nun əllərinə buraxmasının yanlış olduğunu qəbul etməsi anlamına gəlir. ABŞ-ın prioritetlərini dəyişə biləcəyi ehtimalı da Avropanı narahat edir. Bu narahatlıq siyasi təhlillərin fonunda tez-tez "ABŞ artıq əvvəlki ABŞ deyil" cümləsində

Burada Azərbaycanın mövqeyi də maraqlıdır. Cənubi Qafqazda yerləşən ölkə olaraq rəsmi Bakı həm enerji resursları, həm də strateji mövqeyi ilə Avropanın diqqətindədir. Qitənin müdafiə və enerji siyasətində ölkəmizin rolu regionun stabilliyini təmin etmək üçün də əhəmiyyətlidir. Avropa Ukraynaya dəstək verib müdafiə sənayesini gücləndirərkən, regiondakı təhlükəsizlik balansını da nəzərə alır. Azərbaycan üçün bu, həm diplomatik, həm də iqtisadi imkanların artırılması anlamına gəlir.

Prosesin nəticəsi sadə olmasa da, aydındır. Avropa artıq sülhü qoruyacaq mexanizmlərə sahib olmaq istəyir. Proqramların davamlılığı və ardıcıllığı qitənin uzunmüddətli perspektivini də göstərir. Çünki həmin proqramlar kontinentin gələcəkdə qarşılaşa biləcəyi müxtəlif təhlükələrə adaptasiya olunmasına imkan yaradır. Hər bir proqram, hər bir investisiya qitənin texnologiya və sənaye baxımından əlavə, strateji və siyasi baxımdan dayanıqlı olmasını təmin edir. Ona görə də EDIP və digər müdafiə təşəbbüsləri qitənin strateji mədəniyyətini formalaşdırır desək, yanılmarıq.

Avropa anlayır ki, artıq diplomatiya və iqtisadi əlaqələrlə kifayətlənə bilməz, məhz müdafiə, hərbi koordinasiya və sənaye imkanları da qitənin geosiyasi mövqeyini qoruyacaq əsas vasitələrdir. Bu yanaşma, həmçinin, Avropanın gələcəkdəki qərar mexanizmlərini də müəyyənləşdirir və qitənin özünü qlobal siyasətdə güclü aktor kimi görməsinə şərait yaradır. Ehtimal olunur ki, gələcək perspektivdə Avropa həm sabitlik, həm təhlükəsizlik, həm də gələcək nəsillər üçün dayanıqlı mühit təmin etmək imkanı qazanacaq.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Günün sözü*

# Milli elm tərəqqiyə töhfəsini artırmalıdır

## *Alimlərin dövlət qurumları ilə birgə fəaliyyəti böyük səmərə vəd edir*

**Elm insanların təbiət və cəmiyyət haqqında biliklər sistemi olub onların həyat və fəaliyyətinə çox böyük istiqamətverici təsir göstərir. Onun əsas yaradıcıları və daşıyıcıları isə alimlərdir. Həqiqi alim xalqın düşünən beyni və gələcəyi görən gözüdür. Bu səbəbdən, ölkəmizdə elmin inkişafına, elmi dərəcəsi olan kadrların hazırlanmasına dövlətimiz tərəfindən lazımi diqqət və qayğı göstərilir.**



Ötən müddətdə dövlət büdcəsindən elmə çəkilən xərclər mütəmadi olaraq artırılıb. Təkcə onu qeyd etmək kifayətdir ki, 2022-ci ilə nisbətən 2023-2024-cü illərdə bu artım 29,6 milyon manat təşkil edib. Eyni zamanda, ölkəmizdə fəlsəfə doktorları və elmlər doktorları hazırlayan müəssisələrin sayı da kifayət qədərdir. Belə ki, 2024-cü ilin rəsmi statistik məlumatına əsasən, ölkəmizdə 40 müəssisədə fəlsəfə doktorları, 24 müəssisədə isə elmlər doktorları hazırlanır.

Alimlərimiz müxtəlif tabeli elm və təhsil müəssisələrində, nazirliklərdə, şirkətlərdə çalışırlar. Onlar işlədikləri qurumun mənafeyinə uyğun fəaliyyət göstərirlər. Eyni zamanda, iqtisadçı alimlərimiz əsərləri, çıxış və məruzələri ilə əhalinin mövcud cəmiyyətin tələbinə uyğun iqtisadi təfəkkürünü, dünyagörüşünün formalaşmasında mühüm rol oynayırlar. Müasir cəmiyyətin inkişafının obyektiv tələbi kimi alimlərin sayı və elmə çəkilən xərclər yaxın gələcəkdə də artacaq. Bu və ya digər səbəblər ölkəmizdə iqtisadiyyat sahəsində elmi dərəcəsi olan kadrların cəmiyyətin tələbatına uyğun hazırlanmasını və mövcud elmi potensialdan səmərəli istifadə olunmasını obyektiv zərurətə çevirir.

Azərbaycan dövlətinə, ölkə Prezidentinə tabe olan elm və təhsil müəssisələrində, AMEA institutlarında, elm mərkəzlərində işləyənlərin qarşısına qoyulan vəzifə və məqsədlər özəl sektorun, orada çalışanların qarşısına qoyulan məqsəd və vəzifələrə nisbətən fərqli xüsusiyyətlərə malikdir. Belə ki, alimlərimizin bir hissəsi özəl müəssisə və təşkilatlarda işləyir, onların mənafeyinə uyğun fəaliyyət göstərərək ölkəmizin inkişafına öz töhfələrini verirlər.

Dövlət, hökumət tabeliyində olan elm və təhsil müəssisələri, orada çalışan alimlər öz fəaliyyətində ümumdövlət siyasətini, ümumxalq mənafeyini rəhbər tuturlar. Bu baxımdan, Azərbaycan dövlətinə və hökumətinə tabe olan elm və təhsil müəssisələri alimlərinin fəaliyyətinin ümumxalq, ümumdövlət mənafeyi ilə daha sıx əlaqələndirilməsi vacibdir. Lakin hazırda dövlət və hökumətin tabeliyində olan elm ocaqlarında işləyən alimlərin fəaliyyəti dövlətin, hökumətin iqtisadiyyatın inkişafı sahəsində fəaliyyəti ilə kifayət qədər məqsədyönlü formada əlaqələndirilmir. Əlbəttə, alimlərimizin tədqiqat obyekti kimi seçib araşdırdıqları mövzular aktual olur. Lakin əksər vaxt bu mövzular hakimiyyət strukturunda cari ildə, yaxud yaxın bir neçə ildə həll ediləcək məsələlərə, inkişafı nəzərdə tutulan iqtisadiyyat sahələrinə uyğun gəlmədiyinə görə orada verilən təkliflər, irəli sürülən ideyalar da kifayət qədər cəlbedici olmur, istifadəsiz qalır.

Düşünürəm ki, ölkəmizdə iqtisadiyyatın daha sürətlə və səmərəli inkişafı üçün tədqiqatçı-alimlərin səylərini dövlət və hökumət strukturlarının səyləri ilə daha sıx və məqsədyönlü birləşdirilməsi daha faydalı olar. Bunun üçün elm mərkəzləri və iqtisadiyyat institutları öz elmi-tədqiqat mövzularını müstəqil müəyyən edirlər. Eyni zamanda, onların rəhbər işçiləri (direktor, müavin, yaxud da şöbə müdirləri) dövlət və hökumət strukturlarının müvafiq rəhbər işçiləri ilə əlaqə saxlayır və onların cari ildə, yaxud yaxın bir neçə ildə hansı məsələlərin həllini, iqtisadiyyatın hansı sahəsinin inkişafını nəzərdə tutduqlarını öyrənirlər.

Həmin məsələlərdən, inkişafı nəzərdə tutulan sahələrdən öz mövzularına aid olanı, ilk növbədə, araşdırır və vaxtında həmin məsələlərin həllinə, iqtisadiyyat sahələrinin inkişafına aid öz təkliflərini müvafiq dövlət və hökumət orqanlarına təqdim edirlər. Bu halda müvafiq iqtisadi, sosial məsələlərin həllində və bütövlükdə, iqtisadiyyatın inkişafında dövlətin, hökumətin səyləri ilə tədqiqatçı-alimlərin səyləri daha məqsədyönlü formada birləşəcək, aparılan tədqiqatlar da faydalı olacaq.

***Əli NURİYEV,***
***AMEA-nın müxbir üzvü,***
***iqtisad elmləri doktoru,***
***Əməkdar elm xadimi***

# Düzgün qiymətləndirmə uğurlara qapı açır

**Son illərdə ölkə iqtisadiyyatının müxtəlif sahələrində yenilənmə qiymətləndirmə xidmətlərinə olan tələbatı ciddi şəkildə artırıb. Bu fonda Azərbaycan Qiymətləndiricilər Palatası həm bazarın sağlamlaşdırılması, həm də standartların tətbiqi baxımından əsas rol oynayır.**

Palatanın fəaliyyəti qiymətləndirmə sektorunun strukturlaşdırılması, kadr hazırlığı və şəffaf mexanizmlərin qurulmasında xüsusi dəyərə malikdir. Biz də bu istiqamətdə görülən işlərin mahiyyəti və gələcək planlarla bağlı **Azərbaycan Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinin sədri Nüsrət İbrahimovla** həmsöhbət olduq.

***– Nüsrət müəllim, Azərbaycan Qiymətləndiricilər Palatasının təsis olunması zərurəti nədən irəli gəlib və Palata hansı əsas missiyanı daşıyır?***

– Qiymətləndirmə sektoru uzun illər normativ tənzimləmədən kənarda fəaliyyət göstərdiyinə görə həm peşə məsuliyyəti, həm də bazar etibarı baxımından institusional boşluqlar yaranmışdı. 2023-cü ildə yeni Qanunun qəbul edilməsi bu boşluqların aradan qaldırılması üçün mühüm hüquqi əsas yaratdı. Palatanın təsisi isə həmin hüquqi çərçivənin praktik, davamlı və nəzarət olunan şəkildə tətbiqini təmin edən strateji institut kimi formalaşdı.

Palatanın missiyası qiymətləndirmə sektorunda peşəkarlığın sistemli şəkildə artırılması, beynəlxalq standartlara uyğun etik mühitin formalaşdırılması, qiymətləndiricilərin bilik və məsuliyyət səviyyəsini ölçən vahid institutun yaradılması və beləliklə, dövlət, biznes və vətəndaş maraqlarının daha güclü müdafiə edilməsindən ibarətdir.

***– Palatanın fəaliyyəti hazırda hansı mərhələdədir və növbəti illər üçün strateji hədəflər necə müəyyən olunub?***

– Qısa müddət ərzində təşkilat idarəetmə strukturu formalaşdırılmış, normativ aktların icra mexanizmləri işə salınmış, Davamlı Peşə Hazırlığı sistemi tətbiq olunmuş və “BQS 2025” (Beynəlxalq Qiymətləndirmə Standartları) ilə uyğunluq üzrə mərhələli fəaliyyət planı təsdiq edilmişdir. Əhəmiyyətli nailiyyətlərdən biri Elektron Reyestr Sisteminin konseptual bazasının hazırlanması və ilkin mərhələdə tətbiqinə başlanmasıdır.

Əsas çətinliklər bazarın yeni tənzimləmə tələblərinə adaptasiyası ilə bağlı olub. Uzun illər minimal tələblərlə işləyən sektorda davranış dəyişiklikləri, hüquqi məsuliyyətin dərk olunması və keyfiyyət standartlarına uyğunlaşma geniş izah və maarifləndirmə tələb edirdi. Növbəti illərdə Palata tənzimləmə mərhələsindən inkişaf mərhələsinə keçməyi planlaşdırır. Strateji istiqamətlərə standartların milli xüsusiyyətlərə uyğunlaşdırılması, rəqəmsal nəzarət alətlərinin tam inteqrasiyası, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və institusional peşə mədəniyyətinin sabitləşdirilməsi daxildir.



***– Qiymətləndiricilərin reyestri barədə nə düşünürsünüz? Bazarın peşəkarlıq səviyyəsinə və etimad mühitinə bunun hansı təsirləri var?***

– Reyestr qiymətləndirmə sektorunda şəffaflıq və məsuliyyətin əsas təminat mexanizmlərindən birinə çevrilmişdir. Sistem sadəcə qeydiyyat bazası deyil, hər bir qiymətləndiricinin bilik səviyyəsini, iş təcrübəsini və fəaliyyət tarixçəsini obyektiv şəkildə əks etdirən institusional mühitdir. Reyestrin tətbiqi qeyri-peşəkar fəaliyyət imkanlarını məhdudlaşdırmış, “ad altında xidmət göstərmə” kimi hallar isə faktiki olaraq aradan qaldırılmışdır. Banklar və biznes qurumlarının hesabatlara etimadı artmış, keyfiyyətsiz sənədlər isə bazardan təbii seleksiya yolu ilə çıxmağa başlamışdır.

***– Palatanın nümayəndələri üçün Etik Davranış Kodeksi mövcuddurmu və tətbiqi hansı mexanizmlərlə təmin edilir?***

– Palata tərəfindən Etik Davranış Kodeksi təsdiq olunmuşdur və bu sənəd peşənin hüquqi və davranış standartlarını müəyyənləşdirir. Kodeks müstəqillik, obyektivlik, tərəfsizlik və peşə məsuliyyəti kimi prinsipləri əhatə edir. Onun icrası tövsiyə xarakteri daşımır: Elektron Reyestr üzərindən hesabatların izlənməsi, seçmə əsaslı keyfiyyət yoxlamaları, elektron şikayət mexanizmi və İntizam Komissiyasının səlahiyyətləri etika pozuntularının hüquqi məsuliyyət çərçivəsində araşdırılmasını təmin edir. Bu model sektorda davranış intizamını sabit institusional norma səviyyəsinə yüksəldir.

***– Palata üzvlüyü üçün tələblər necə müəyyənləşdirilib və icrası necə yoxlanılır?***

– Üzvlük üçün ali təhsil, sahəyə uyğun baza bilikləri, Dövlət İmtahan Mərkəzinin keçirdiyi sertifikasiya imtahanının nəticələri və peşə sığortasının mövcudluğu tələb olunur. Təqdim edilən məlumatlar sənədlər əsasında və Elektron Reyestrin avtomatik yoxlama modulları vasitəsilə təsdiqlənir. Üzvlük əldə etdikdən sonra qiymətləndirici Davamlı Peşə Hazırlığı üzrə illik tələbləri yerinə yetirməlidir. Bu mexanizm üzvlüyün formal deyil, bilik yenilənməsi və peşə məsuliyyəti əsasında davamını təmin edir.

***– Bəzi qiymətləndirici təşkilatların reyestr məlumatlarının passivləşdirilməsi hansı hüquqi əsaslara söykənir?***

– Qanuna əsasən qiymətləndirmə fəaliyyətini yalnız sertifikatlı mütəxəssislər həyata keçirə bilər. Təşkilatların reyestrdə olması isə yalnız məlumat xarakteri daşıyır. Əgər təşkilatın tərkibində sertifikatlı qiymətləndirici yoxdursa və ya təqdim olunan məlumatlar aktual deyilsə, həmin təşkilatın reyestr məlumatlarının passivləşdirilməsi qanunun tələblərinə tam uyğundur. Bu addım inzibati sanksiya deyil, reyestrin cəmiyyətə real, dəqiq və şəffaf informasiya təqdim edən texniki-hüquqi mexanizmdir.

***– Qiymətləndirmə sənədlərinin elektron arxivləşdirilməsi və onlayn xidmətlərin genişləndirilməsi üzrə hansı layihələr icra edilir?***

– Palata qiymətləndirmə sənədlərinin mərkəzləşdirilmiş elektron arxivdə saxlanılması üçün xüsusi rəqəmsal platforma hazırlayır. Bu arxiv məlumatların uzunmüddətli, təhlükəsiz və auditə uyğun şəkildə qorunmasını təmin edəcək. Paralel olaraq qiymətləndiricilərin onlayn qeydiyyatı, hesabatların elektron təsdiqi, banklarla API inteqrasiyası və Keyfiyyətə Nəzarət sisteminin rəqəmsal idarə edilməsi kimi xidmətlər mərhələli şəkildə tətbiq olunur. 30 noyabr tarixində Palatanın təsis edilməsinin 1 illiyində Elektron Portal istifadəyə veriləcək və bütün xidmətlər vahid platforma üzərindən idarə olunacaq.

Yeni sistem hər bir hesabatın unikal identifikasiya kodu ilə rəqəmsal qeydiyyatını təmin edir. Bu, sənədlərin dəyişdirilməsi, təhrif edilməsi və ya təkrar istifadəsi kimi riskləri tam aradan qaldırır. Banklar və digər qurumlar kod vasitəsilə hesabatın orijinallığını bir neçə saniyəyə yoxlaya bilirlər. Eyni zamanda sistem qiymətləndiricinin fəaliyyət statistikasını, reyestr məlumatlarını və bilik yenilənməsi üzrə göstəricilərini real vaxt rejimində əks etdirir. Bu model ölkədə ilk dəfə qiymətləndirmə sənədlərinin idarə olunmasında tam rəqəmsal audit imkanlarını təmin edir.

***– Palatanın dəstək mexanizmləri nələri əhatə edir və beynəlxalq əməkdaşlıq hansı səviyyədədir?***

– Palata əmlak, avadanlıq, kənd təsərrüfatı, biznes, təbii sərvətlər və digər sahələr üzrə ixtisaslaşmanın genişləndirilməsi məqsədilə yeni təlim modulları və praktiki proqramlar hazırlayır. Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində qlobal standartlara uyğun sertifikat proqramları ölkəyə gətirilir. Məqsəd yerli qiymətləndiricilərin peşəkar səviyyəsini beynəlxalq tələblərə uyğunlaşdırmaq, rəqabət qabiliyyətini artırmaq və Azərbaycan qiymətləndirmə bazarını regional miqyasda etibarlı tərəfdaş kimi formalaşdırmaqdır.

***Müsahibəni hazırladı:***
***Nurlan ABDALOV***
***XQ***



# Pakistanla iqtisadi əməkdaşlığın yeni hədəfləri

***(əvvəli 1-ci səhifədə)***

Görüşdə yüksək səviyyəli qarşılıqlı səfərlərin, keçirilən görüş və tədbirlərin, həmçinin imzalanan sənədlərin hər iki ölkə üçün faydalı işbirliyinin inkişafı baxımından böyük əhəmiyyət daşıdığı qeyd edilib. Xüsusilə investisiya sahəsində birgə fəaliyyətin geniş potensiala malik olduğu, ticarət, tranzit və digər iqtisadi istiqamətlərdə əməkdaşlığın daha da şaxələndirilə biləcəyi vurğulanıb. Tərəflər ikitərəfli münasibətlərin prioritet istiqamətləri və biznes əlaqələrinin şaxələndirilməsi barədə fikir mübadiləsi aparıblar.

Azərbaycanın daim dostluq və qardaşlıq münasibətləri saxladığı ölkələrdən biri Pakistan İslam Respublikasıdır. Rəsmi Bakı və İslamabad hər zaman qarşılıqlı olaraq bir-birinə siyasi və mənəvi dəstək nümayiş etdiriblər. İqtisadi sahəyə gəldikdə deyə bilərik ki, burada vəziyyət o qədər də ürəkaçan deyil. Amma iki ölkə arasındakı xoş münasibətlər son dövrlərdə ticarət əlaqələrinə də müsbət təsir göstərir. Xüsusilə 2022-ci ildə Azərbaycanın Pakistanla ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 140,1 faiz artaraq 28,2 milyon ABŞ dollarına çatıb. 2024-cü ilin məlumatlarına görə, Pakistanla ticarətdə idxal 21,9 milyon ABŞ dolları, ixrac isə 196,7 min ABŞ dolları təşkil edib. Bu da 2023-cü illə müqayisədə idxalın 8,6 faiz artdığını, ixracın isə 97,1 faiz azaldığını göstərir. 2025-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycan və Pakistan arasındakı ticarət dövriyyəsi 20,7 milyon dollara çatıb ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 38,7 faiz və ya 5,8 milyon dollar artım deməkdir. Bu müddətdə Azərbaycanın Pakistana ixracı cəmi 3200 dollar təşkil edib və 48, 6 faiz azalıb. Əksinə, Pakistandan idxal 40,1 faiz artaraq 20,6 milyon dollara yüksəlib. Ümumilikdə, rəqəmlər Azərbaycanın Pakistanla ticarətində əsasən idxalın üstünlük təşkil etdiyini ortaya qoyur.

Qeyd edək ki, Pakistandan Azərbaycana idxalın əsas hissəsini tərəvəz məhsulları, dərman preparatları və qabığı təmizlənmiş düyü təşkil edir. Digər əsas məhsullar sırasında poliefir parçalar, həmçinin pambıq iplikdən hazırlanmış trikotaj sviter və digər geyim növləri xüsusi çəkiyə malikdir. Bu göstəricilərdən aydın olur ki, Pakistanla idxal ticarətində ərzaq məhsulları və yüngül sənaye malları əsas yer tutur. İxraca isə mineral yanacaq, yağ, bitum, xam dərilər və dəridən hazırlanan mallar, bəzi hallarda maşın-mexanika, avadanlıqlar aiddir.

Məlum olduğu kimi, Azərbaycanın Pakistan iqtisadiyyatına iki milyard ABŞ dolları sərmayə yatırmaq planları var. Bu, birgə müəssisələrin yaradılması və iqtisadi inkişafı stimullaşdırmaq məqsədi daşıyır. Dövlət başçılarının qarşılıqlı səfərləri zamanı imzalanan sənədlər ticarət, investisiya, tranzit, kiçik və orta biznes, turizm və digər sahələrdə əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə imkan yaradır. Prezident İlham Əliyev bu ilin fevral ayında Bakıda Pakistan Baş naziri Şahbaz Şəriflə görüşündə bildirmişdi ki, Pakistan tərəfindən konkret layihələri aldıq və Azərbaycan nümayəndələri onları hazırda qiymətləndirir. Həmin layihələr həm infrastrukturun inkişaf sahələrini, həm energetika, mədən işi və ola bilsin, digər sahələri əhatə edir. Qeyd edək ki, iki ölkə arasında əməkdaşlığın mühüm sektorlarından biri müdafiə sənayesidir. Azərbaycan və Pakistan müdafiə sənayesi məhsullarının birgə istehsalı üçün müzakirələr aparırlar.

Azərbaycan və Pakistan arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi həm regionda sabitliyin möhkəmlənməsinə, həm də hər iki ölkənin iqtisadi imkanlarının artırılmasına xidmət edəcək. Qarşılıqlı səfərlər və imzalanan sənədlər iki ölkə arasında etimadın artırılması, strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi baxımından mühüm rol oynayır. Bundan əlavə, Pakistanla əməkdaşlığın inkişafı Azərbaycanın tranzit potensialını artırmaq və regional iqtisadi inteqrasiyada rolunu genişləndirmək imkanı yaradır. Həmçinin investisiya və ticarət sahəsində birgə layihələrin reallaşdırılması iki ölkə arasında iqtisadi əlaqələrin daha dayanıqlı baza üzərində qurulmasına zəmin yaradır.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Eldəniz ƏMİROV,**
**iqtisadçı**

Pakistan kimi yaxın və böyük bir dövlətlə iqtisadi əlaqələrimizin bu qədər aşağı səviyyədə olması arzuolunan hal sayılmır. Kifayət qədər geniş potensiala malik olan bu ölkənin Azərbaycanın xarici ticarət dövriyyəsində payı cəmi 0,04 faiz təşkil edir, yəni 1 faizə belə çatmır. Bu göstərici ümumi ticarət dövriyyəmizin təxminən 2500-də bir hissəsinə bərabərdir. Müqayisə üçün desək, hər 100 manatlıq ticarət dövriyyəsinin cəmi 4 qəpiyi Pakistanın payına düşür. Bu səbəbdən, bir müddət əvvəl Pakistan–Azərbaycan İqtisadi Əməkdaşlıq Palatasının yaradılmasını son dərəcə zəruri və vacib addım hesab edirəm. Düşünürəm ki, qarşıdakı illərdə Azərbaycan və Pakistan arasında iqtisadi əlaqələrin səviyyəsi birbaşa olaraq bu münasibətlərin səmərəli təşkilindən asılı olacaq.

Potensial kifayət qədər yüksəkdir. Məsafə uzaq olsa da, mövcud imkanlar və qarşılıqlı ticarətə dair perspektivlər xeyli genişdir. Ümid edirəm ki, bütün bu məsələlər nəzərə alınaraq yaxın dövrdə – təxminən iki il ərzində ticarət dövriyyəsinin dinamikasında müsbət dəyişikliklərin şahidi olacağıq.

# ADB-nin 300 milyon dollarlıq kredit layihəsi

**Asiya İnkişaf Bankı (ADB) Bakı–Böyük Kəsik dəmir yolu xəttinin elektrikləşdirmə, siqnalizasiya və telekommunikasiya layihəsinə 300 milyon ABŞ dolları məbləğində kredit ayıra bilər.**

Layihənin detallarının öyrənilməsi 2027-ci il martın 1-5-nə, ADB-nin Direktorlar Şurasının bu kreditin verilməsi ilə bağlı iclasının 2027-ci il sentyabrın 17-də olacağı planlaşdırılır. Məlumata əsasən, kredit portfeli dəmir yolu xətti boyunca elektrikləşdirmə, siqnalizasiya və telekommunikasiya sistemlərinin (EST) tədarükünü və quraşdırılmasını əhatə edir. Bu xətt Şərq-Qərb dəmir yolu dəhlizinin bir hissəsidir və “Azərbaycan Dəmir Yolları” QSC-nin beynəlxalq yük daşımalarına xidmət edəcək. İxracların əksəriyyəti ya Bakı-Böyük Kəsik, ya da Biləcəri-Yalama marşrutu ilə həyata keçirilir.

Təklif edilən layihə xəttin müasir elektrikləşdirmə infrastrukturu (dirəklər, kontakt şəbəkəsi, yarımstansiyalar, kabellər), siqnalizasiya sistemləri (yolboyu siqnallar, stansiyalarda avadanlıqlar, kabellər) və telekommunikasiya sistemləri (dəmir yolu şəbəkə rabitə sistemləri, bortdakı elektron cihazlar, fiber-optik və simsiz rabitə sistemləri) ilə tam təchiz edilməsini və iki dəmir yolu dəhlizi boyunca dəyişən cərəyan enerji təchizatı və siqnalizasiyanın tamamlanmasını hədəfləyir.

Xatırladaq ki, Azərbaycan 1999-cu ildən ADB-nin üzvüdür və bu müddət ərzində bank ölkəyə 5,6 milyard ABŞ dollarına yaxın kredit ayırıb. Bunun 4,4 milyard dolları dövlət sektoruna, 1,2 milyard dolları özəl sektora yönəldilib. Eyni zamanda, bank Azərbaycanın nəqliyyat sektorunda həyata keçirilən layihələrə 1,5 milyard ABŞ dolları, enerji layihələrinə isə 1,7 milyard ABŞ dolları vəsait ayırıb.

Yeni tərəfdaşlıq strategiyasının bir hissəsi olaraq, ADB Azərbaycana 2,5 milyard ABŞ dollarına qədər investisiya qoymağa hazırdır.

***XQ***

*Konstitusiya və Suverenlik İli – 2025*

# Demokratiya ideallarına sadiqliyin ali göstəricisi

**Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Azərbaycanda 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsinin çox mühüm və tarixi əhəmiyyəti var. Çünki Azərbaycan Respublikası müstəqil dövlət olaraq suverenliyini tam təmin etmiş və xalqımızın konstitusiya hüquqları qorunaraq müdafiə edilir. Belə bir cəmiyyətdə yaşamaq, işləmək, fəaliyyət göstərmək hər bir Azərbaycan vətəndaşı üçün qürur hissi doğurur.**



Konstitusiyanın əsas institutlarından biri dövlətin fundamental atributlarından olan suverenlik məsələsidir. 2023-cü ilin sentyabr ayında keçirilmiş antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam şəkildə bərpa olunmuşdur. Xalqın yekdil səsi ilə 1995-ci ildə qəbul edilən Konstitusiyamız dünyada mühüm yerə malik olan normativ-hüquqi aktlardan biridir. 2002, 2009 və 2016-cı illərdə keçirilmiş referendumlar nəticəsində Konstitusiyaya zəruri dəyişikliklər edilərək, əsasən insan hüquq və azadlıqları ilə bağlı yeni normalar əlavə olunmuşdur.

Bu il Konstitusiyamızın qəbul edilməsinin 30-cu ildönümüdür və hər kəsə yaxşı məlumdur ki, müasir Azərbaycan dövlətinin Ana Qanunu ümummilli lider Heydər Əliyevin şah əsərlərindən biridir. Ulu öndər xalqın təkidi ilə hakimiyyətə gəldikdən və xalqımızın yüksək etimadı ilə Prezident seçildikdən sonra ilk diqqət etdiyi sahələrdən biri məhz yeni Konstitusiyanın hazırlanması və qəbul edilməsi olmuşdur. Çünki dövlətin idarə və sivil formada inkişafı üçün hüquqi baza olmalı idi. Lakin Azərbaycanda 1991-ci il oktyabrın 18-də müstəqilik haqqında Konstitusiya aktı qəbul edilsə də, bu, dövrün tələblərinə cavab vermirdi. Ulu öndərin rəhbərliyi ilə yaradılan konstitusiya komissiyası tərəfindən qısa zamanda hazırlanan Konstitusiya layihəsi ümumxalq səsverməsi nəticəsində yekdilliklə qəbul edildi və müstəqillik tariximizin ən mühüm hadisələrindən biri kimi tarixə qızıl hərflərlə yazıldı. Bundan sonra 2002, 2009 və 2016-cı illərdə Konstitusiyanın ayrı-ayrı maddələrinə əlavə və dəyişikliklər xalqımız tərəfindən müsbət qarşılanaraq dəstəkləndi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan tarixi qələbə və antiterror tədbirləri nəticəsində isə bütün ərazilərimiz üzərində suverenliyimiz tam təmin edildi. Bununla da Konstitusiyamızda yer alan Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti tam reallaşdı.

Konstitusiyamızın 11-ci maddəsinə əsasən, Azərbaycanın ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Dövlət başçımızın uzaqgörən və uğurlu siyasəti nəticəsində bu maddədə yer alan prinsiplər tam təmin olunmuşdur.

Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi Konstitusiyamızda başlıca prinsiplərdən biri kimi təsbit olunmuşdur. 1995-ci il noyabrın 24-də Milli Məclisdə çıxış edən ulu öndər Heydər Əliyev demişdir ki, yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edir.

Dövlətin suverenliyi üçün hüquqi-siyasi, sosial-iqtisadi fundament olmalıdır. 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkənin intibah dövrünə qədəm qoyması belə fundament rolunu oynadı. O dövrdə müxtəlif sahələrdə yerli kadrların yetişdirilməsi, həmçinin milli şüurun inkişaf etdirilməsi və milli ruhun yüksəldilməsi sahəsində məqsədyönlü işlər görüldüyündən xalqımız bunun müsbət bəhrəsini görür.

Xalqımız tarixən müstəqil və suveren dövlətə sahib olmaq, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq arzusu ilə yaşamışdır. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış, 1918-ci ildə azadlığını qazanıb, XX əsrin sonlarında isə dövlət müstəqilliyini bərpa etmişdir.

İstənilən dövlətin mövcudluğu və inkişafı konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Belə ki, hər bir hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyənləşdirərək insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü və digər bir sıra mühüm hüquqi prinsipləri özündə ehtiva edir.

Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış ilk Konstitusiya ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu üçün mühüm qanunvericilik bazası olmaqla, normativ–hüquqi aktların sistemində aliliyi ilə seçilir.

Konstitusiyamız 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət olmaqla, vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etmiş, hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirmiş və ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisi olmuşdur.

Bu ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hüquqi islahatların daha sistemli həyata keçirilməsi və vətəndaşların hüquqi biliklərinin artırılması məqsədini daşıyır. Bu təşəbbüs hüquqi təhsil və maarifləndirməni gücləndirməklə vətəndaşların konstitusiya hüquqları ilə bağlı məlumatlılığını artırır. Çünki suverenlik və konstitusiya hüququ müasir dövlətçiliyin fundamental prinsipləridir. "Konstitusiya və Suverenlik İli" hüquqi islahatların gücləndirilməsi və dövlət quruculuğunun inkişafı baxımından mühüm addımdır. Əminik ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə suveren və bütöv Azərbaycan yeni dövrdə sürətlə inkişaf etməklə, dünya birliyində rolunu durmadan genişləndirəcəkdir.

***Rafail ƏLİYEV,***
***Şəki Ağır Cinayətlər***
***Məhkəməsinin sədri***

*Araşdırma*

# “Bərabərlik” nəqliyyatda “ədalətsizlik” buxovuna çevriləndə...

*(əvvəli 1-ci səhifədə)*

Hazırda metro və avtobuslarda tətbiq edilən ənənəvi gediş haqqı modelinin üstünlükləri olduğu kimi, çatışmazlıqları da aydın nəzərə çarpır. Üstünlüklərinə gəldikdə isə əvvəlcə xatırladaq ki, bu tarif sistemi daha çox sadəliyi ilə diqqət çəkir. Çünki ödəniş mexanizmi həm texniki, həm də təşkilati baxımdan asandır. Sərnişinlər üçün xərci əvvəlcədən planlaşdırmaq mümkündür. Lakin sürətlə inkişaf edərək genişlənən Bakıda bu tarif sadəliyi, deyildiyi kimi, bəzən ədalət prinsipinə mane olur və problemlər yaradır. Məsələn, avtobusla qısa yol gedənlər sistemə daha çox pul ödəyir, uzun məsafə qət edən istifadəçilərin maliyyə yükü isə də onların üzərinə düşür. Eyni zamanda, şəhər mərkəzində əlavə sərnişin yükü yaranır, qısa məsafələr üçün avtobus və metro seçimə çevrilmir.

Narazılıq doğuran belə tarif prinsipi ilə bağlı sakinlər tərəfindən tez-tez belə bir sual verilir: Niyə bir dayanacağa, eləcə də bütün şəhər boyu yol qət edilməsinə eyni məbləğ ödənilir? Bu məsələdə beynəlxalq təcrübəyə – məsafə əsaslı tarif sisteminin tətbiqinə niyə əhəmiyyət verilmir? Axı, Avropa ölkələrinin əksər böyük şəhərlərində məsafəyə əsaslanan tarif modeli bir qayda olaraq üstünlük təşkil edir. Bu, sadəcə tarif dəyişilməsi deyil, eyni zamanda, nəqliyyat strukturunun optimallaşdırılması deməkdir.

Ekspertlərin fikrincə, ölkəmiz üçün məsafə əsaslı tarifin iqtisadi əhəmiyyəti daha böyükdür. Belə ki, bu modelin tətbiqi təkcə ədalətlilik baxımından deyil, həm də iqtisadi cəhətdən daha ciddi önəm daşıyır. Bu hal daşıyıcıların maliyyə sabitliyinin güclənməsində özünü qabarıq büruzə verir. Çünki uzun xətlər daha çox vəsait tələb edir, lakin sabit tarifin tətbiqində bu, nəzərə alınmır.

Sərnişin nəqliyyatında ən səmərəli tarif siyasəti sosial ədalət prinsipinə söykənir. Bu isə resursların daha səmərəli idarə olunmasına imkan yaradır, sərnişin axınını müəyyənləşdirir, pik saatlarda tıxacları azaldır, xətt yükünü balanslaşdırır. Nəqliyyat ekspertlərinin sözlərinə görə, ədalətli tarif, real xərc, səmərəli bölüşdürmə kimi formullar dövlət büdcəsinə düşən yükü də azaltmağa kömək edir. Belə halda isə şübhəsiz ki, qısa məsafə istifadəçiləri yenidən ictimai nəqliyyata üstünlük verirlər. Bu isə məsafə əsaslı tarifin tətbiqinin zəruriliyini diktə edir.

Mütəxəssislər bildirirlər ki, Bakı Metropolitenində məsafə əsaslı tarif sistemi araşdırılsa da, hələlik onun tətbiqinin prioritet olmadığı deyilir. Eyni zamanda, bu addımın genişmiqyaslı hazırlıq tələb etdiyi, metro stansiyalarında giriş və çıxış terminallarının modernləşdirilməsinin zəruriliyi vurğulanır. Hazırda metroda yalnız girişdə kart oxudulur. Məsafə əsaslı tarifdə isə həm giriş, həm də çıxış oxuyucuları tələb edilir.

Respublikamızda məsafə əsaslı tarif sisteminə keçidin əsas şərtlərindən biri də real vaxtda məlumat mübadiləsi sisteminin qurulmasıdır. Bu, sərnişin axınının ani olaraq emal edilməsini və ödənişin avtomatik hesablanmasını şərtləndirir. Bir sözlə, vahid rəqəmsal ödəniş platformasının yaradılması avtobus, metro, taksi və digər nəqliyyat növləri arasında inteqrasiyanı gerçəkləşdirən vahid sistemi əhatə edir.

## İctimai Nəqliyyat Fondunun yaradılması – dönüş nöqtəsi

Prezident İlham Əliyevin bu il sentyabrın 19-da imzaladığı “Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərmana əsasən, bu sahədə əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin reallaşdırılması, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla ictimai nəqliyyat daşıyıcılarının fəaliyyətinin səmərəli təşkili məqsədilə dövlət büdcəsinin tərkibində “İctimai nəqliyyat” Məqsədli Büdcə Fondunun yaradılması qərara alınıb. Bununla da sərnişin daşımalarının keyfiyyətini artırmaq, müasir standartlara uyğunlaşdırmaq və bu sahəni daha səmərəli idarə etmək məqsədi qarşıya mühüm vəzifə kimi qoyulub. Eyni zamanda, sərnişindaşımada qeyri-leqal fəaliyyətə qarşı mübarizə, tariflərin optimallaşdırılması və vahid nəqliyyat kartı sisteminin tətbiqi kimi məsələlər də diqqət mərkəzində saxlanılıb.

**Nəqliyyat eksperti Arif Həsənovun** sözlərinə görə, adıçəkilən fond dövlətlə daşıyıcılar arasında şəffaf müqavilə mexanizmini təmin edəcək, hər xətt üzrə xidmətin real dəyərini hesablamağa imkan yaradacaq, məsafə əsaslı tarif modelinin tətbiqi üçün iqtisadi baza formalaşdıracaq. Bir sözlə, “İctimai nəqliyyat” Məqsədli Büdcə Fondu paytaxt Bakı üçün yeni idarəetmə fəlsəfəsinin əsasını qoyacaq, resursların səmərəli yönləndirilməsini şərtləndirəcək, eyni zamanda, nəqliyyat xidmətinin keyfiyyətini və sərnişin məmnunluğunu artırmağı gerçəkləşdirəcək.



Bütün bu sadalanan məsələlərin reallaşdırılması nəticəsində məsafə əsaslı tarif sistemi layihəsi müxtəlif sosial qruplara müxtəlif şəkildə təsir göstərəcək, bundan isə əsasən qısa məsafə istifadəçiləri qazanacaq. Məsələn, Nərimanov – Gənclik, Nizami – Elmlər Akademiyası metro stansiyaları arasındakı məsafəni qət edən şəxs daha az məbləğ ödəyəcək. Uzun məsafə istifadəçiləri üçün isə ödəniş, şübhəsiz ki, artacaq. Başqa sözlə, Həzi Aslanov – Dərnəgül metro stansiyaları arasında sərnişin daha çox məsafə qət etdiyinə görə əlavə ödəniş edəcək.

Məsafə əsaslı tarif sistemi layihəsinin ortamüddətli perspektivdə həll ediləcəyinin gözlənildiyi bildirilir. Amma vacib olan odur ki, artıq bu istiqamətdə araşdırmalar gedir və beynəlxalq təcrübə dərindən öyrənilir. Bakı sərnişin nəqliyyatında məsafə əsaslı tarif modelinin tətbiqi həm ictimai tələbat, həm də iqtisadi zərurətdir. Dünyanın böyük şəhərlərinin təcrübəsi göstərir ki, belə bir model sosial ədaləti gerçəkləşdirir, mobilliyi artırır, nəqliyyat sistemini daha dayanıqlı edir, şəhər yükünü tənzimləyir. Texnoloji transformasiya, rəqəmsal ödənişlərin artması və idarəetmə islahatları bu keçidi mümkün edir. Çətinliklər var, lakin istiqamət doğrudur. Bakının gələcəyin şəhərinə çevrilməsi prioritetdirsə, onun nəqliyyat sistemi də gələcəyin tələblərinə uyğun olmalıdır.

Paytaxt nəqliyyatında məsafə əsaslı tarif modeli həm rasionallıq, həm də ədalət baxımından əhəmiyyətlidir. Texnoloji yeniliklər, rəqəmsal ödəniş imkanlarının genişlənməsi, nəqliyyat institutlarının yenidən formalaşması bu modellə bağlı ümidləri artırır. Lakin həm metro, həm avtobus infrastrukturu, həm də idarəetmə mexanizmləri uzunmüddətli hazırlıq tələb edir. Sərnişinlərin tələbi isə aydındır: ödəniş sistemi daha ədalətli olmalıdır. Beynəlxalq təcrübə bunun mümkün olduğunu təsdiqləyir. İndi əsas məsələ Bakının nəqliyyat sistemində planlaşdırılan islahatların vaxtında və ardıcıllıqla həyata keçirilməsidir.

Göründüyü kimi, məsafə əsaslı tarif daşıyıcıların maliyyə sabitliyini artırır, çünki bu model xidmətlərin dəyərini onların məsafəsinə görə təyin edir. Sabit tarifdən fərqli olaraq, məsafə əsaslı tarif uzun məsafələrə xidmət göstərmək üçün tələb edilən əlavə xərcləri nəzərə alır. Bu, daşıyıcıların xərclərini ədalətli şəkildə kompensasiya etməyə və eyni zamanda, maliyyə sabitliyini gücləndirməyə imkan verir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

**Elməddin MURADLI,**
**nəqliyyat eksperti**



Prezident İlham Əliyevin bu il sentyabrın 19-da imzaladığı “Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Fərmana əsasən, dövlət büdcəsinin tərkibində yaradılan “İctimai nəqliyyat” Məqsədli Büdcə Fondu sərnişin daşımalarının keyfiyyətini artırmaq, müasir standartlara uyğunlaşdırmaq, eləcə də tarifləri optimallaşdırmaq və vahid nəqliyyat kartı sisteminin tətbiqini gerçəkləşdirmək kimi məsələlərin həllini nəzərdə tutur.

Xatırladım ki, adıçəkilən fərmanın reallaşdırılması ilə ölkəmizin ictimai nəqliyyat sistemində böyük dəyişikliklər gözlənilir. Sənəddə 2026-cı ildən etibarən avtobuslarla sərnişin daşımalarında məsafə əsaslı yeni modelin – beynəlxalq təcrübədə “brutto müqavilə” adlanan sistemin 2028-ci ilə qədər tam şəkildə həyata keçiriləcəyi bildirilir.

Diferensial qiymətlərin tətbiqi zamanı ictimai nəqliyyatda müəyyən ödəniş artımlarının olub-olmayacağı diqqətçəkən məqamlardan biridir. Bu modelin gerçəkləşdirməsi zamanı gediş haqlarında müəyyən qədər artım və ya azalma ola bilər. İctimai nəqliyyatda qiymət artımı haqda qərarı isə müvafiq nazirlik verir. İndidən ictimai nəqliyyatda bu cür artımın baş verib-verməyəcəyi barədə qəti fikir bildirmək düz deyil. Onu da vurğulayım ki, diferensial qiymətlərin tətbiqi zamanı ictimai nəqliyyatda gediş haqqları müəyyən qədər arta və azala bilər.

Bu modelin müsbət tərəfləri var və onu da dəyərləndirmək lazımdır. Dünyanın bir sıra ölkələrində bu praktikadan istifadə olunur və yaxşı nəticə müşahidə edilir. Çünki hər bir sərnişin getdiyi məsafənin pulunu ödəyir, artıq ödəniş həyata keçirmir. Bu baxımdan diferensial qiymət siyasəti dünyada müsbət qiymətləndirilir. Bu prosesin reallaşdırılması üçün müəyyən sistemin qurulması zəruri sayılır. Ödənişin nağdsız, elektron qaydada həyata keçirilməsinə ehtiyac var.

Avtobuslarda bu modelin tətbiqinə müəyyən zaman tələb olunur. Çünki sərnişindaşıma parklarında nəqliyyatın müəyyən hissəsi köhnədir, onlarda variator quraşdırmaq çətindir. Bu baxımdan, avtobus parkı tam yenilənmədən məsələnin həlli – diferensial qiymət tətbiqi real görünmür.

Məsafə ilə bağlı qiymətlərin tətbiqi zamanı qarşıya çıxacaq çətinliklər də indidən müəyyən edilməli, narahatlıq doğuran problemlər operativ aradan qaldırılmalı, bütün məsələlərin həlli ictimai nəqliyyatda vahid ödəniş sisteminin yaradılması ilə nəticələnməlidir. Belə şəraitdə isə Binə qəsəbəsində avtobusa minən şəxs Koroğlu metro stansiyası üzərindəki habda düşüb metroya daxil olur və artıq yenidən ödəniş etməyə ehtiyac qalmır. Qiymət siyasətində bu cür mexanizm insanları ictimai nəqliyyatdan istifadəyə daha çox həvəsləndirir. Bu çox səmərəli yanaşmadır. Yəni sərnişin bir ödənişlə bir neçə nəqliyyat növündən faydalana bilir.

# Şairlər yurdunun Zəfər ovqatlı günləri

**Qazax rayonu ölkəmizin söz sənəti mərkəzlərindən biridir. Məşhur el şairləri, həmçinin Vaqif, Vidadi, Abdulla bəy Divanbəyoğlu, Kazım ağa Salik, Hacıkərim Sanılı, Səməd Vurğun, Osman Sarıvəlli, Mehdi Hüseyn, İsmayıl Şıxlı, Mirvarid Dilbazi, Hüseyn Arif, Nəriman Həsənzadə, Tələt Əyyubov, Nüsrət Kəsəmənli, Yusif və Vaqif Səmədoğlular və digərlərindən üzübelə Qazax ədəbi mühiti hər zaman Kür kimi aşıb-daşıb.**



"Söz mülkünün beşiyi" adlanan Qazaxdakı Ədəbiyyat Muzeyində, Yuxarı Salahlı kəndində Xalq şairi Səməd Vurğunun adını daşıyan Poeziya Evində, Göyəzən dağının ətəyində, Damcılı bulaqda və digər ünvanlarda çoxsaylı ədəbi-bədii tədbirlər keçirilir. Ölkə başçısı İlham Əliyev 2011-ci ildə Yuxarı Salahlı Poeziya evinin açılışında iştirak edib. Bu məkanlar klassiklərin xatirəsinə bir ehtiram ünvanı, söz-sənət vurğunlarının daimi görüş yeridir.

Artıq bir qərinədir ki, Azərbaycan Yazıçılar Birliyinin Qazax regional bölməsinə tanınmış şair-publisist, Əməkdar incəsənət xadimi Barat Vüsal rəhbərlik edir. Onunla ilk dəfə Birinci Qarabağ müharibəsi zamanı Qazaxdakı döyüş səngərlərində əsgərlərlə görüşdə tanış olmuşam. Onda şair döyüşçülərimizin mübarizə əzmini artıran odlu-alovlu şeirləri ilə hər kəsi duyğulandırmışdı. Ümumiyyətlə, onun vətənpərvərlik mövzusunda yazdığı bədii nümunələr səmimiliyi, inandırıcılığı və poetikliyi ilə seçilir.

44 günlük Vətən müharibəsinə həsr edilmiş şeirlərdən ibarət kitablarda da bunun şahidi oluruq. Barat Vüsal qəhrəmanlıq tariximizi bədii boyalarla əks etdirir.

Məsələn, bizi qalib millət edən Ali Baş Komandanımıza minnətdarlıq duyğularını, görün, necə qələmə alıb:

***Kişi kişiliyi yaşadar canda,***
***Tarixdə kişilər qəhrəman olur.***
***Ocağın başında kişi duranda,***
***Torpağı qorumaq çox asan olur!***

Ömrünün 75-ci baharını yaşayan Barat Vüsalla söhbətimizdə Qazax yazarlarının yaradıcılığında böyük Zəfərimizin bədii salnaməsi barədə danışdıq. Təvazökarlıq göstərib bölgədəki qələmdaşlarından daha çox bəhs etdi. Amma bildiyimiz qədərilə o özü bu sahədə ağsaqqallıq nümunəsi göstərir, örnək yazıları ilə öndə gedir. Onunla ünsiyyətimiz vaxtı ölməz Məmməd Arazın bir zaman Lənkəranda yaşayıb-yaradan Şəkər Aslana ünvanladığı bir fikrini xatırladıq: "Sən bölgə şairi deyilsən, sən ölkə şairisən". Bu sözləri tam mənasında Barat Vüsala da aid edə bilərik.

Bölgənin ədəbi aləmində tanınan İsa Cavadoğlu, Saqif Qaratorpaq, Mustafa Rasimoğlu, Səhlədar Hidayətoğlu, Mübariz Qaragözlü, Məzahir Yaqub, Məzahir Alıyev, Bilal Qoca, Əli Cəfəroğlu, Aydın İbrahimoğlu, gənc şairlər Rüfət Axundlu və Nuranə Təbrizin yaradıcılıq uğurları da təqdirəlayiqdir.

– Ənənə üzrə hər il Qazaxda Səməd Vurğun Poeziya Günləri keçirilir, - deyə o bildirdi. Vaqif Poeziya Günləri Şuşadan əvvəl buradan başlanır. Bu il Qazax ədəbi camiəsinin "Ümummilli Lider Heydər Əliyev milli dilimizin xilaskarıdır" mövzusunda keçirdiyi görüş, şair Vəli Xramçaylının 70, aşıq Saqif Məzəmlinin 65, aşıq Kərəm İncəlinin 80 illik yubileyləri, Xalq yazıçısı, tanınmış ictimai xadim Yusif Səmədoğlunun 90 illiyi və sair tədbirlər də söz sənətinin təbliği amalına xidmət edib.

Vətənpərvərlik yazarlarımızın üz tutduqları aparıcı mövzulardandır. Sentyabrda Qazax Rayon İcra Hakimiyyətinin və Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində dövlət gənclər siyasətinin təşviqi, vətənpərvərlik ruhunun gücləndirilməsi və yaradıcı gəncliyin formalaşdırılması məqsədilə "Göyəzən" qəzetinin baş redaktoru, şair-publisist Elçin




İsmayılın şəhidlərə həsr etdiyi sayca 3-cü - "Şanlı vətən oğulları" kitabı təqdim olunub. Bakı Dövlət Universitetinin (BDU) Qazax filialında Zəfər Gününə həsr olunmuş məclisdə də həmin kitab haqqında ətraflı danışılıb, xatirələr dilə gəlib və şeirlər səsləndirilib.

Vətən müharibəsindən sonra rayon rəhbərliyinin təşəbbüsü ilə "Qanları ilə dastan yazanlar" (50 qazaxlı şəhid), "Vətəni canından əziz bilənlər" kitabları da çap edilib və şəhid ailələrinə, oxuculara ərməğan olunub. Ön söz müəllifi Xalq şairi Nəriman Həsənzadə olan kitabda torpaqlarımızı işğaldan azad etmiş şəhid qəhrəmanların haqqında xronoloji məlumatlar da daxil olmaqla, hər bir şəhidin bədii obrazı yaradılıb.

Bu yaxınlarda Qazaxda böyük Zəfərimizin 5-ci ildönümünə həsr edilmiş kitab və rəsm sərgisi, eləcə də Xuraman Yusif-Əzimovanın Vətən müharibəsi şəhidi, tibb xidməti leytenantı Adil Əfəndiyev haqqında "O, bizim Adildi" kitabının təqdimat mərasimi olub. Mehdi Hüseyn adına Humanitar və Təbiət Fənlər Təmayüllü Məktəb-Liseydə keçirilən tədbirin iştirakçıları əvvəlcə Adil Əfəndiyevlə bərabər, digər şəhid məzunlar - baş leytenant Xaliddin Nəsibovun, gizirlər Sərxan Abdullayevin, Tahir İsmayılovun, Elvin Əhmədovun xatirəsinə tikilən bulağın önünə tər qərənfillər düzərək igid Vətən oğullarını ehtiramla anıblar.

Mərasimdə qeyd olunub ki, qəhrəmanlar bizim qəlbimizdə, ruhumuzda, yazılan əsərlərdə, musiqilərdə, kitablarda ölməzlik qazanıblar. İcra başçısı Rəcəb Babaşov "Əziz şəhid ailələri, yaxşı ki, sizlər varsınız və belə qəhrəman övladlar böyütmüsünüz", – deyərək onlarla qürur duyduğumuzu, onlara borclu olduğumuzu dilə gətirib. AYB region bölməsinin sədri Barat Vüsal deyib ki, qəhrəman oğullarımızın əziz xatirəsini yaşatmaq üçün bulaqlar inşa olunur, küçə adları verilir, kitablar yazılır və yenə də yazılacaq. Adil haqqında yazılmış kitab da həmin silsilədəndir. "O, bizim Adildi" kitabının adında səsləndiyi kimi, Adil Əfəndiyev hər birimizin, bütün Azərbaycan xalqının övladıdır", - söyləyən şair igid Vətən oğluna həsr etdiyi "Adil bulağı" adlı şeiri səsləndirib.

"Rəşadət" ordenli kapitan Samir Çobanov Qazax rayonunun ərazi bütövlüyümüz uğrunda savaşda ümumilikdə 348 şəhid verdiyini xatırladıb. "Qarabağ Azərbaycandır!" Abidə Kompleksinin inşa olunduğunu, Qazax Tarix-Diyarşünaslıq Muzeyində, Bakı Dövlət Universitetinin Qazax filialında Xatirə guşəsinin yaradıldığını, Qazax Şəhidlər xiyabanına isə şəhidlərin şəkilləri əks olunan mərmər lövhələrin vurulduğunu bildirib. Vətən Müharibəsi Qərhəmanı, şəhid, polkovnik-leytenant Anar Əliyevin atası Vaqif Əliyev də ürək sözlərini ifadə edib.

Şairlər Asimə Hüseyn, Rüfət Axundlu qəhrəman Vətən oğluna həsr etdikləri şeirləri oxuyublar. Aşıq Samir Cəlaloğlu "Ruhani" saz havasında "Türkəm" şeirini səsləndirib.

***Ə.DOSTƏLİ***
***XQ***



# Torpaqdan göyərən halallıq

**Taxılçılığın, pambıqçılığın və heyvandarlığın inkişafı ilə seçilən Sabirabad rayonunda zəhmət adamları torpağın nəfəsini duymaqla özlərinə güngüzəran qurur, aqrar sahənin inkişafına töhfələr verirlər. Onlardan biri də İbrahim Paşaliyevdir.**



Bu il Sabirabadda biçilmiş 10 min 877 hektar buğda sahəsindən 51 min 307,6 ton, 9 min 385 arpa əkini sahəsindən isə 36 min 984,9 ton məhsul götürülüb. Ümumilikdə hər hektardan orta hesabla 46,4 sentner məhsul əldə edilib. Bu, orta respublika göstəricisindən xeyli çoxdur. Cari ilin əvvəlinə rayonda iribuynuzlu heyvanların sayı 122 min 364 baş, xırdabuynuzlu heyvanlar isə 123 min 577 baş təşkil edirdisə, 10 ay ərzində heyvanların ətlik üçün mütəmadi kəsilməyinə baxmayaraq, indi həmin rəqəmlər müvafiq olaraq 121 min 878 və 129 min 985 baş olub.

Kənd təsərrüfatında qazanılan təcrübə barədə danışan **Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Heydər Yaqubov** bildirdi ki, dövlətin hərtərəfli dəstəyi və qayğısı nəticəsində fermerlərin gərgin əməyi öz bəhrəsini verir. Qazanılan uğurlarda ayrı-ayrı fermerlərlə yanaşı, kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunan İbrahim Süleyman oğlu Paşaliyevin da müstəsna rolu olub.

**Rayonda qabaqcıl fermer kimi tanınan İbrahim kişi ilə iş başında görüşdük. Çay süfrəsi arxasında söhbətə torpağa bağlılığın vacibliyindən başladı:**

– Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində torpaq kəndlilərə paylanıldığı vaxtdan tərəddüd etmədən şəxsi təsərrüfatımı inkişaf etdirməyə başladım. Bəziləri nəyi isə gözlədiyi vaxt mən artıq məhsul toplayır, ruzi qazanırdım. Torpağın nəfəsi məni təsərrüfatı durmadan genişləndirməyə sövq etdi. Atalar əbəs yerə deməyiblər ki, ucalmaq istəsən, torpağa əyil. Bu barədə türk xalq ozanı Aşıq Veysəl də yaxşı deyib:

***Qarnın yardım qazmağınan, belinən,***
***Üzün yırtdım dırnağınan, əlinən.***
***Yenə məni qarşıladı gülünən,***
***Mənim sadiq yarım qara torpaqdı.***

Tanınmış fermer iş-gücü barədə danışaraq hər gün günəşi sahədə qarşıladığını dedi: "Dövlət siyasətinə uyğun olaraq, əkinçiliklə yanaşı, maldarlıqla da məşğul oluram. Bir fermer kimi zəhmət hesabına ailəmi ürəyim istəyən kimi dolandırır kəndimizin abadlaşdırılması üçün də çalışıram. Uşaqlığım kənddə keçdiyindən babalarımın təcrübəsi üzrə təsərrüfatı inkişaf etdirirəm, pambıqçılıqla məşğulam, taxıl əkirəm, toxumluq buğda yetişdirirəm, mal-qara, toyuq-cücə saxlayıram".

Məlum oldu ki, fermer 17 hektarda taxıl, 47 hektar sahədə pambıq əkib və aqrotexniki qaydalara düzgün əməl etdiyindən, ötən il olduğu kimi, bu il də bol məhsul götürüb. İndiyə qədər hər hektardan 37 sot pambıq toplayıb və təhvil verdiyi bütün məhsulların pulu ödənilib. Bununla yanaşı, 16 hektar öz sahəsində və 6 hektar şərikli ərazidə yonca əkən fermer bildirdi ki, 12 ildir, eyni maşını icarəyə götürüb işlədir və ildə icarə haqqı olaraq dövlətə 5-6 min manat ödəyir. Yəni həm qazanır, həm də dövlətə xeyir verir.

Rayon icra hakimiyyəti yanında ictimai şuranın üzvü olan İlrahim kişi söhbətimizin sonunda dedi:

– Gənclərimizi düzgün tərbiyə etmək üçün vətənimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasında qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan igidlərimizin və dünyasını dəyişən kənd ağsaqqallarının xatirəsini əbədiləşdirmək üçün kənddə xatirə kompleksi tikmək fikrindəyik. Kəndimizin küçələrinə işıq çəkdirmişik. Kənd ərazisinin abadlığı göz oxşayır. Hava qaralandan səhərə qədər Əhmədabad kəndinin küçələri nura boyanır.

Kənd sakinləri ilə söhbətdən məlum oldu ki, qabaqcıl fermer və həmkarları öz vəsaitləri hesabına küçələrin işıqlandırılması ilə yanaşı, yaşıllıq zolaqlarının salınması üçün də əllərindən gələni edirlər. Əkilən yüzlərlə ağac və gül kolları yerli sakinlərin qulluğu hesabına kəndi gülçiçəyə, yaşıllağa bürüyüb.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***




# Şirvanda şahmat festivalı

**Son illərdə Azərbaycanın ayrı-ayrı şəhərləri mötəbər tədbirlərin keçirildiyi məkanlara çevrilib. Gəncə, Sumqayıt, Mingəçevir, Lənkəran, Şamaxı, Quba, eləcə də azad Xankəndi, Şuşa davamlı olaraq yaddaqalan beynəlxalq məclislərin, yarışların ünvanı olur. Ötən günlərdə ölkəmizdə keçirilmiş "Shirvan Open 2025" beynəlxalq şahmat festivalı da bu sıradandır.**

Şirvanda şahmata maraq güclüdür. Buradakı Şahmat Məktəbinin öz ənənələri var. Gənclərin intellektual bacarıqlarının inkişafına, sağlam rəqabət mühitinin formalaşmasına xidmət edir. Respublika birinciliklərində, Ulu öndərin xatirəsinə, 44 günlük Zəfər yürüşünə həsr olunan turnirlərdə, xaricdə keçirilən yarışlarda şirvanlı gənclər uğurlar qazanıblar.

Azərbaycan Şahmat Federasiyası, Gənclər və İdman Nazirliyi və Şirvan Olimpiya İdman Kompleksinin birgə təşkil etdikləri "Shirvan Open 2025" festivalına 9 ölkədən 250-yə yaxın gənc iti zəka sahibi qatılıb. Bir həftə davam edən festival noyabrın 26-da başa çatıb.

**Olimpiya İdman Kompleksinin direktoru Radin Tağıyev** bizimlə söhbətində yarışın təşkili, gedişatı və nəticələri barədə fikirlərini bölüşdü:

– Festival Şahmat Federasiyasının "Chess Tour Azerbaijan" layihəsi çərçivəsində şəhərimizdə ilk dəfə düzənlənmişdi. Açılış mərasimində Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənov çıxış edərək şahmatçılara uğurlar arzuladılar. Festivalda şahmatçılar 4 qrupda mübarizə apardılar.

Ümumi mükafat fondu 22 650 manat olan yarışlar İsveçrə sistemi üzrə 9 turdan ibarət olmaqla təşkil edilmişdi. Festival çərçivəsində, həmçinin rapid və blits yarışları keçirildi. İştirakçıların tərkibinə gəlincə, uşaqlar arasında dünya çempionları, qrossmeysterlər, 16 beynəlxalq usta da vardı. Qonaqlar Türkiyə, Çin, Hindistan, İran, Şri–Lanka, Özbəkistan və digər ölkələri təmsil edirdilər. Ölkəmizin şahmatçıları Xəzər Babazadə, Vüqar Rəsulov, şirvanlılar Yusif Qədirov, Emil Fətullayev və başqaları özlərini ən yaxşı cəhətdən göstərə bildilər.

Gərgin mübarizə şəraitində keçən festivalda ən güclülərin seçilməsi üçün lazımi şərait yaradılmışdı. Şəhərimizin qonaqları – Azərbaycanın təmsilçiləri və





xarici ölkələrin 90 nəfərə yaxın nümayəndə heyəti, o cümlədən 55 əcnəbi iştirakçı yetərincə sıx olan turnir cədvəlindən vaxt tapdıqca, öz istəklərinə uyğun dincəldilər və şəhərimizin görməli yerlərini gəzdilər. Yarışların yekununda isə qaliblər böyük pul mükafatları aldılar. Bir sözlə, festival şəhərimizin idman tarixinin gözəl bir səhifəsini təşkil etdi və bölgələrimizdə şahmatın daha geniş yayılmasına vəsilə oldu.

Layihənin sayca 8-ci və bu il üçün sonuncu festival həm də o mənada əhəmiyyət kəsb etdi ki, şahmatçılarımız zəruri beynəlxalq təcrübə topladılar və bu, onların gələcək karyeraları üçün böyük önəm daşıyacaq. Bir həftəlik yarışlar, beləcə, hər kəsdə xoş təəssürat yaratdı.

***Ə.ƏLİYEV***
***XQ***

*Unutsaq, unudularıq*

# “Bizim Əliş müəllim”

**Bu il iyulun 22-də milli mətbuatımızın 150 illik yubileyi geniş qeyd olunub. Bu əlamətdar hadisə ilə əlaqədar bir çox elm, təhsil ocaqlarında, ayrı-ayrı redaksiyalarda keçirilən toplantılarda milli jurnalistikamızın dünəni, bu günü və sabahı ilə bağlı geniş müzakirələr olub, dəyərli fikirlər səsləndirilib.**

Milli mətbuatımızın yubileyi ərəfəsində bir çox istedadlı, fədakar qələm sahibləri, haqqında yazılar dərc olunub, radio və televiziyalarda yayımlanan verilişlərdə adlı-sanlı qələm sahibləri xatırlanıb. KİV haqlı olaraq Bakı Dövlət Universitetində (BDU) onillər boyu “jurnalistlər ordusu” yetişdirən müəllimlərin də əməyini unutmayıb.

Təəssüf ki, bəzən yaddan çıxanlar da olub. Hesab edirəm ki, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində qəzetçilərin bir neçə nəslinə dərs demiş filologiya elmləri doktoru, professor Əliş Nəbili də haqqında ürəkdolusu söz açmağa layiq şəxsiyyətlərdəndir. Bu kiçik yazıda ona vəfa borcumu verməyə çalışacağam.



77 "Bizim alın yazımız"

Bizim Əliş müəllim

Çox sadə insan idi. Bu sadəlik onun davranışında, geyimində, insanlara münasibətində ilk baxışda duyulurdu. Başqa sözlə desək, Əliş müəllim olduğu kimi görünən adam idi. O, nə danışığında, nə gülüşündə, nə də hər hansı məsələyə münasibətində fərqlilik, saxtalıq etməzdi. Belə demək olarsa, Əliş müəllimin «Bizim Cəbiş müəllim» filminin baş qəhrəmanına oxşar cəhətləri çox idi.

Əliş Nəbili 20 Yanvar qazisi idi. O dəhşətli günlərdə Əliş müəllim bir ziyalı kimi çəkinmədən düşmənin insanlarımıza qarşı açdığı güllə yağışına qarşı durmuş və yaralanmışdı. Biz bu xəbəri eşitcək «Katçi bəlnisəsı»na, Əliş müəllimi görməyə axışmışdıq. Tələbə yoldaşımız Adil Qaçayoğlu isə işlədiyi «Azərbaycan gəncləri» qəzetində «Yalvarıram, tez sağalın, Əliş müəllim» sərlövhəli yazı yazmışdı.

Əliş müəllim, bizə əvvəlcə «Qəzet tərtibinin əsasları» fənnindən (bildiyim qədər bu fənn artıq keçilmir. Çünki indi tərtibat işi kompüter proqramları sayəsində bəlkə də min dəfə asanlaşıb. O zaman bu ağır və üzücü iş məsul katib və mətbəədəki səhifələyici tərəfindən icra edilirdi.) mühazirələr oxuyardı. Əliş müəllimin dediklərini şifahi öyrənmək hələ işin bir hissəsi idi. Əsas məsələ qəzet səhifəsinə gözəl tərtibat vermək üçün hər bir millimetri nəzərə almaq lazım gəlirdi... Təvazökarlıqdan uzaq olsa da, müəllimimizin dediklərini yaxşı mənimsəyən tələbələrdən biri mən idim. Elə buna görə iş həyatımda mən bir neçə qəzetin məsul katibi olmuşam. Sonra kompüter dizaynını öyrənib uşaqların sevimli qəzeti olan «Tumurcuq»u həm yazmış, həm də səhifələmişəm. Bu kitabın ilk variantını da özüm dizayn eləmişəm və bu bacarığıma görə rəhmətlik Əliş müəllimə borcluyam.

Ruhu şad olsun!

Səməd,
28 mart 2020-ci il.

Əliş Nəbili BDU-da bizə “Qəzet tərtibi” fənnindən dərs demişdi və bu fənn üzrə ilk əhatəli dərsliyin müəllifi özü olmuşdu. Müəllim adına hörmət gətirən çox ləyaqətli ziyalı idi! Müəllim yoldaşları, çox sayda tələbələri insani keyfiyyətlərinə görə istisnasız olaraq onu çox istəyirdilər. Elə bu günün özündə də Əliş müəllimdən söz açanda, demək olar ki, hamının ilk sözü bu olur:

– Bizim Əliş müəllimi deyirsən? O, çox saf, gözəl insan idi!

Bəli, hər birimizin dərin rəğbət bəslədiyimiz, düzgünlüyünə, səmimiyyətinə zərrə qədər şübhə etmədiyimiz bir şəxsiyyət idi hörmətli Əliş müəllim! Heç vaxt ədalətsizlik etməz, tələbələri incitməzdi. Ona görə ki, ideal şəkildə təmənnasız idi.

Tələbələrin onun fənnindən kəsilmək qorxusu yox idi. Amma Əliş müəllim var qüvvəsi ilə çalışırdı ki, “uşaqlar fənni yaxşı mənimsəsinlər”. İmtahanda tələbələrin cavablarını adətən azı bir bal yuxarı qiymətləndirərdi ki, təqaüd ala bilsinlər. Üstündən az qala yarım əsr keçəndən sonra sidq-ürəklə etiraf etmək istəyirəm ki, Əliş müəllimin imtahanında verdiyim cavaba görə mənə ən yaxşı halda “bir kök 4” düşürdü, amma əvvəlki imtahanlardan qiymətlərimin əla olduğunu nəzərə alıb məni əlaçılıqdan salmadı. Üstəlik, buna görə nə imtahan zamanı, nə də sonrakı illər ərzində bir dəfə də olsun minnət qoymadı.

...1977-ci ilin mart ayı idi. Məni artıq 1 il idi ki, BDU-nun Elmi Şurasının qərarı ilə təhsilimi davam etdirmək üçün Moskva Dövlət Universitetinə (MDU) göndərmişdilər. Universitetin “DAS” (tərcüməsi “Aspirantlar və Tələbələr Evi” mənasını verir - müəllif) adlanan 2 böyük korpusdan ibarət yataqxanasında qalırdım. Bir gün səhər fakültəyə gedərkən Əliş müəllimi yaxınlıqdakı trolleybus dayanacağında görəndə çox sevindim. Öyrəndim ki, sevimli müəllimim təzəcə MDU-ya 4 aylıq təcrübəyə gəlib. O da bəlli oldu ki, yataqxanada bir binada, lakin ayrı-ayrı mərtəbələrdə qalırıq.

...İllər keçdi, MDU-nu bitirəndən sonra “Bakinski raboçi” qəzetində çalışmağa başladım. Ara-sıra fakültəyə yolum düşəndə mütləq Əliş müəllimlə görüşüb hal-əhval tutardım. Məni çox mehriban qarşılayırdı. Artıq kafedra müdiri idi, amma vəzifə onu zərrə qədər dəyişməmişdi. Əvvəlki kimi çox saf və səmimi bir insan olaraq qalırdı. O, süni, qeyri-səmimi olmağı sadəcə bacarmırdı.

Əliş Nəbili 1990-cı ildə 20 Yanvar faciəsi zamanı sovet ordusunun Bakıda törətdiyi azğınlığına qarşı etiraz edənlərin ön sıralarında olmuşdu. Faciənin ertəsi günü sovet tanklarının birindən açılan atəşə tuş gələrək ağır yaralanmışdı. Yaxşı ki, professoru dərhal xəstəxanaya çatdıra bilmişdilər. Yadımdadır, bir neçə həftə “kolxozçu xəstəxanası”nda müalicə olundu. Jurnalistika fakültəsinin tələbələri “komendant saatı”nın sərt tələblərinə məhəl qoymadan xəstəxanaya axın edərək onu yoluxurdular. Mən də ona baş çəkmişdim. Gəlişimə sevinmişdi.

Fikrimcə, sevimli müəllimimizə sevgi və sədaqətini hamımızdan çox istedadlı jurnalist Adil Qaçayoğlu ifadə etmişdi. Belə ki, o, əməkdaşı olduğu “Azərbaycan gəncləri” qəzetində “Yalvarıram, tez sağalın, Əliş müəllim” sərlövhəli yazı dərc etdirmişdi. Rəhmətlik Adil yazıda hiss və duyğularını dilə gətirərək hamımızı çox kövrəltmişdi. Deyilənlərə görə, Əliş müəllim “kollektiv surətdə müraciətlərini nəzərə alaraq tez sağalacağını vəd etmişdi”. Unudulmaz müəllimimiz Əliş Nəbili 2003-cü ildə haqq dünyasına qovuşub.



Xatırladım ki, MDU-nun jurnalistika fakültəsi bu dünyaşöhrətli ali təhsil ocağının köhnə binasında, şəhərin mərkəzində yerləşirdi. Həmin səhər ikimiz də fakültəyə gedirdik. Trolleybusa mindik, salona daxil olan kimi, tez konduktora tərəf 1-2 addım atıb, özümün və Əliş müəllimin yol pulunu ödədim. O illərdə trolleybus bileti ya 4, ya da 5 qəpik idi. Əliş müəllim bu hərəkətimdən çox narazı qaldı, hətta bərk əsəbiləşdi. Düzü, bunu gözləmirdim. İlk dəfə idi ki, onun hirsləndiyini görürdüm. Tələsik cibindəki xırda pulları çıxarıb zorla paltomun cibinə tökdü. Üstəlik, məni məzəmmətləyərək dedi:

– Sən nə edirsən? Axı sən tələbəsən! Səndə pul haradandır? Bir də belə şeyləri eləmə! İnciyərəm səndən!

Necə deyərlər, matım-mutum qurudu. Hətta qayıdıb deyə bilmədim ki, siz mənə bir biletin pulunun əvəzinə az qala bir həftəlik yol pulu verdiniz. Baxışlarından hiss etdim ki, cibimə tökdüyü xırda pulları geri qaytarmağa cəhd etsəm, daha da əsəbiləşəcək.

Trolleybusda ayaq üstə bir qədər yol gedəndən sonra pərt olduğumu görüb könlümü almağa çalışdı. Bu, artıq nur simalı Əliş müəllim idi! O, mənə doğmalarım, əmim, dayım qədər qədər əziz insan idi. Yəqin ki, onun yerinə olsaydım, məhz mən də belə edərdim. Çünki Əliş müəllim kimi kişilərdən həyat dərsi almışdım. Sonralar “trolleybus əhvalatını”nı tələbə dostlarıma danışanda onlar buna zərrə qədər təəccüb etmədilər. Bircə onu dedilər ki, “Əliş müəllim kristal dərəcədə təmiz adamdır”.

Əliş müəllim Moskvada təcrübədə olduğu dönəmdə bir neçə dəfə məni otağına dəvət etmiş, dərslərim və dolanışığım ilə maraqlanmış, öyüd və nəsihətlərini vermişdi: “Sənə dərslərini yaxşı oxu demirəm, bilirəm ki, çalışqansan, amma özünü soyuqdan və bir də bu taksilərdən qoru!”.

Özümü nə üçün taksilərdən qorumalı olduğumun səbəbini bilirdim. Həmin ərəfədə Moskvada bir içkili taksi sürücüsü idarə etdiyi “Volqa” avtomobili bərk sürdüyündən səkidə dayanan iki günahsız tələbəni ağır yaralamışdı. O günlərdə bu hadisə barədə paytaxt qəzetləri tez-tez yazır, sürücünü ciddi cəzalandırmağı tələb edirdilər.

Yəqin ki, bu hadisə haqqında qəzetlərdən məlumat alan Əliş müəllim oradakı azərbaycanlı tələbələrə görə çox narahat olmuşdu. Mən də, jurnalistika fakültəsində məndən bir kurs yuxarıda oxuyan Ramiz Əskər (BDU-nun professoru olmuşdur - müəllif) də ona söz vermişdik ki, özümüzü taksi və avtobuslardan qoruyacaq və hər dəfə küçəni keçəndə ehtiyatlı olacağıq. Yalnız dilimizdən bu vədləri eşidəndən sonra ürəyi sakitləşmişdi Əliş müəllimin!

Moskvada hiss edirdim ki, Əliş müəllim doğma Bakı, ailəsi, övladları, eləcə də müəllim yoldaşları üçün çox darıxır. Tez-tez fakültədəki müəllim həmkarlarından söz açar, hər biri barədə xoş sözlər söyləyərdi. Belə anlarda simasında xoş bir təbəssüm yaranardı. Mən onun dilindən heç vaxt giley-güzar, qeybət eşitmədim. Paxıllıq, qısqanclıq hissi Əliş müəllimə tamamilə yad idi.

**BDU-nun jurnalistika fakültəsində uzun illər “Cümhuriyyət dövrünün mətbuatı”ndan dərs demiş, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent Məmmədismayıl Mehdiyev** Əliş müəllim haqqında yazmağa hazırlaşdığımı biləndə telefonda bunları dedi:

– Əliş Nəbili yüksək mənəviyyat adamı idi. Bu gözəl insandan yazmaq təkcə vəfa borcu deyil, həm də çox savab işdir. Belə insanların sayı, təəssüf ki, ilbəil azalır.

**Azərbaycan Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin sədri, Əməkdar jurnalist Tahir Aydınoğlunun** fikirləri də Əliş müəllimin portret cizgilərini dolğun təsvir etmək üçün çox yerinə düşdü. Tahir müəllim söylədi ki, professor Əliş Nəbili fakültə partiya təşkilatının katibi olduğu dövrdə bir neçə imkanlı ailənin övladları üçün “yuxarılar”ın israrlı xahiş və təzyiqlərinə məhəl qoymadan Ağdamın ucqar bir kəndində sürücü işləyən sadə bir insanın oğlunu partiya sıralarına daxil olunmasına kömək etmişdi.

Bəli, Əliş müəllim vəzifədə qalmaq naminə yuxarılar qarşısında əyilənlərdən deyildi. O, yüksək mənəviyyat adamı idi və yalnız haqqa, ədalətə tapınırdı.

Tahir Aydınoğlu sevimli müəllimi barədə saatlarla, nəfəs dərmədən danışmağa hazır idi. Müəllimi barədə düşüncələrini bu sözlərlə bitirdi: “Əliş müəllimə Allah rəhmət eləsin, mən o kişiyə çox borcluyam. O, həyatda tanıdığım ən təmiz, vicdanlı ziyalılardan biridir!”.

**Tanınmış yazıçı-publisist Səməd Məlikzadə illər öncə Əliş müəllimdən bəhs edən bir yazısını bu sözlərlə başlayıb:** “Çox sadə insan idi. Bu sadəlik ilk baxışda onun davranışında, geyimində, insanlara münasibətində duyulurdu. Başqa sözlə desək, Əliş müəllim olduğu kimi görünən adam idi. O, nə danışığında, nə gülüşündə, nə də hər hansı məsələyə münasibətində fərqlilik, saxtalıq etməzdi. Belə demək olarsa, Əliş müəllimin “Bizim Cəbiş müəllim” filminin baş qəhrəmanına oxşar cəhətləri çox idi!”.

Düşünürəm ki, həyatda Əliş Nəbili kimi gözəl, əvəzsiz bir pedaqoqun tələbəsi olmaq, onun məruzələrini dinləmək, söhbətlərini eşitmək, bu dəyərli ziyalının qəlbinin saf və geniş olduğunu müşahidə etmək, bundan fəxarət duymaq, həqiqətən, böyük bir şansdır. Əziz Əliş müəllim, ruhun şad olsun, biz sizi heç vaxt unutmayacağıq!

***Məsaim ABDULLAYEV***
***XQ***

*Birinci Türkoloji Qurultay – 100*

# İrəvan heyəti tarixi Bakı məclisində

**Bakı Türkoloji Qurultayın nümayəndələri arasında o dövrün müxtəlif elmi və ictimai dairələrini təmsil edən tədqiqatçılar yer almışdı. Diqqətçəkən məqam isə iştirakçılar arasında Ermənistandan iki nümayəndənin – Azərbaycan türkü, dövlət xadimi və maarifçi Bala Əfəndiyev və məşhur erməni dilçisi, akademik Raçiya Açaryanın olması idi.**

Bu 2 şəxs sovet dövrünün mürəkkəb siyasi mənzərəsində tamamilə fərqli talelər yaşadılar.

Bala Əfəndiyev Azərbaycan maarif tarixində özünəməxsus yeri olan ziyalı idi. O, sovet modernləşmə siyasəti çərçivəsində maarifin milliləşdirilməsi, məktəb sisteminin yenilənməsi və türk dillərinin tədrisində vahid elmi standartların yaradılması kimi məsələlərdə fəal iştirak etdi. Lakin 1930-cu illərin siyasi repressiyaları bu görkəmli ziyalını da “xalq düşməni” damğası ilə sovet totalitar maşınının qurbanına çevirdi, 1938-ci ildə güllələndi.

Raçiya Açaryanın taleyi tam fərqli oldu. Erməni dilçiliyinin klassik simalarından sayılan Açaryan həm də türkologiya, etimologiya və Qafqaz dilləri üzrə ciddi elmi araşdırmaları ilə yadda qala bildi. Taleyin qismətindənmi, ya nədənsə ağır repressiya cəzasına məruz qalmasa da, onun Qurultaydakı məruzəsi – dil materiallarına əsaslanan obyektiv yanaşması erməni millətçi ideologiyasının sonrakı dövrlərdə irəli sürdüyü saxta dil və etnogenez iddiaları ilə ziddiyyət təşkil etdi və regiondakı dillərin tarixi inkişafına dair elmi, sənədli və sübutlu yanaşmanın parlaq nümunələrindən oldu.

## Qərbi Azərbaycan ziyalısı Bala Əfəndiyev



Bala İbrahim oğlu Əfəndiyev Azərbaycan, eləcə də Qərbi Azərbaycan ictimai-siyasi və mədəni mühitində mühüm rol oynamış ziyalı, dövlət xadimi və maarifçi kimi tanınır. Bütün həyatını Azərbaycanda və Zaqafqaziyada sovet hakimiyyətinin qurulması və möhkəmlənməsi, sosializmin qələbəsi işinə həsr etmiş Bala Əfəndiyev 1920–1930-cu illərdə sovet məkanında aparılan əlifba islahatları kontekstində yeni latın qrafikasının tətbiqinə rəhbərlik edən əsas şəxsiyyətlərdən biri kimi yadda qalmışdır.

Bala Əfəndiyev 1893-cü ildə Qazax qəzasının Çaykənd kəndində (indiki Ermənistan Respublikasının Krasnoselski rayonu) ruhani ailəsində dünyaya gəlmişdir. Babası Hacı Alı Əfəndi savadlı din xadimi, kəndin ruhanisi olmuş, Əfəndilər nəsli Qaraqoyunlu dərəsində tanınmış, nüfuzlu və imkanlı ailələrdən sayılmışdır. Bala dünyaya gəlməzdən əvvəl atası İbrahim Əfəndi vəfat etdiyindən onun tərbiyəsi əmisi molla Məhəmməd Əfəndinin və atalığı Hacı Əhməd Əfəndinin himayəsində davam etmişdir. Erkən yaşlarından elmə maraq göstərən Bala əvvəlcə kənd mollaxanasında təhsil almış, daha sonra 1907-ci ildə Qazaxda yeni açılmış rus məktəbinə daxil olmuş, 1912-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

1913-cü ildə Bakıya gələn Əfəndiyev fəhlə hərəkatına qoşulmuş, qısa müddət ərzində fəal işçi liderinə çevrilmişdir. O, “Hacı Əli” təxəllüsü ilə tanınırdı. 1917-ci ilin mayında müsəlman kommunistlərinin “Hümmət” təşkilatına qəbul olunmuş, daha sonra Bakı Sovetinin və İcraiyyə Komitəsinin üzvü seçilmişdir. Bolşevik ideologiyasına sadiq qalan Əfəndiyev 1920-ci illərdən etibarən Qafqazda sovet hakimiyyətinin bərqərar olması ilə əlaqədar mühüm vəzifələrdə çalışmışdır.



**Bala Əfəndiyev İrəvan Azərbaycanlı Qadınlar Klubunun üzvləri ilə, İrəvan, 1923 aprel**

1922–1929-cu illərdə Bala Əfəndiyev Ermənistan SSR-də siyasi və inzibati sahədə mühüm postlar tutmuşdu. O, bu dövrdə Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Ermənistan Mərkəzi İcraiyyə Komitəsinin üzvü, respublika Daxili İşlər Komissarının müavini, Mərkəzi Komitənin Azsaylı xalqlar şöbəsinin müdiri, həmçinin Ermənistanın ictimai təminat naziri kimi fəaliyyət göstərmişdir. Bu vəzifələrdə işlədiyi illərdə o, İrəvanda yaşayan azərbaycanlıların sosial, mədəni və maarif problemlərinin həlli istiqamətində ciddi addımlar atmış, Qərbi Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etmişdir. AMEA-nın müxbir üzvü Misir Mərdanovun qeyd etdiyi kimi, Bala Əfəndiyev bu illərdə İrəvan azərbaycanlılarının “mənəvi atası” kimi tanınırdı.

Əfəndiyevin ən mühüm xidmətlərindən biri İrəvanda Azərbaycan dilində mətbuatın inkişafı olmuşdur. Onun təşəbbüsü və rəhbərliyi ilə “Rəncbər” və “Zəngi” qəzetləri nəşr edilmiş, hər iki nəşr Qərbi Azərbaycan türkləri arasında maarifçilik ideyalarının yayılmasına xidmət göstərmişdir. Xüsusilə “Zəngi” qəzetini tamamilə latın qrafikasında nəşr etdirmək üçün Bala Əfəndiyev Bakıda Səmədağa Ağamalıoğlunun və digər ziyalıların köməyi ilə 15 pudluq latın şriftli çap dəzgahı əldə etmiş və İrəvana gətirmişdi. Bu fakt onun yeni əlifbanın tətbiqi uğrunda apardığı mübarizənin miqyasını və qətiyyətini aydın göstərir.

Bununla yanaşı, o, İrəvanda Azərbaycan (türk) Pedaqoji Texnikumunun yaradılmasına nail olmuşdur. Bu tədris müəssisəsi Ermənistan SSR-dəki Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanmasında mühüm rol oynamışdır. Bala Əfəndiyev, eyni zamanda, İrəvan Azərbaycan Dram Teatrının fəaliyyətinin bərpasına da böyük töhfə vermiş, teatrın repertuarının formalaşmasında və səhnə fəaliyyətində birbaşa iştirak etmişdir. Zərurət yarandıqda özü və həyat yoldaşı Fatma Əfəndiyeva da səhnədə çıxış etmişlər.

Qərbi Azərbaycanda yeni türk əlifbasının tətbiqi hərəkatına rəhbərlik edən Bala Əfəndiyev 1920-ci illərin sonlarında bölgədə geniş təbliğat və maarifçilik kampaniyası aparmışdır. O, rayonlarda iclaslar, savad kursları təşkil etmiş, yeni əlifba ilə yazı dərsləri keçmiş, bu ideyanın əhəmiyyətini izah edən məruzələrlə çıxış etmişdir. Onun fəaliyyəti nəticəsində İrəvan və ətraf bölgələrdə Azərbaycan məktəbləri latın qrafikasına keçməyə başlamışdır.

1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayda Bala Əfəndiyev Ermənistan nümayəndə heyətinin rəhbəri kimi iştirak etmişdir. Qurultayın 15-ci iclasında o, İrəvandakı Azərbaycan məktəblərində yeni əlifba ilə ana dili tədrisinin vəziyyəti haqqında məruzə etmiş və bu məsələ üzrə qərar layihəsini hazırlayan komissiyaya daxil edilmişdir. Bu çıxışı ilə Əfəndiyev yeni türk əlifbasının təkcə dil deyil, həm də mədəni inteqrasiya vasitəsi olduğunu vurğulamışdır.

1929-cu ildən sonra Bala Əfəndiyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində məsul vəzifəyə dəvət edilmiş, üç il ərzində MK-nın Mərkəzi Nəzarət Komissiyasının katibi vəzifəsində, daha sonra isə Sabirabad, Lənkəran və Zaqatala rayonlarında rəhbər partiya və sovet orqanlarında çalışmışdır.

Lakin 1937–1938-ci illərin repressiyaları onun da həyatını faciəvi şəkildə yarımçıq qoydu. Azərbaycan DTK-sında çalışan erməni müstəntiqlər tərəfindən “pantürkist” və “əks–inqilabçı” kimi ittiham olunan Bala Əfəndiyev 1937-ci ilin avqustunda həbs edilmiş, 1938-ci il yanvarın 8-də güllələnmişdir. Həbsindən az əvvəl onun Azərbaycan SSR-in yüngül sənaye naziri vəzifəsinə təyin edildiyi bildirilir. Onun güllələnməsindən sonra həyat yoldaşı Fatma Əfəndiyeva da 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Hər iki şəxs yalnız 1955-ci ildə tam bəraət almışdır.

## Erməni dilçisi Açaryan



Erməni dilçi, filoloq, etimoloq və akademik Açaryan XX əsrin birinci yarısında erməni dilçiliyinin əsas istiqamətlərini formalaşdıran və Qafqaz regionunda müqayisəli dilçilik ənənələrinin inkişafına mühüm töhfə verən alimlərdən olmuşdur. Açaryanın adı, xüsusilə etimologiya, dialektologiya və türkoloji tədqiqatlarla bağlı araşdırmalarda çəkilir. I Türkoloji Qurultaya Ermənistandan gələn 2 nümayəndədən biri olmuşdur.

Adı bir sıra mənbələrdə Ruben Yervand Açaryan (1876–1953) kimi təqdim olunur və bildirilir ki, I Türkoloji Qurultayda "Türk və erməni dillərinin qarşılıqlı təsiri" adlı məruzə ilə çıxış edib. Amma Türkiyə və Azərbaycan tədqiqatçılarının təqdim etdikləri Açaryan soyadını daşıyan alim akademik Hraçiya Hakopoviç Açaryan kimi, I Türkoloji Qurultay iştirakçılarının siyahısında isə Raçiya Yakovleviç Açaryan kimi göstərilir.

Açaryan 1876-cı ildə İstanbulun Samatya məhəlləsində anadan olub. Erməni liseyini başa vurduqdan sonra Sorbonna və Strasburq universitetlərində ali təhsil alıb. Sonrakı illərdə Təbriz, Tehran və Qafqazın müxtəlif şəhərlərində erməni dili müəllimi kimi fəaliyyət göstərib. 1923-cü ildən ömrünün sonuna qədər İrəvan Dövlət Universitetində dərs deyib və burada erməni dili və mədəniyyəti üzrə mühüm elmi tədqiqatlar aparıb.

Bu faktları xatırlatdıqdan sonra hər iki mənbədə doğum və ölüm tarixi eyni göstərilən (1876 və 1953-cü illər) Açaryanın ad və ata adı kimliyinin yox, onun qurultaydakı çıxışı üzərində dayanmağı daha vacib hesab etdik.

I Türkoloji Qurultaya qatılan erməni dilçisi “Türk və erməni dillərinin qarşılıqlı təsiri” mövzusundakı məruzəsində türk dilinin erməni dilinə çoxşaxəli təsirini elmi əsaslarla ortaya qoymuşdur. O, bu təsirin yalnız leksik səviyyə ilə məhdudlaşmadığını, həmçinin fonetik, morfoloji və sintaktik sahələrdə də özünü göstərdiyini vurğulamışdır. Məruzədə qeyd olunurdu ki, türkcədən erməniyə keçən minlərlə söz və ifadə formaları, danışıq dili səviyyəsində baş verən səs dəyişiklikləri və qrammatik konstruksiyalarda müşahidə edilən paralellər bu qarşılıqlı təsirin miqyasını aydın şəkildə nümayiş etdirir.

Alim, eyni zamanda, qədim erməni dili – qrabardan, yeni erməni dili – aşqarabara keçid prosesini də məhz bu təsirlə bağlı olduğunu bildirmişdir. Onun fikrincə, orta əsrlərdən etibarən Anadolu və Cənubi Qafqaz bölgəsində türklərin siyasi, sosial və mədəni üstün mövqeyi nəticəsində erməni xalqının gündəlik ünsiyyət mühitində türkcə elementlər üstünlük qazanmış, bu isə zamanla erməni dilinin strukturuna daxil olaraq dilin təbii təkamülünə yön vermişdir.

Tədqiqatçı bu prosesləri elmi faktlarla əsaslandırmış, hər iki dil arasında qarşılıqlı təsirin tarixi, coğrafi və sosiolinqvistik səbəblərini geniş şəkildə izah etmişdir. Onun bu yanaşması, subyektiv və millətçi iddialardan uzaq, sırf elmi faktlara söykəndiyi üçün bu gün də erməni millətçi dairələrinin “erməni dilinin təmizliyinə” və ya “türkcədən asılı olmamasına” dair iddialarını ifşa edən mühüm elmi sübut kimi dəyərləndirilir.

Açaryanın Türkoloji Qurultaydakı “Türk və erməni dillərinin qarşılıqlı təsiri” adlı məruzəsi təkcə linqvistik araşdırma deyil, həm də türk dilinin bölgədəki çoxəsrlik mədəni təsir gücünü göstərən tarixi gerçəklikləri elmi səviyyədə təsdiqləyir. Obyektiv elmi yanaşması ilə seçilən məruzə bu gün də erməni millətçi ideologiyasının saxta dil iddialarına qarşı güclü elmi dəlildir.

Türkiyənin Kayseri şəhərindəki Ərciyəs Universitetinin professoru, ermənişünas alim Qafar Çaxmaqlı bildirir ki, türkologiya ilə bağlı elmi toplantılarda türkcədən erməniyə və erməncədən türkcəyə keçən sözlər mövzusunda çoxsaylı müzakirələr aparılmış, bu, türk dilinin öyrənilməsinə mühüm töhfələr verilmişdir. Erməni alim Açaryan Türkoloji Qurultaydakı məruzəsində türkcədən erməniyə 4 mindən çox sözün keçdiyini bildirmişdir.

1902-ci ildə Moskvada Lazaryev İnstitutu tərəfindən onun “Türk dilindən erməniyə keçmiş sözlər, İstanbul erməni xalq danışıq dili ilə Van, Qarabağ və Yeni Naxçıvan dialektləri ilə müqayisədə” adlı əsəri (1902) nəşr olunmuşdur. Sözügedən kitabda, eləcə də alimin dördcildlik “Erməni dilinin etimoloji lüğəti” (1926–1935) adlı monumental əsərində türkcədən erməniyə keçmiş sözlər haqqında ətraflı məlumat verilmiş və bu leksik əlaqələr elmi cəhətdən sistemləşdirilmişdir.

Açaryanın qurultaydakı məruzəsi həm sovet dövrü elm mərkəzlərində, həm də sonrakı illərdə tədqiqatçılar tərəfindən maraqla qarşılanmışdır. Onun tolerant və elmi əsaslı yanaşması türk və erməni dilləri arasında əlaqələrin qarşıdurma yox, qarşılıqlı təsir və mədəni sintez kimi qiymətləndirilməsinə şərait yaratmışdı.

Açaryan 1953-cü ildə vəfat etmişdir. Onun elmi irsi bu gün də dilçiliyin dəyərli səhifələrindən biri kimi qalmaqdadır. O, I Türkoloji Qurultayda iştirakı ilə Qafqaz elmi mühitini beynəlxalq miqyasda təmsil edən ziyalılardan biri olmuşdur.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Avropa azərbaycanlıları Vətəndə

**Bakıda Avro-Atlantik Azərbaycanlılar Tərəfdaşlıq Şurasının yığıncağı keçirildi. Məclisdə Avropada yaşayan Azərbaycan Diaspor Təşkilatının nümayəndələri, ölkəmizin qeyri-hökumət təşkilatı rəhbərləri və media təmsilçiləri iştirak edirdilər. Görüş Zəfərimizin 5 illik yubiley ilində Azərbaycanın səsini Avro-Atlantik məkanında ucaldan Beynəlxalq Tərəfdaşlıq Platformasının fəaliyyətinə həsr olunmuşdu.**

Avro-Atlantik Azərbaycanlılar Tərəfdaşlıq Şurasının baş katibi Sahil Qasımov giriş nitqində qeyd etdi ki, 25 fevral 2024-cü il tarixində Azərbaycan Respublikasının Belçika Krallığında və Lüksemburq Böyük Hersoqluğundakı səfirliyinin və Avropa İttifaqı yanında Nümayəndəliyində təsis edilən Avro-Atlantik Azərbaycanlılar Tərəfdaşlıq Şurası (EAPCA) son dövrlərdə BMT, Avropa Parlamenti, UNESCO, ATƏT-in Varşava ofisi, Cenevrə və digər Avropa ölkələrinin parlamentləri ilə sıx əməkdaşlıq edir. EAPCA – Avro-Atlantik coğrafiyasında fəaliyyət göstərən transmilli lobbiçilik və tərəfdaşlıq platformasıdır.

**EAPCA-nın baş katibi Sahil Qasımov bildirdi ki, Azərbaycanın haqq səsini bütün dünyaya bəyan edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin beynəlxalq mediaya verdiyi müsahiblər hər zaman bizim dayağımız olub:**

– Biz güclü liderimizə güvənərək Avropada Azərbaycanın mənafeyini müdafiə edirik. Avropada yaşayan və işləyən azərbaycanlıların üzərinə çox böyük lobbiçilik məsuliyyəti düşür. Tək Niderland kimi bir ölkədə 12 erməni kilsəsi lobbi təşkilatları tərəfindən yüksək səviyyədə maliyyələşdirilərək Azərbaycan əleyhinə təbliğatlarını genişləndirməkdə davam edirlər. İnanın ki, BMT və UNESCO tribunalarından etiraz çıxışlarıma baxmayaraq, Niderland Senatı dəfələrlə Azərbaycana qarşı qərəzli mövqelərini nümayiş etdiriblər. İş o yerə çatdı ki, mən humanizm prinsiplərini nəzərə alaraq Niderland kralına məktub yazdım və bildirdim ki, bir kral kimi ədalət naminə qərar versin. Qısa vaxtdan sonra krallıqdan məktubuma cavab aldım. Sənəddə qeyd olunurdu ki, kral özü şəxsən bu mühüm məsələ ilə məşğul olacaq.

Sosial-strateji Tədqiqatlar və Analitik



Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli, "Report İnformasiya Agentliyi" MMC-nin direktoru Fuad Hüseynəliyev, Əməkdar jurnalistlər Azər Həsrət, Rauf Arifoğlu və başqaları çıxış edərək bildirdilər ki, bu gün bütün dünyada Azərbay-



canın Zəfərini, reallıqları qəbul etməyən erməni havadarlarına cavab vermək üçün mətbuatımızın üzərinə çox böyük məsuliyyət düşür.

Sonda Sahil Qasımov media nümayəndələrini mükafatlarla təltif etdi və jurnalistlərə EAPCA-ya dəstək olduqlarına görə təşəkkürünü bildirdi. Xatirə fotoları çəkildi.

**Beynəlxalq Diaspor Təşkilatının sədri İsmayıl Ağayev:**

– Bu il biz Avropanın bir çox ölkələrində, xüsusilə, Çexiya, Macarıstan və Avstriyada Azərbaycan həqiqətlərini geniş ictimaiyyətə çatdırmaq üçün tədbirlər keçirmişik. Zəngəzur Dəhlizinin beynəlxalq müstəvidə bəşəriyyətə sülh, əmin-amanlıq gətirməsi naminə görülən dövlət tədbirlərinin əhəmiyyətindən bəhs etmişik. Qərbi Azərbaycana Qayıdış konsepsiyası ilə bağlı da qarşıda duran hədəflərdən söhbət açmışıq. Günlərlə Avropa mediasında Azərbaycan həqiqətlərinin nəşr olunmasına çalışmışıq və buna nail olmuşuq. Çünki dünya gördü ki, Azərbaycan 44 gündə dövləti, xalqı və ordusu ilə birgə işğal altında qalan torpaqlarını xilas etdi. Hara gediriksə, tarixi qələbəmizin köklərini təfsilatı ilə geniş ictimaiyyətə, xüsusilə tərəqqipərvər ziyalılara çatdırırıq. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Mən həmin günü dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılarının birlik günü kimi bayram edirəm: O gün birliyimiz, Qələbəmizin və Zəfərimizin təntənəsidir.

*Kəmalə ABDİNOVA,*
*Fidan SALMANOVA*
*XQ*

# Seyid Əzim Şirvani və Azərbaycan maarifçiliyi



**Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Etnologiya İnstitutunda XIX əsr Azərbaycan maarifçilik hərəkatının görkəmli nümayəndəsi Seyid Əzim Şirvaninin 190 illik yubileyinə həsr olunmuş "Seyid Əzim Şirvaninin Azərbaycan maarifçiliyində rolu" mövzusunda dəyirmi masa keçirilib.**

İnstitutun elmi işlər üzrə direktor müavini tarix elmləri doktoru, dosent İlqar Niftəliyev Seyid Əzim Şirvaninin 190 illiyinin qeyd edilməsi haqqında Prezident sərəncamında böyük maarifçi şairin öz xalqı qarşısında xidmətlərinə verilən yüksək dəyəri xatırladaraq bildirib ki, Seyid Əzim Şirvani yaradıcılığı boyu həm Şərq poeziyasının çoxəsrlik ənənələrini yüksək sənətkarlıqla davam etdirmiş, həm də mühüm ictimai-siyasi dəyişikliklərin baş verdiyi bir şəraitdə Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Şair sosial-mədəni tərəqqisi uğrunda qabaqcıl ziyalıların apardığı mübarizənin daim ön sıralarında olmuşdur.

Seyid Əzim Şirvaninin yaradıcılığı Azərbaycanın ədəbi-mədəni inkişafında xüsusi mərhələ təşkil edir, onun maarifçilik ideyaları bu gün də aktuallığını qoruyub saxlayır. Bu gün biz elm və tərəqqi aşiqi olan bu insan təkcə klassik poeziyada yeniləşmə cərəyanının təşəbbüskarı deyil, həm də cəmiyyətin intellektual yüksəlişinə çalışan maarifçi ziyalı kimi tanıyır və sevirik.

Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi şöbəsinin müdiri professor Hacı Həsənov "S.Ə.Şirvani və dövrün ictimai-siyasi prosesləri", aparıcı elmi işçilərdən dosent Zəfər Kərimov "S.Ə.Şirvaninin həyat və fəaliyyəti haqqında" və dosent Ramil Niftəliyev "S.Ə.Şirvaninin yaradıcılığı və müridizm" mövzularında məruzələrlə çıxış ediblər. Məruzəçilər böyük maarifçinin ədəbi-bədii irsinin ideya istiqamətləri, şeirlərindəki fəlsəfi-ictimai məzmun, eləcə də onun pedaqoji fəaliyyəti barədə ətraflı məlumat veriblər, bu zəngin irsin tarixi önəmini vurğulayıblar.

Çıxış edənlər Seyid Əzim Şirvaninin Azərbaycan maarifçilik ənənələrinin formalaşmasına verdiyi töhfələrdən söz açıblar, onun dövrün köhnəlmiş düşüncə tərzinə tənqidi yanaşmasının milli oyanışda önəmini qeyd ediblər.

Müzakirələrdə maarifçi klassikin elmi-pedaqoji baxışlarının müasir təhsil fəlsəfəsi ilə səsləşən tərəflərinə, maarifçi poeziyanın gənc nəsillərin dünyagörüşünə göstərdiyi məfkurəvi təsirə də diqqət yetirilib.

Dəyirmi masada Seyid Əzim Şirvaninin həyat və yaradıcılığının daha dərindən araşdırılması, onun maarifçilik irsinin yeni nəsillərə daha geniş tanıdılması ilə bağlı təkliflər səslənib.

*T.RÜSTƏMLİ*
*XQ*

*Beynəlxalq həyat*

# Fransa parlamentində pensiya qalmaqalı



**Fransada pensiya islahatı ilə bağlı mübahisələr yenidən qızışıb. Noyabrın 26-da Senat Milli Assambleya tərəfindən ləğv edilmiş pensiya islahatını büdcə sənədinə qaytardı. Bu addım hökumətin 2 palata arasında kompromis tapmaq ümidlərini, demək olar ki, puç etdi.**

Söhbət 2026-cı il üçün sosial sığorta qanununa edilən dəyişikliklərdən gedir. Assambleya islahatın 2027-ci il prezident seçkilərindən sonrayadək dayandırılmasını təklif etmişdi. Lakin Senat bunun əleyhinə çıxaraq, islahatı mövcud formada saxlamağa səs verdi – 190 senator lehinə, 108-i isə əleyhinə.

Senat bununla 2023-cü ildə qəbul edilən pensiya dəyişikliklərini, əsasən də pensiya yaşının 64-ə qaldırılmasını dəstəklədiyini göstərdi. Bu qərar hökumətin sosialistlərlə kompromis yaratmaq cəhdini də nəticəsiz qoydu. Bununla da Assambleyanın islahatı "dondurmaq" barədə qərarı aradan qalxmış oldu.

Senatorlar bildirirlər ki, qərarı şəxsi maraqlara görə deyil, gələcək nəsillərin pensiya sisteminin sabitliyi üçün veriblər. 2023-cü ildən sonra Senatın yaşı da cavanlaşıb - orta yaş 60-dır. İndi qərar Milli Assambleyanın öhdəsinə düşür. Yeddi senator və yeddi deputatdan ibarət birgə komissiya iki mövqeni uzlaşdırmağa çalışacaq, lakin bunun mümkün olacağına inam azdır. Həm sağçı, həm də solçu qüvvələr mövqelərindən geri çəkilmək istəmirlər.

Əgər komissiya razılığa gələ bilməsə, mətn yenidən Assambleyaya qayıdacaq. Hökumət sosialistlərin və bəlkə də yaşılların neytrallığına ümid edir. Lakin vaxt azdır və tərəflər arasında fikir ayrılığı dərinləşir. Assambleya sol-mərkəz variantını qəbul etsə, sənəd yenidən Senata gedəcək və sağçılar onu yenidən rədd edəcəklərini bildiriblər. Bu halda son söz Assambleyanın olacaq və islahat çox siyasi atmosferdə səsvermə çıxarılacaq.

Bir çox müşahidəçilər hesab edirlər ki, nə komissiya, nə də parlament razılaşmağa vaxt tapacaq. O zaman hökumət yanvarda müvəqqəti büdcə qəbul etməli olacaq və pensiya müzakirələri yenidən başlayacaq.

Beləliklə, islahat qəbul olunandan iki ildən çox vaxt keçməsinə baxmayaraq, Fransa yenidən eyni mübahisələrin içindədir. Senat islahatı büdcəyə qaytardı, lakin bu, prosesin taleyini daha da qeyri-müəyyən etdi. Senat və Assambleya arasındakı qarşıdurma parlamentin işləmə qabiliyyəti üçün növbəti ciddi sınağa çevrilir və görünür bu proses hələ uzun müddət davam edəcək.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

# Ədəbiyyat Muzeyində açıq dərs



**Azərbaycan Kooperasiya Universitetinin marketinq və menecment fakültəsinin II kurs tələbələri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyini ziyarət ediblər. "Muzey, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə təhsil alan tələbələrə muzeydə açıq dərs keçirilib.**

Muzeyin şöbə müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülsəba Həsənova "Azərbaycan ədəbiyyatının təsviri incəsənət əsərlərində təqdimi" mövzusunda tələbələrə məruzə edib. Universitetdə Təsviri incəsənət tarixi fənnini tədris edən şöbə müdiri əxlaqi-tərbiyəvi, estetik hisslərin inkişafında mühüm rol oynayan muzey eksponatlarından əsas yeri incəsənət əsərləri tutur. Azərbaycan ədəbiyyatı və mədəniyyətinin muzey ekspozisiyasındakı təsviri sənət əsərləri vasitəsilə təqdimi muzey mühiti ilə yaradıcı idrak, tədris prosesi arasında əlaqənin inkişafına təkan verir.

Daha sonra muzeyin Beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin böyük elmi işçi, filologiya üzrə fəlsəfə doktoru Gülnar Əqiq tələbələrə həm Azərbaycan ədəbiyyatının müxtəlif mərhələləri, həm də incəsənət əsərləri haqqında ətraflı məlumat verib. Ziyarətçilər nadir eksponatlar, əlyazma nüsxələri, miniatür nümunələri və müxtəlif dövrlərə aid ədəbi irsi əks etdirən materiallarla, təsviri sənət nümunələri və onların tarixi ilə daha yaxından tanış olublar.

Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov Azərbaycan muzeyşünaslığının çoxillik ənənələrindən danışıb, tələbələrə tövsiyələrini verib.

*Qabil YUSİFOĞLU*
*XQ*

# ABŞ Arktikada donanmasını gücləndirir

**ABŞ Çinin aktivliyi fonunda Arktikadakı mövcudluğunu möhkəmləndirmək üçün öz buzqıran donanmasını genişləndirməyə hazırlaşır. Bu, ölkənin Daxili Təhlükəsizlik Nazirliyinin planında əksini tapıb.**

ABŞ Prezidenti Donald Trampın müdafiə xərclərinin artırılmasını nəzərdə tutan qanun layihəsi "yeni buzqıranların sürətlə əldə olunması üçün 8,5 milyard dollar məbləğində tarixi maliyyələşdirmə" ayırır, – sənəddə bildirilir. Həmçinin qeyd olunur ki, "2025-ci ildə ABŞ-ın Arktik sularında Çin hərbi və tədqiqat gəmilərinin rekord sayda fəaliyyəti müşahidə edilib" və Çinin buzqıran donanmasını genişləndirməsi "ABŞ-ın dəniz suverenliyi üçün potensial çağırışlar yaradır".

Plana əsasən, ABŞ Sahil Mühafizəsi (USCG) 25 il ərzində ilk dəfə yeni "Storis" buzqıranını istismara verib. Lakin vurğulanır ki, USCG ölkənin Arktikadakı maraqlarını effektiv qorumaq üçün daha müasir



gəmilərə ehtiyac duyur. "Arktika və qütb regionları ABŞ-ın milli təhlükəsizliyi, iqtisadi inkişafı və qlobal liderliyi üçün getdikcə daha vacib olur, xüsusilə də digər dövlətlərin bu bölgələrdə genişlənən mövcudluğu fonunda", – ABŞ-ın daxili təhlükəsizlik nazirinin müavini Robert Lou bildirib.

Bundan əvvəl daxili təhlükəsizlik naziri Kristi Noem qeyd etmişdi ki, "rəqiblər" Arktikanı nəzarətə götürməyə can atırlar və Vaşinqton belə bir ssenariyə imkan verməyəcək.

Xatırladaq ki, oktyabr ayında Tramp Finlandiyadan 11 buzqıran almaq planlarını açıqlamışdı. "Storis"dən başqa ABŞ Sahil Mühafizəsinin iki ağır buzqıranı da mövcuddur – Polar Star və Healy.

*XQ*


# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*gəmilərində "GSM" şəbəkəsi vasitəsilə internetin təmin olunması xidmətlərinin (material daxil) satın alınması məqsədilə*

# AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il dekabrın 2-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1132.
**Ünvan:** Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 251 (30945) 27 noyabr 2025-ci il, cümə axşamı

## İDMAN

### UEFA Çempionlar Liqasında V tur

**UEFA Çempionlar Liqasının əsas mərhələsində növbəti turun oyunları olub. Ağdamın "Qarabağ" komandası İtaliyada "Napoli"nin qonağı olub.**



"Dieqo Armando Maradona" stadionunda V tur çərçivəsində baş tutan qarşılaşmanın birinci hissəsində qapılara qol vurulmayıb. İkinci hissədə meydan sahibləri daha yaxşı oyun sərgiləyiblər. Qarşılaşmanın 56-cı dəqiqəsində "Qarabağ"ın qapıçısı Mateuş Koxalski Rasmus Höylundun vurduğu on bir metrlik cərimə zərbəsini dəf edib. Lakin 65-ci dəqiqədə meydan sahiblərindən Skott MakTominey hesabı açıb–1:0. 72-ci dəqiqədə isə Marko Yankoviç avtoqol müəllifi olub.

Ağdam klubu Çempionlar Liqasında növbəti görüşünü dekabrın 10-da Bakıda Niderlandın "Ayaks" komandasına qarşı keçirəcək. Qurban Qurbanovun yetirmələri hazırda turnir cədvəlində 7 xalla 16-cı pillədə qərarlaşıb.

Yeri gəlmişkən, Türkiyənin "Qalatasaray" komandası V tur çərçivəsində doğma meydanda Belçikanın "Union" komandasını qəbul edib. Oyun qonaqların xeyrinə başa çatıb.

### Özbəkistan şahmatçısı Dünya kubokunu qazanıb

**Hindistanın Qoa şəhərində keçirilən şahmat üzrə Dünya kubokuna yekun vurulub. Özbəkistan təmsilçisi Javohir Sindarov birinci olub. O, final görüşünün tay-breykində çinli rəqibi Vey İ ilə dueldən qalib ayrılıb.**



Sindarov, Vey İ və yarışı üçüncü sırada bitirən rusiyalı Andrey Yesipenko gələn il keçiriləcək İddiaçılar Turnirində iştirak etmək hüququ qazanıblar.

Qeyd edək ki, Beynəlxalq Şahmat Federasiyası (FIDE) 2026-cı il İddiaçıların Turnirinin 28 mart – 16 aprel tarixlərində Kiprdə keçiriləcəyini açıqlayıb.

Qrossmeysterlər Pafos şəhəri yaxınlığındakı oteldə oynayacaqlar.

### AVRO–2026-ya hazırlıq

**Avropa Voleybol Konfederasiyasının AVRO–2026 (CEV EUROVOLLEY 2026) üzrə Təşkilat Komitəsinin nümayəndələri və turnirin yayım tərəfdaşı "İnfront" şirkətinin əməkdaşları noyabrın 25-də Bakıda səfərdə olublar.**



Qitə birinciliyində ölkəmizin ev sahibi olduğu C qrupunun oyunlarının keçiriləcəyi Milli Gimnastika Arenasının texniki imkanları, infrastruktur, komanda və media zonaları, televiziya yayımı üçün nəzərdə tutulmuş məkanlar, azarkeşlər üçün xidmət sahələri nümayəndələrə təqdim edilib. Qonaqlara görülən işlər, eləcə də qarşıdakı aylarda planlaşdırılan hazırlıq mərhələləri ilə bağlı məlumatlar verilib, geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Bakının ev sahibliyi edəcəyi C qrupunda Azərbaycan, Portuqaliya, Niderland, Belçika, Rumıniya və İspaniya komandaları mübarizə aparacaqlar. Digər qrupların oyunları isə Türkiyə (A qrupu), Çexiya (B qrupu) və İsveçdə (D qrupu) təşkil olunacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**XALQ QƏZETİ**

**Abunə yazılışını davam etdirir!**

*Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda, aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:*

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.




**Hörmətli abunəçilər!**
**Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

*Maraq dünyamız*

# Biz niyə və necə əsnəyirik?

**İnsan orta hesabla gün ərzində 7-23 dəfə əsnəyir. Perm Politexnik Universitetinin alimləri bu zaman orqanizmdə nələrin baş verdiyini, kimlərə "yoluxucu" əsnəmənin təsir etmədiyini, onun stres, başağrısı, yuxululuq və cansıxıcılıq kimi hallarda necə dəyişdiyini və əsnəmə ilə oksigen çatışmazlığı və bədənin istilik tənzimlənməsi arasında əlaqənin niyə ikinci dərəcəli olduğunu izah ediblər.**



Əsnəmə yüksək sinir fəaliyyətinin bir çox mərkəzlərini işə salan mürəkkəb neyrofizioloji aktdır. Tibb elmləri namizədi, Kimya və biotexnologiya kafedrasının aparıcı elmi işçisi Valeri Litvinovun sözlərinə görə, mərkəzi sinir sistemində tormozlayıcı proseslər yığıldıqda, dopamin neyronları aktivləşir və bu siqnal beyin kötüyündəki tənəffüs mərkəzinə ötürülür. Nəticədə xarakterik zəncirvari proses baş verir: dərin nəfəsalma, diafraqma və qabırğaarası əzələlərin yığılması, nəfəsin 2–5 saniyəlik saxlanılması, boyun və üz əzələlərinin gərilməsi, sonra isə güclü nəfəsvermə.

Son olaraq nəfəs alarkən havanın həcmi normaldan 4 dəfə çox artır, bu da qanda oksigen səviyyəsini müvəqqəti yüksəldir. Əzələlərin gərilməsi isə ürəyə daha çox qan axını təmin edir, ürək döyüntülərinin sayını və nasoslanan qanın həcmini 20–25 faiz artırır. Bu mexanizm orqanizmin "iş rejimini" incə şəkildə tənzimləyir. Yayılmış fikrin əksinə olaraq, elmi tədqiqatlar göstərib ki, qandakı oksigen və ya karbon qazı səviyyəsinin dəyişməsi əsnəməyə təsir etmir.

Litvinov bildirir ki, havasız mühitdə əsnəmək havanın tərkibi ilə deyil, oyanıqlıq səviyyəsinin dəyişməsi ilə bağlıdır. Havasızlıq insanı yuxulu və diqqətsiz edə bilər, bu da əsnəməni müvəqqəti aktivləşmə mexanizmi kimi işə salır. Əgər insan aktiv qalırsa, bu reaksiya baş verməyə də bilər. Yəni əsas amil oksigen çatışmazlığı deyil, mərkəzi sinir sisteminin funksional vəziyyətidir.

Koqnitiv-psixoloq Yuliya Neverovanın sözlərinə görə, "yoluxucu" əsnəmə güzgü neyronlarının fəaliyyətinə əsaslanır. Bu neyronlar həm hərəkəti yerinə yetirərkən, həm də başqasının eyni hərəkətini izləyərkən aktivləşir. Onlar təqlid və empatiya qabiliyyətinin əsasını təşkil edir. Əsnəməni daha çox yaxın dostdan və ya ailə üzvündən "yoluxmaq" ehtimalı var, çünki emosional bağ güzgü neyronlarının reaksiyasını gücləndirir. Bu hal "empatik əsnəmə" adlanır. Autizmli insanlar isə çox zaman bu effekti göstərmirlər, çünki üz ifadələrini tanımaq və empatiya qurmaq qabiliyyətləri zəif ola bilər.

Cansıxıcılıq psixoloji aktivliyin azalması ilə bağlıdır. Bu zaman sinir sistemində tormozlayıcı proseslər güclənir və əsnəmə mexanizmi işə düşür. Dopamin ifrazı beyni "təmizləyir", diqqəti artırır və insana qısamüddətli "aydınlıq" hissi verir. İmtahan və ya çıxış öncəsi əsnəmə sinir sisteminin gərginliyini azaltmaq məqsədi daşıyır. Bu zaman dopamin yerinə serotonin ifraz olunur, o da əzələləri boşaldır və sakitləşdirici təsir göstərir. Axşam əsnəməsi də eyni mexanizmlə baş verir – orqanizmi yuxuya hazırlayır. Bəzi mülahizələrə görə, əsnəmə beyni soyutmağa kömək edir, lakin bu, əsas yox, əlavə mexanizmdir. Əsas məqsəd sinir sisteminin aktivlik səviyyələrini tənzimləməkdir.

Əsnəyərkən üz əzələlərinin gərilməsi göz yaşı vəzilərini stimullaşdırır, eyni zamanda, axar kanallar sıxılır. Nəticədə, maye yığılır və göz yaşları yanaqlara axır. Miqren və ya gərginlik zamanı beyin kötüyündəki tənəffüs mərkəzi qıcıqlanır, əsnəmə isə bu balanssızlığı bərpa edir – spazmı azaldır, qan dövranını yaxşılaşdırır, ağrını yüngülləşdirir. İnsan iradə ilə əsnəməni bir qədər ləngidə bilər, lakin tam dayandıra bilməz. Bu refleks dərin beyin strukturları tərəfindən idarə olunur və şüurdan asılı deyil. Buna görə əsnəmə adətən qəfil və qeyri-ixtiyari şəkildə baş verir.

Bir sözlə, əsnəmə – orqanizmin sinir sistemindəki disbalansa cavab olaraq işə düşən, oyanıqlıq səviyyəsini tənzimləyən mürəkkəb və zəruri mexanizmdir.

*Hazırladı:*
*S.ELAY*
*XQ*

## HAVA

# Çiskin, yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacaq. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 9-12, gündüz 15-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 67-70 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin günün birinci yarısında bəzi şərq rayonlarında çiskinli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9, gündüz 16-20, dağlarda gecə 1-6, gündüz 12-17 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

*Sağlamlıq*

# Cavan qalmaq üçün beyin...

*Yaşıl çay için, qoz yeyin*

**ABŞ-ın Harvard, İsrailin Ben-Qurion və Almaniyanın Leypsiq universitetlərinin apardığı birgə araşdırma sağlamlıq üçün önəmli bir yeniliklə nəticələnib. Sən demə, yaşıl çay, qoz və manqay bitkisi insan beyninin qocalmasını ləngidir.**

18 ay davam edən tədqiqata 300-ə yaxın yaşlı insan cəlb edilib. Onları müxtəlif pəhriz qruplarına bölüblər. Sonda "Aralıq dənizi pəhrizi"nə əməl edənlərdə beyinin daha gənc qalması aşkar edilib. MRT müayinələri də bu adamların başlarının içi yaşlarına nisbətən cavan qaldığını göstərib. O da



məlum olub ki, bu qrupda beyin qocalmasına təsir edən qalyektin-9 zülalı xeyli azalıb.

Alimlər qeyd ediblər ki, yaşıl çay antioksidantlarla, qoz faydalı yağlar və polifenollarla zəngindir. Dünyanın ən kiçik yarpaqlı tərəvəzi olan manqay isə özündə B12 vitaminini və dəmirin asan mənimsənilən formalarını cəmləşdirib. Bu maddələr iltihab təhlükəsini azaldır, yaddaşı və qavramanı gücləndirir. Yaşıl çay və qoz manqaysız da beyin üçün olduqca faydalıdır.

*Vüsalə BAYRAMOVA*
*XQ*

**"Finex Kredit" BOKT ASC səhmdarlarının nəzərinə!**

27 dekabr 2025-ci il saat 11:00-da Bakı şəhəri, S.Rüstəm küçəsi, 11 nömrəli ünvanda "Finex Kredit" BOKT ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Nizamnamə kapitalının artırılması barədə müzakirə

**2.** Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin çərşənbə axşamı günləri saat 12:00-dək tanış ola bilərlər.

**Əlaqə telefonu:**
(+994 12) 440-56-15.
**E-mail:** info@finexkredit.az
**Ünvan:** Bakı şəhəri, S.Rüstəm küçəsi 11.

***✓ "Sumqayıt Ərzaq-73" ASC cəmiyyətin yenidən təşkili ilə əlaqədar 9412 ədəd adi, adlı səhmlərin dövriyyədən çıxarıldığını elan edir.***

***✓ 1998-ci il sentyabrın 15-də Laçın rayonunun 13 nömrəli orta məktəbi tərəfindən Əliyeva İlahə Xudu qızının adına verilmiş 105263 nömrəli əmək kitabçası itdiyi üçün etibarsız sayılır.***

***✓ "Hacıoğlu Kredit İttifaqı"nın möhür və künc ştampı itdiyi üçün etibarsız sayılır.***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3519
SİFARİŞ 2324
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00